RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 115 (10135) 3 iyul 2026-cı il CÜMƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

## Azərbaycan-Türkiyə qardaşlıq və müttəfiqlik münasibətləri uğurla inkişaf edir



### Prezident İlham Əliyev Türkiyənin ədliyyə nazirini qəbul edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 2-də Türkiyə Respublikasının ədliyyə naziri Akın Gürleki qəbul edib.**

AZƏRTAC xəbər verir ki, qəbula və göstərilən qonaqpərvərliyə görə minnətdarlığını ifadə edən Akın Gürlek Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Türkiyə dövlətinin başçısına çatdırmağı xahiş etdi.

Qonaq ortaq tarixə, mədəniyyətə və qardaşlığa əsaslanan əlaqələrimizin Azərbaycan və Türkiyə prezidentləri arasında mövcud olan səmimi münasibətlər sayəsində daha da inkişaf etdiyini vurğuladı.

Türkiyənin ədliyyə naziri dövlətimizin başçısının güclü liderliyi ilə ölkəmizin inkişaf etdiyini deyərək, bu xüsusda Azərbaycanın iqtisadi tərəqqisinə, beynəlxalq nüfuzunun daha da artmasına və tarixi Qarabağ Zəfərinə toxundu.

Akın Gürlek həmçinin Azərbaycanın bölgədə enerji, bağlantılar, o cümlədən Zəngəzur dəhlizi kimi strateji layihələrin həyata keçirilməsində önəmli rolunu vurğuladı və Türkiyənin bundan sonra da ölkəmizin yanında olacağını dedi.

Söhbət zamanı bütün sahələri əhatə edən Azərbaycan-Türkiyə qardaşlıq və müttəfiqlik münasibətlərinin uğurla inkişaf etdiyi məmnunluqla vurğulandı. Ölkələrimizin Ədliyyə nazirlikləri arasında səmərəli tərəfdaşlığın qurulduğu bildirilərək, əməkdaşlığın genişləndirilməsi ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

# Bakı-Brüssel tərəfdaşlığında yeni dövr



### Avropa İttifaqının ali şəxslərinin Bakıya ardıcıl səfərləri Azərbaycanın regional liderliyinin və müstəqil siyasətinin rəsmi təsdiqidir

Prezident İlham Əliyev iqtisadi münasibətlərin və enerji sahəsindəki tərəfdaşlığın real statistik mənzərəsini bu sözlərlə diqqətə çatdırıb: "Avropa İttifaqı Azərbaycanın əsas ticarət tərəfdaşıdır. Ticarətimizin 40 faizdən çoxu üzv dövlətlərlə aparılır və Azərbaycan Avropa İttifaqı üçün Cənubi Qafqazda əsas ticarət tərəfdaşıdır. Cənubi Qafqazda ticarətin təxminən 70 faizi Azərbaycanla aparılır". Azərbaycanın Avropa üçün iqtisadi əhəmiyyətini Ursula fon der Lyayen də bəyanatında dilə gətirib: "Avropa İttifaqı artıq Azərbaycanın ən böyük ticarət tərəfdaşı və ən iri sərmayədarıdır".

Bakı ilə Brüssel arasındakı təmasların təməlini təkcə enerji məsələsi təşkil etmir. Hazırda bu əlaqələr regional təhlükəsizlik, nəqliyyat-logistika kimi daha geniş istiqamətləri də əhatə edir. Avropa İttifaqı ölkəmizi Avropa ilə Asiyanı qovuşduran mühüm geostrateji və logistik mərkəz olaraq görür. Bağlantı və regional nəqliyyat layihələrinin müzakirələrin təməl hədəflərindən olduğunu vurğulayan Prezident İlham Əliyev qeyd edib ki, Azərbaycan regional daşımalar layihələrinin bir çox halda fəal iştirakçısı və təşəbbüskarıdır: "Şərq-Qərb" və "Şimal-Cənub" daşımalar dəhlizləri Azərbaycandan keçir və qonşularımızla, həmçinin qonşularımızın qonşuları ilə yaxşı münasibətləri bizə bütün iştirakçılara fayda gətirən çox geniş əməkdaşlıq formatını qurmağa imkan yaratdı. Bu gün Azərbaycandan keçən yüklərin həcmi bütün istiqamətlərdə artır".

Azərbaycan qlobal logistik proseslərə istiqamət verən fəal təşəbbüskar dövlətdir. Dünyanın ən mühüm transmilli marşrutları sayılan "Şərq-Qərb" və "Şimal-Cənub" nəqliyyat dəhlizlərinin məhz ölkəmizin ərazisində kəsişməsi Bakını Avrasiya materikinin strateji logistik mərkəzinə çevirir. Dəniz limanlarının və dəmir yolu şəbəkəsinin imkanlarının daha da genişləndirilməsi dövlətimizin qlobal çağırışları qabaqlayan çevik idarəetmə strategiyasından xəbər verir. Avropa İttifaqı ilə aparılan müzakirələrdə bağlantı mövzusunun təməl hədəf kimi qoyulması Brüsselin də bu məsələyə böyük marağını göstərir.

6

## Onun həyat missiyası - cəmiyyətə xidmət

Azərbaycanın ictimai-siyasi və mədəni həyatına nəzər saldıqda, fəaliyyətində humanizmi, ekoloji məsuliyyəti və milli dəyərləri birləşdirən fərqli bir imza diqqəti cəlb edir. Bu imza Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla xanım Əliyevaya məxsusdur. O, həm milli mədəniyyətin beynəlxalq arenada fəal təbliğatçısı, həm də humanist layihələrin rəhbəri kimi tanınmış simalardandır. Leyla Əliyeva genişmiqyaslı fəaliyyəti ilə təkcə ölkə daxilində deyil, qlobal miqyasda Azərbaycanın mədəniyyət, ekologiya, humanitar diplomatiya sahələrində missiyasını uğurla yerinə yetirir. Çox gənc yaşlarından Leyla xanım müxtəlif ictimai vəzifələr yerinə yetirməkdədir. O, Heydər Əliyev Fondunun vitse-prezidenti, Ətraf mühitin mühafizəsi naminə beynəlxalq dialoq ictimai birliyinin (IDEA) təsisçisi və sədri, "Baku" jurnalının təsisçisi və baş redaktoru, İslam Əməkdaşlıq Təşkilatı Gənclər forumunun mədəniyyətlərarası dialoqunun baş koordinatorudur.



8

## “Rəqəmsal inkişaf Azərbaycan üçün kompleks strateji prioritetdir”

Rəqəmsal transformasiyanın mühüm istiqamətlərindən birinin təhsil olduğunu diqqətə çatdıran müsahibimiz qeyd edib ki, yeni nəsil arasında rəqəmsal kompetensiyaların formalaşdırılması, tədris prosesində süni intellekt texnologiyalarının tətbiqi və insan kapitalının gücləndirilməsi gələcəyin rəqabətqabiliyyətli cəmiyyətinin qurulmasına xidmət edir. Həyata keçirilən islahatlar göstərir ki, Azərbaycan üçün rəqəmsal inkişaf texniki bir məsələ deyil, dövlət idarəçiliyinin modernləşdirilməsi, iqtisadi şaxələndirmə, milli təhlükəsizlik və insan kapitalının inkişafını əhatə edən kompleks strateji prioritetdir.

8

## 19 il əvvəl "Şahdəniz" qazı Türkiyəyə çatdırıldı



BTC-dən və BTƏ-dən başlanan yollar artıq geniş dəhlizlərə qovuşub. Prezident İlham Əliyevin təşəbbüsü ilə, Azərbaycanın liderliyi ilə gerçəkliyə çevrilən "Cənub qaz dəhlizi" Avropanın enerji xəritəsini dəyişdirib. Hazırda həmin dəhliz və ona birləşən interkonnektorlar vasitəsilə 16 ölkə Azərbaycan qazı alır. Bu ölkələrin adlarını bir daha xatırladaq: Gürcüstan, Türkiyə, Yunanıstan, Bolqarıstan, İtaliya, Rumıniya, Macarıstan, Serbiya, Sloveniya, Xorvatiya, Şimali Makedoniya, Slovakiya, Ukrayna, Suriya, Almaniya və Avstriya. Göründüyü kimi, bunların 10-u Avropa İttifaqına üzv dövlətlərdir.

3

## Rəqəmsal əsrdə sağlam nəsli necə yetişdirməli

### İndi bütün dünyanı düşündürən əsas problemlərdən biri də budur



Bu gün dünyanın bir çox ölkəsində əsas müzakirə mövzusu uşaqların rəqəmsal təhlükəsizliyinin təmin olunması yollarıdır. Azərbaycan da bu istiqamətdə mühüm hüquqi addım atıb. Milli Məclisin İnzibati Xətalar Məcəlləsində, "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" və "Uşaqların zərərli informasiyadan qorunması haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsini parlament üçüncü oxunuşda qəbul edib.

Dəyişikliklərin mahiyyəti aydındır: məqsəd sosial şəbəkələrə qadağa qoymaq yox, uşaqları yaşlarına uyğun olmayan rəqəmsal təsirlərdən qorumaq, onların fiziki, psixoloji və mənəvi inkişafı üçün daha təhlükəsiz informasiya mühiti formalaşdırmaqdır.

5

## "Made in Azerbaijan" - coğrafiyası genişlənən brend

Bu gün "Made in Azerbaijan" nişanı altında istehsal olunan məhsullar dünyanın 70-dən çox ölkəsinə ixrac edilir. Qida və kimya sənayesi, kənd təsərrüfatı məhsulları, tikinti materialları, tekstil, maşınqayırma və digər sahələri əhatə edən məhsullar xarici bazarlarda Azərbaycan istehsalının keyfiyyətini və rəqabət üstünlüyünü nümayiş etdirir. Sənaye parklarında fəaliyyət göstərən müəssisələrin əhəmiyyətli hissəsinin ixracyönümlü istehsalla məşğul olması da bu brendin uğurunun mühüm göstəricilərindən biridir.




3

# Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 25 may tarixli 413 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 25 may tarixli 413 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 5, maddə 411 (Cild I); 2024, № 3, maddə 262, № 5 (I kitab), maddə 529, № 6 (I kitab), maddə 647, № 12 (II kitab), maddə 1369; 2025, № 5, maddə 458, № 7, maddə 641) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi haqqında Əsasnamə"nin 13-cü bəndinin birinci abzasında "üç" sözü "dörd" sözü ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 2 iyul 2026-cı il*

# Azərbaycan Mühəndislik Akademiyası ilə Pakistan Mühəndislər İnstitutu arasında əməkdaşlıq memorandumu imzalanıb

Azərbaycan Mühəndislik Akademiyası ilə Pakistan Mühəndislər İnstitutu arasında mühəndislik sahəsində əməkdaşlığın inkişafına dair memorandum imzalanıb.




Akademiyadan AZƏRTAC-a bildirilib ki, sənədi Azərbaycan tərəfindən akademiyanın prezidenti, akademik Arif Paşayev, Pakistan tərəfindən isə institutun prezidenti Farhat Adil imzalayıb.

Memorandumun məqsədi mühəndislik sahəsində elmi, texniki və peşəkar əməkdaşlığın inkişaf etdirilməsi, beynəlxalq əlaqələrin gücləndirilməsi, bilik və təcrübə mübadiləsinin təşviq edilməsidir.

Sənədə əsasən, tərəflər elmi və texniki informasiya mübadiləsi aparacaq, beynəlxalq konfrans, seminar və simpoziumların təşkilində əməkdaşlıq edəcək, mühəndislər və tədqiqatçılar arasında əlaqələrin genişləndirilməsi, həmçinin birgə elmi və innovativ layihələrin həyata keçirilməsi istiqamətində fəaliyyət göstərəcəklər.

Bildirilib ki, memorandum Azərbaycan və Pakistanın mühəndislik təşkilatları arasında əlaqələrin genişlənməsinə, beynəlxalq təşəbbüs və layihələrin həyata keçirilməsinə, eləcə də mühəndislik sahəsində təcrübə mübadiləsinin gücləndirilməsinə töhfə verəcək.

Qeyd edək ki, Azərbaycan Mühəndislik Akademiyası Ümumdünya Mühəndislik Təşkilatları Federasiyasının (WFEO) üzvü kimi beynəlxalq əməkdaşlığın inkişafına və qlobal mühəndislik ictimaiyyəti ilə əlaqələrin genişləndirilməsinə xüsusi önəm verir.

# BMT Baş katibinin elçisi Azərbaycanın yol təhlükəsizliyi sahəsində əldə etdiyi irəliləyişi yüksək qiymətləndirib

İyulun 2-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov ölkəmizdə səfərdə olan BMT Baş katibinin yol təhlükəsizliyi üzrə xüsusi elçisi Jan Todt ilə görüşüb.



Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, görüş zamanı Azərbaycan ilə BMT arasında mövcud əməkdaşlıq gündəliyi, yol təhlükəsizliyi sahəsində beynəlxalq əməkdaşlıq məsələləri, habelə bu istiqamətdə qlobal təşəbbüslər ətrafında fikir mübadiləsi aparılıb.

Ceyhun Bayramov ölkəmizin Dayanıqlı İnkişaf Məqsədlərinin icrası, təhlükəsiz, dayanıqlı və müasir nəqliyyat sisteminin inkişafı, eləcə də yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi istiqamətində həyata keçirdiyi ardıcıl islahatlar barədə məlumat verib. Bu çərçivədə nəqliyyat infrastrukturunun müasirləşdirilməsi, rəqəmsal həllərin tətbiqi və yol hərəkəti təhlükəsizliyinin gücləndirilməsi sahəsində görülən işlər vurğulanıb. Nazir həmçinin bütün ölkə ərazisində, xüsusilə də işğaldan azad edilmiş ərazilərimizdə yüksəksəviyyəli yol və infrastruktur layihələrinin həyata keçirildiyini diqqətə çatdırıb.

Jan Todt BMT Baş katibinin xüsusi elçisi qismində həyata keçirilən fəaliyyət, yol-nəqliyyat hadisələrinin qarşısının alınması və bu sahədə beynəlxalq əməkdaşlığın gücləndirilməsi istiqamətində görülən tədbirlər barədə məlumat verib. O, Azərbaycanın yol təhlükəsizliyi sahəsində həyata keçirdiyi tədbirləri və əldə olunan irəliləyişi yüksək qiymətləndirib, bu istiqamətdə əməkdaşlığın davam etdirilməsinin əhəmiyyətini vurğulayıb.

Görüş zamanı həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər də müzakirə olunub.

# Qətər XİN ABŞ-İran danışıqlarında irəliləyiş olduğunu açıqlayıb

Qətər Xarici İşlər Nazirliyinin sözçüsü Məcid əl-Ənsarinin dediyinə görə, çərşənbə günü Dohada Qətər və Pakistan vasitəçilərinin iştirakı ilə keçirilən ABŞ-İran danışıqlarında irəliləyiş əldə edilib.



Əl-Ənsari sosial media platforması "X"də yazıb: "Dohada Qətər və Pakistan vasitəçiləri ABŞ və İran nümayəndələri ilə ayrı-ayrı görüşlər keçiriblər və İslamabad Anlaşma Memorandumu ilə bağlı məsələlərdə müsbət irəliləyiş əldə edilib".

Bildirildiyinə görə, tərəflər yaxın gələcəkdə müzakirələri davam etdirmək barədə razılığa gəliblər və növbəti görüşün tarixi fevralın sonlarında İranın ABŞ zərbələri nəticəsində öldürülən keçmiş ali lideri Ayətullah Əli Xameneinin dəfn mərasimindən sonraya təyin olunacağı nəzərdə tutulur. Məlumat üçün bildirək ki, İran hakimiyyəti Xameneinin dəfn mərasimlərini iyulun 4-dən 9-dək İraqda və İranın özündə keçirməyi planlaşdırır.

Bundan əvvəl də media İran və ABŞ-nin çərşənbə günü Qətər və Pakistan vasitəçiləri vasitəsilə dolayı danışıqlar apardığını bildirmişdi. Həmçinin çərşənbə günü İran xarici işlər nazirinin müavini Kazem Qəribabadi Qətər Baş naziri ilə İran-ABŞ memorandumunun reallaşmasını müzakirə edib. Bunun ardınca İran, Qətər və Pakistan arasında üçtərəfli görüş keçirilib.

ABŞ Prezidentinin xüsusi elçisi Stiv Uitkoff və prezidentin kürəkəni Cared Kuşner də çərşənbə axşamı və çərşənbə günləri Qətərdə danışıqlar aparıblar. Qətər əmiri Təmim bin Həməd Əl-Tani ilə görüşləri zamanı onlar Livanda atəşkəs və Vaşinqtonla Tehran arasında imzalanmış anlaşma memorandumunda nəzərdə tutulan ABŞ-İran danışıqlarının vəziyyətini müzakirə ediblər.

Çərşənbə axşamı Vitkoff və Kuşner Dohada Qətərin Baş naziri və xarici işlər naziri Məhəmməd bin Əbdülrəhman Əl-Tani ilə görüşdə Vaşinqtonun Tehranla hərtərəfli razılığa gəlmək üçün danışıqları davam etdirmək niyyətini bir daha təsdiqləyiblər.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***

# Azərbaycan və İtaliya arasında parlamentlərarası əməkdaşlıq müzakirə olunub

İyulun 2-də Milli Məclisin Sədrinin müavini Ziyafət Əsgərov İtaliya Deputatlar Palatasının Konstitusiya, şura sədrliyi və daxili işlər məsələləri komitəsinin sədri Nazario Paqanonun başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.





Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, qonaqları Azərbaycan parlamentində salamlamaqdan məmnunluğunu bildirən Ziyafət Əsgərov Azərbaycan ilə İtaliya arasında mövcud olan yüksəksəviyyəli siyasi dialoqun parlamentlərarası münasibətlərin inkişafı üçün də əlverişli zəmin yaratdığını vurğulayıb. O bildirib ki, iki ölkə arasında əməkdaşlığın hərtərəfli inkişafında dövlət və hökumət başçıları səviyyəsində səfərlər, eləcə də yüksəksəviyyəli siyasi təmaslar mühüm rol oynayır.

Görüşdə Azərbaycanın Avropada ən böyük ticarət tərəfdaşlarından birinin İtaliya olduğu qeyd edilib, enerji, iqtisadiyyat və investisiya sahələrində uğurlu əməkdaşlıqdan məmnunluq ifadə olunub. Həmçinin Avropa İttifaqı ilə Azərbaycan arasında münasibətlərin gələcək inkişaf perspektivləri, eləcə də Heydər Əliyev Fondu tərəfindən İtaliyada həyata keçirilən mədəni-humanitar layihələr barədə fikir mübadiləsi aparılıb.

Söhbət zamanı vitse-spiker Milli Məclisin qanunvericilik fəaliyyəti, beynəlxalq parlament təşkilatlarında təmsilçiliyi və parlament diplomatiyasının prioritet istiqamətləri haqqında da ətraflı məlumat verib.

Öz növbəsində Nazario Paqano Azərbaycana səfərdən məmnunluğunu ifadə edərək parlamentlərarası əməkdaşlığın dövlətlər arasında siyasi dialoqun və qarşılıqlı etimadın möhkəmləndirilməsinə mühüm töhfə verdiyini bildirib. Vurğulayıb ki, Azərbaycan ilə İtaliya arasında ticarət-iqtisadi əlaqələr dinamik inkişaf edir. İtaliya şirkətlərinin Azərbaycanda uğurlu fəaliyyəti, neft-qaz və enerji sektorlarında həyata keçirilən birgə layihələr ikitərəfli əməkdaşlığın əsas istiqamətlərindən biridir və gələcəkdə bu əlaqələrin daha da genişləndirilməsi üçün əlverişli imkanlar mövcuddur.

Görüşdə Azərbaycan-İtaliya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Azər Kərimli, İtaliyanın Azərbaycandakı səfiri Luka Di Confrançesko çıxış edərək əməkdaşlığımızın inkişafı barədə fikirlərini bölüşüblər. Söhbət zamanı humanitar sahədə əməkdaşlığın da uğurla inkişaf etdiyi bildirilib. Eyni zamanda hər iki ölkənin parlamentlərində fəaliyyət göstərən dostluq qruplarının parlamentlərarası əməkdaşlığın möhkəmləndirilməsinə verdiyi töhfə yüksək qiymətləndirilib.

❖ ❖ ❖

Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli İtaliya Deputatlar Palatasının Konstitusiya, şura sədrliyi və daxili işlər məsələləri komitəsinin sədri Nazario Paqano ilə görüşüb.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, tərəflər Azərbaycan ilə İtaliya arasında münasibətlərin hazırkı vəziyyəti, əməkdaşlıq məsələləri, eləcə də parlament diplomatiyasının ikitərəfli əlaqələrin daha da inkişafına verə biləcəyi töhfələr barədə fikir mübadiləsi aparıblar.

Əli Hüseynli Azərbaycan-İtaliya münasibətlərinin yüksək səviyyədə inkişaf etdiyini məmnunluqla qeyd edib, bu əlaqələrin möhkəmlənməsində dövlət başçıları arasında formalaşmış səmərəli siyasi dialoqun və yüksəksəviyyəli qarşılıqlı təmasların müstəsna rolunu vurğulayıb. O, İtaliyanın regionda sülhün, sabitliyin və əməkdaşlığın təşviqinə, habelə humanitar proseslərin dəstəklənməsinə verdiyi töhfəni yüksək qiymətləndirərək İtaliya tərəfinə minnətdarlığını bildirib. Komitə sədri həmçinin 2025-ci ilin dekabrında İtaliya Deputatlar Palatasında Azərbaycan Respublikası Konstitusiyasının qəbul edilməsinin 30 illiyinə həsr olunmuş tədbirin keçirilməsini parlamentlərarası əməkdaşlığın uğurlu nümunəsi kimi dəyərləndirib və bu təşəbbüsə göstərilən dəstəyə görə təşəkkürünü çatdırıb.

Nazario Paqano isə qarşılıqlı səfərlərin və parlamentlərarası təmasların əməkdaşlığın daha da genişlənməsinə və xalqlarımızın bir-birini daha yaxından tanımasına mühüm töhfə verdiyini bildirib. O, parlament diplomatiyasının və parlamentlərarası əməkdaşlığın gələcəkdə də ikitərəfli münasibətlərin inkişafında mühüm rol oynayacağına əminliyini ifadə edib.

Görüşdə Milli Məclisin İtaliya ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Azər Kərimli, deputat Nurlan Həsənov, İtaliyanın Azərbaycandakı səfiri Luka Di Canfrançesko parlament təmaslarının genişləndirilməsi, təcrübə mübadiləsi və digər əməkdaşlıq məsələləri ilə bağlı fikirlərini bölüşüblər.

Söhbət parlamentlərimizin gələcək əməkdaşlıq perspektivləri və tərəfləri maraqlandıran digər məsələlərin müzakirəsi ilə davam edib.

***"Azərbaycan"***

# Dostluq və qardaşlıq münasibətləri hərbi əməkdaşlığın yüksələn xətlə inkişafına təsir göstərir

İyulun 2-də Azərbaycanın müdafiə naziri general-polkovnik Zakir Həsənov ölkəmizdə səfərdə olan Türkiyə Respublikası Prezident Administrasiyasının Müdafiə Sənayesi Agentliyinin sədr müavini Mustafa Murat Şekerin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.



Müdafiə Nazirliyindən AZƏRTAC-a verilən məlumata görə, görüşdə müdafiə naziri ölkələrimiz arasında həyata keçirilən birgə hərbi sənaye layihələrinin ordularımızın müdafiə qüdrətini daha da artıracağından əminliyini ifadə edib.

Göstərilən qonaqpərvərliyə görə general-polkovnik Z.Həsənova minnətdarlığını bildirən M.M.Şeker bu cür görüşlərin qardaş ölkə ilə mövcud hərbi əməkdaşlığın genişləndirilməsində xüsusi rol oynadığını vurğulayıb.

Səfər çərçivəsində nümayəndə heyəti müdafiə nazirinin birinci müavini - Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-polkovnik Kərim Vəliyev ilə də görüşüb.

Görüşdə xalqlarımız arasında dostluq və qardaşlıq münasibətlərinin hərbi əməkdaşlığın yüksələn xətlə inkişafına böyük təsir göstərdiyi qeyd olunub. Keçirilən hər iki görüşdə tərəflər ölkələrimiz arasında hərbi əlaqələrin inkişaf perspektivləri, o cümlədən peyk texnologiyaları, radioelektron mübarizə, insansız sistem və digər sahələrdə süni intellektin tətbiqinə dair ətraflı fikir mübadiləsi aparıb.

# Azərbaycanın HHQ komandanı Türkiyədə rəsmi səfərdədir

Azərbaycan Respublikası müdafiə nazirinin müavini - Hərbi Hava Qüvvələrinin (HHQ) komandanı general-leytenant Namiq İslamzadə Türkiyədə rəsmi səfərdədir.



Müdafiə Nazirliyindən AZƏRTAC-a verilən məlumata görə, plana uyğun olaraq general-leytenant N.İslamzadə "Anadolu Qartalı - 2026" beynəlxalq taktiki-uçuş təlimi çərçivəsində bir sıra tədbirlərdə iştirak edib, şəxsi heyətlə görüşüb. Azərbaycan heyətinin rəhbəri polkovnik Zaur Məmmədov təlimin gedişi və şəxsi heyət qarşısında qoyulan tapşırıqlar barədə HHQ komandanına məruzə edib.

Təlimdə şəxsi heyətin nümayiş etdirdiyi peşəkarlıq nazir müavini tərəfindən yüksək qiymətləndirilib.

Sonra general-leytenant Namiq İslamzadə və Türkiyə HHQ-nin komandanı ordu generalı Ziya Cemal Kadıoğlu arasında görüş keçirilib.

Görüşdə ölkələrimiz arasında hərbi aviasiya sahəsində əməkdaşlığın mövcud vəziyyəti və inkişaf perspektivləri, birgə keçirilən təlimlərin əhəmiyyəti və qarşılıqlı təcrübə mübadiləsi xüsusi vurğulanıb.

Hər iki ölkənin HHQ-nin komandanları təlim fəaliyyətlərini havadan izlədikdən sonra təlim çərçivəsində təşkil olunan sərgidə nümayiş etdirilən hərbi silah və texnika nümunələri ilə tanış olublar.

# Şərəfli xidmətin təntənəsi

Azərbaycan polisinin yaranmasının 108-ci ildönümü münasibətilə daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov və nazirliyin rəhbər heyəti Fəxri xiyabana gələrək Ulu Öndər Heydər Əliyevin abidə kompleksi önünə əklil qoyublar. Görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın xatirəsi ehtiramla yad edilib.









Respublikanın ərazi bütövlüyü və suverenliyi uğrunda canlarından keçmiş mərd mübarizlərin uyuduğu Şəhidlər xiyabanı da ziyarət olunub.

Daxili İşlər Nazirliyinin Polis Akademiyasında "Polis Günü"nə və 2025-2026-cı tədris ilinin buraxılışına həsr olunmuş təntənəli mərasim keçirilib.

Tədbirdə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin, habelə respublikamızın ərazi bütövlüyü uğrunda şəhidlik zirvəsinə ucalmış və xidməti vəzifələri yerinə yetirərkən həlak olmuş polis əməkdaşlarının xatirəsi yad olunub.

Peşə bayramı münasibətilə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin təbriklərini və ən xoş arzularını şəxsi heyətə çatdıran general-polkovnik Vilayət Eyvazov ötən 108 ildə polisin keçdiyi şərəfli və zəngin xidmət yolundan, yaratdığı ənənələrdən, xüsusən Ulu Öndər Heydər Əliyevin respublikaya rəhbərlik etdiyi dövrlərdə daxili işlər orqanlarının fəaliyyətinin təşkili, milli ruhlu vətənpərvər kadrlarla möhkəmlənməsi sahəsində görülən mühüm işlərdən danışıb.

O, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin xüsusi diqqət və qayğısı sayəsində Daxili İşlər Nazirliyində güclü və müasir maddi-texniki baza yaradıldığını, müasir dövrün çağırışlarından irəli gələn struktur dəyişiklikləri aparıldığını, şəxsi heyətin sosial müdafiəsinin gücləndirilməsi, peşə hazırlığının artırılması sahəsində sistemli tədbirlərin həyata keçirildiyini və əməliyyat-xidməti fəaliyyətin vətəndaş məmnunluğunun təmini prinsipləri üzərində qurulması ilə bağlı həyata keçirilmiş tədbirləri vurğulayıb.

Vətəndaşların ərizə və şikayətlərinin obyektiv və həssaslıqla araşdırılması, qanunçuluğun qorunması, şəxsi heyətin etik davranış qaydalarına riayət etməsi kimi mühüm vəzifələrin səmərəli icrasının vacibliyinə toxunan nazir, xidməti vəzifələrin dəqiq və qüsursuz yerinə yetirilməsində dürüstlük, prinsipiallıq və məsuliyyət kimi keyfiyyətlərin böyük önəm kəsb etdiyini bildirib.

Cinayətkarlığa, onun transmilli növlərinə qarşı mübarizədə, asayişin və təhlükəsizliyin təmin olunmasında polis orqanlarının hər bir şəxsin qanuni mənafeyini, hüquq və azadlığının müdafiəsini yüksək səviyyədə təmin etdiyi qeyd olunub.

İşğaldan azad edilmiş ərazilərdə Böyük qayıdışın sürətlənməsi üçün polis orqanlarının, o cümlədən Daxili Qoşunların fəaliyyətinin mövcud vəziyyətə uyğunlaşdırıldığı, asayişin və təhlükəsizliyin etibarlı təmin edildiyi, xidmətin böyük əzm və peşəkarlıqla davam etdirildiyi vurğulanıb.

Cinayətlərin açılmasının yüksək səviyyədə saxlanılmasının, hüquqpozmaların profilaktikasının daha da yaxşılaşdırılmasının, bütövlükdə xalqa xidmət funksiyalarının daha təkmil icrası üçün əlavə tədbirlərin həyata keçirilməsinin başlıca vəzifələr olduğu şəxsi heyətin diqqətinə çatdırılıb.

Xidməti vəzifələrin icrasında daxili işlər orqanlarına hər zaman yardımçı olan, polisin peşə bayramının sevincini bölüşən vətəndaşlara, daxili işlər orqanlarının veteranlarına, dövlət qurumlarının rəhbərlərinə və əməkdaşlarına, qeyri-hökumət təşkilatlarına və media nümayəndələrinə təşəkkür ifadə olunub.

General-polkovnik V.Eyvazov təntənəli mərasimin iştirakçıları adından Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevi əmin edib ki, öz andına həmişə sadiq olan daxili işlər orqanları bundan sonra da Vətənə və xalqa şərəflə xidmət edəcək, bu yolda qüvvə və bacarığını əsirgəməyəcək.

Azərbaycan polisinin müasir dünyagörüşlü yeni nəslini Vətənə, dövlətə, xalqa sevgi və xidmət ruhunda yetişdirən Polis Akademiyasının qazanılan uğurlardakı rolunu xüsusi vurğulayan daxili işlər naziri məzunları təhsili başa vurmaları münasibətilə təbrik edib, eləcə də bu təhsil müəssisəsini baş leytenant rütbəsi ilə bitirmiş məzunlara fərqlənmə diplomlarını təqdim edib.

Təntənəli tədbir şəxsi heyətin mətin addımlarla tribuna qarşısından keçidi ilə yekunlaşıb.

***Ülkər XASPOLADOVA,***
***"Azərbaycan"***

# 19 il əvvəl "Şahdəniz" qazı Türkiyəyə çatdırıldı

## Azərbaycan qazının dünyaya yolu Bakı-Tbilisi-Ərzurum kəməri vasitəsilə başlayıb

19 il əvvəl - 2007-ci il iyulun 3-də Xəzərin Azərbaycan sektorundakı "Şahdəniz" qaz-kondensat yatağından çıxarılan mavi yanacaq Türkiyəyə ixrac olunmağa başladı. Qazın nəqli Bakı-Tbilisi-Ərzurum (BTƏ) kəməri ilə həyata keçirildi.




Bu zaman Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan (BTC) əsas ixrac neft kəməri artıq bir il idi tam sistem kimi fəaliyyət göstərirdi. BTƏ-nin işə düşməsi Azərbaycanda hasil olunan karbohidrogenlərin ixrac marşrutlarının şaxələndirilməsi istiqamətində atılan növbəti mühüm addım idi.

"Şahdəniz"in işlənməsinin birinci mərhələsi çərçivəsində çıxarılan qazı ilk dəfə ölkəmizdən kənara - qonşu Gürcüstana 2006-cı ilin sonlarında istifadəyə verilmiş Cənubi Qafqaz Boru Kəməri (CQBK) çatdırdı. CQBK ümumi uzunluğu 691 kilometr olan (443 kilometri Azərbaycan ərazisindən, 248 kilometri Gürcüstan ərazisindən keçir) kəmərdir. Gürcüstan-Türkiyə sərhədində CQBK-ya Ərzurumadək uzanan 280 kilometrlik daha bir hissə qoşulur. Beləliklə, başlanğıcını Səngəçal terminalından götürən, ön hissəsi CQBK-dan ibarət olan qaz boru xətti Bakı-Tbilisi-Ərzurum kəməri adlanır. Dünyada neft diyarı kimi şöhrət tapmış Azərbaycan məhz bu kəmərin istifadəyə verilməsi ilə həm də qaz ixrac edən ölkə kimi tanınıb.

Qeyd edək ki, hələ 2001-ci il martın 12-də Ümummilli Lider Heydər Əliyevin Türkiyəyə rəsmi səfəri çərçivəsində "Azərbaycanın təbii qazının Türkiyə Respublikasına tədarük edilməsinə dair Azərbaycan və Türkiyə Respublikaları arasında təbii qazın satışı və alışı haqqında müqavilə" imzalanmışdı. Həmin il sentyabrın 29-da isə Gürcüstan Prezidentinin Bakıya səfəri zamanı "Təbii qazın Gürcüstan Respublikası ərazisindən tranziti, nəql edilməsi və satışına dair Azərbaycan və Gürcüstan Respublikaları arasında saziş"in imzalanması baş verdi. 2007-ci ilin iyulunda "Şahdəniz" yatağının işlənməsinin birinci mərhələsi çərçivəsində çıxarılan mavi yanacağın Bakı-Tbilisi-Ərzurum xətti ilə Türkiyənin qaz kəmərləri sisteminə daxil olması bunların uğurlu nəticəsi idi.

BTC-dən və BTƏ-dən başlanan yollar artıq geniş dəhlizlərə qovuşub. Prezident İlham Əliyevin təşəbbüsü ilə, Azərbaycanın liderliyi ilə gerçəkliyə çevrilən "Cənub qaz dəhlizi" Avropanın enerji xəritəsini dəyişdirib. Hazırda həmin dəhliz və ona birləşən interkonnektorlar vasitəsilə 16 ölkə Azərbaycan qazı alır. Bu ölkələrin adlarını bir daha xatırladaq: Gürcüstan, Türkiyə, Yunanıstan, Bolqarıstan, İtaliya, Rumıniya, Macarıstan, Serbiya, Sloveniya, Xorvatiya, Şimali Makedoniya, Slovakiya, Ukrayna, Suriya, Almaniya və Avstriya. Göründüyü kimi, bunların 10-u Avropa İttifaqına üzv dövlətlərdir.

Prezident İlham Əliyev BTƏ-ni yüksək dəyərləndirərək "Cənub qaz dəhlizi"nin uğurlarının bu kəmərə əsaslandığını dəfələrlə qeyd etmişdir. Dövlətimizin başçısı 2014-cü il sentyabrın 20-də "Cənub qaz dəhlizi"nin təməlqoyma mərasimindəki çıxışında demişdir: "2007-ci ildə Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin tikintisi də tarixi hadisə idi. Çünki o hadisədən sonra Azərbaycan dünyada artıq özünü qaz ölkəsi kimi göstərməyə başlamışdır. Bu kəmərin yeni xəttinin tikintisi, əslində, bu gün başlayır. Azərbaycan artıq "Cənub qaz dəhlizi"nin birinci hissəsini 2007-ci ildə istifadəyə vermişdir".

2018-ci il mayın 29-da "Cənub qaz dəhlizi"nin açılış mərasimində Prezidentimiz bu fikri yenidən vurğulamışdır: "2007-ci ildə Bakı-Tbilisi-Ərzurum qaz kəməri istifadəyə verildi. Bu da çox önəmli layihədir. Bu layihə olmadan "Şahdəniz" yatağının işlənməsi mümkün deyildi. Beləliklə, ilk dəfə olaraq 2007-ci ildə Azərbaycan qazı Gürcüstana və Türkiyəyə nəql edilməyə başlamışdır... Doğrudan da, bunlar tarixi nailiyyətlərdir. "Şahdəniz" yatağının gələcək işlənilməsi ilə bağlı addımlar atılmağa başlanıldı. Əlbəttə, biz hamımız yaxşı bilirdik ki, böyük həcmdə Azərbaycan qazını dünya bazarlarına çıxarmaq üçün qaz kəməri lazımdır. Beləliklə, "Cənub qaz dəhlizi"nin yaradılması ilə bağlı praktiki işlərə start verildi. Çox ciddi işlər, danışıqlar aparıldı".

Xatırladaq ki, 3500 kilometrlik "Cənub qaz dəhlizi" üç kəmərin - genişləndirilmiş CQBK-nın, TANAP-ın (Trans-Anadolu Qaz Boru Kəməri) və TAP-ın (Trans-Adriatik Qaz Boru Kəməri) birləşməsindən yaranan nəhəng bir ixrac marşrutudur. Bu dəhlizin Türkiyə qolu olan TANAP 2018-ci ilin iyun ayında istifadəyə verilənədək Azərbayan qazını qardaş ölkəyə çatdırmaq təkcə BTƏ-nin öhdəsinə düşüb.

Bu gün istər Bakı-Tbilisi-Ərzurum kəməri, istərsə də "Cənub qaz dəhlizi"nin bütün seqmentləri ahəngdar və təhlükəsiz şəkildə fəaliyyət göstərir. Başqa sözlə, Azərbaycan qazının ixracı uğurla davam edir.

Deyilənlərə bir neçə rəqəm də əlavə edərək ölkəmizin hazırkı qaz ixracı mənzərəsini bir daha göz önünə gətirək. 2026-cı ilin yanvar-may aylarında Azərbaycandan xarici bazarlara 10 milyard kubmetrdən çox təbii qaz ixrac edilib. Proqnozlara əsasən, ölkənin ümumi qaz ixracının ilin sonuna qədər təqribən 25 milyard kubmetr və ya daha çox olacağı gözlənilir.

Türkiyəyə illik ixrac həcmi təxminən 9,5 milyard kubmetr civarında nəzərdə tutulur. Bu həcmin bir hissəsini TANAP, bir hissəsini isə Bakı-Tbilisi-Ərzurum kəməri daşıyacaq.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# "Made in Azerbaijan" - coğrafiyası genişlənən brend

## Bu brend altında dünyanın 70-dən çox ölkəsinə məhsul ixrac olunur

Bu gün dünyada iqtisadi rəqabət təkcə təbii sərvətlərlə deyil, əlverişli biznes mühiti, etibarlı investisiya siyasəti və güclü nəqliyyat-logistika imkanları ilə də müəyyən edilir. Son illər Azərbaycan məhz bu istiqamətlərdə əldə etdiyi uğurlarla regionun iqtisadi xəritəsində mövqeyini əhəmiyyətli dərəcədə möhkəmləndirib. Sahibkarlığın inkişafına verilən dəstək, xarici investorlar üçün yaradılan əlverişli şərait, şəffaf və çevik idarəetmə mexanizmləri ölkəmizi beynəlxalq biznes dairələrinin diqqət mərkəzinə gətirib.

Təbii ki, bu ümumi iqtisadi dinamika fonunda Azərbaycanın əldə etdiyi uğurlar təsadüfi deyil, əksinə, düşünülmüş dövlət siyasətinin və sistemli islahatların nəticəsidir. Xüsusən son zamanlar biznes və investisiya mühitinin davamlı olaraq təkmilləşdirilməsi, iqtisadiyyatın açıq və rəqabətqabiliyyətli modelə transformasiyası ölkənin investisiya cəlbediciliyini bir qədər də artırıb. Məhz bu strateji yanaşma nəticəsində Azərbaycan həm yerli, həm də xarici investorlar üçün etibarlı və sabit iqtisadi məkan kimi formalaşıb.

Ölkəmizin investisiya cəlbediciliyini artıran mühüm amillərdən biri investorlar üçün cəlbedici olan etibarlı və sabit mühitdir. Məsələn, Ələt Azad İqtisadi Zonasında tətbiq olunan xüsusi hüquqi rejim, vergi və gömrük güzəştləri, müasir infrastruktur və beynəlxalq bazarlara çıxış imkanları xarici investorlar üçün əlverişli şərait yaradır. Eləcə də sənaye parklarında rezidentlərə təqdim olunan güzəştlər innovativ istehsalın və ixracyönümlü məhsulların həcminin artmasına mühüm töhfə verir.

Azərbaycanın əlverişli biznes mühiti və investisiya imkanları beynəlxalq platformalarda da geniş təqdim olunur. Bu, ölkənin qlobal iqtisadi əməkdaşlığa verdiyi önəmin və xarici investorlarla əlaqələrin daha da genişləndirilməsi istiqamətində həyata keçirilən ardıcıl siyasətin bariz nümunəsidir. Bu günlər Çinin Urumçi şəhərində keçirilən 9-cu Çin-Avrasiya Sərgisində Azərbaycanın vahid ölkə stendi ilə təmsil olunması da bunun növbəti təsdiqidir. Sərgi çərçivəsində ölkəmizin əlverişli biznes və investisiya mühiti, nəqliyyat-logistika və tranzit potensialı, eləcə də "Made in Azerbaijan" brendi altında istehsal edilən məhsullar nümayiş olunub.

Paralel olaraq Azərbaycanın Çində ticarət nümayəndəsi tərəfindən keçirilən təqdimatda investorlar üçün yaradılmış imkanlar, ölkəmizin regionun mühüm nəqliyyat və logistika mərkəzi kimi rolu, həmçinin Azərbaycan-Çin iqtisadi-ticarət əməkdaşlığının perspektivləri barədə ətraflı məlumat verilib.

Bu cür beynəlxalq tədbirlər Azərbaycanın etibarlı investisiya tərəfdaşı kimi nüfuzunun möhkəmlənməsinə, yeni biznes əlaqələrinin qurulmasına və xarici investisiyaların cəlb edilməsinə mühüm töhfə verir.

Məlumat üçün bildirək ki, 2011-ci ildən keçirilən Çin-Avrasiya Sərgisi Çinin önəmli beynəlxalq iqtisadi-ticarət platformalarından hesab olunur. Sərgi Asiya və Avropa ölkələri arasında ticarət, investisiya və sənaye tərəfdaşlığının genişləndirilməsinə xidmət edir. 9-cu sərgidə 27 ölkə, region və beynəlxalq təşkilatdan, eləcə də Çinin bütün əyalətlərindən 2 mindən artıq şirkət və qurum iştirak edib. Bu platforma iştirakçı ölkələr arasında yeni əməkdaşlıq imkanlarının yaradılması, mövcud iqtisadi əlaqələrin möhkəmləndirilməsi və birgə investisiya layihələrinin müzakirəsi baxımından mühüm əhəmiyyət daşıyır.

9-cu sərgi beynəlxalq biznes dairələri üçün yeni bazarlara çıxış, təcrübə mübadiləsi və strateji tərəfdaşlıqların qurulması baxımından da əlverişli imkanlar yaratdığı üçün deyə bilərik ki, Çin-Avrasiya Sərgisi regionlararası iqtisadi inteqrasiyanı gücləndirən mühüm əməkdaşlıq mərkəzi kimi çıxış edir. Belə beynəlxalq platformalarda ölkələrin iqtisadi potensialının nümayişi ilə yanaşı, onların ixrac imkanlarının və milli brendlərinin tanıdılması da xüsusi önəm daşıyır. Bu kontekstdə Azərbaycanın neftdənkənar sahəsinin inkişafında və ixrac potensialının artırılmasında "Made in Azerbaijan" brendi xüsusi əhəmiyyət daşıyır. Bu təşəbbüs yerli məhsulların beynəlxalq bazarlarda tanıdılması, onların rəqabət qabiliyyətinin artırılması və milli istehsalçıların xarici bazarlara çıxışının genişləndirilməsi məqsədilə həyata keçirilir. Dövlət tərəfindən ixrac missiyalarının təşkili, beynəlxalq sərgilərdə vahid ölkə stendi ilə iştirak, xarici bazarların araşdırılması, marketinq fəaliyyətinin dəstəklənməsi, eləcə də yerli şirkətlərin beynəlxalq sertifikat və patentlər əldə etməsinə göstərilən maliyyə dəstəyi "Made in Azerbaijan" brendinin dünya bazarlarında mövqeyinin möhkəmlənməsinə xidmət edir.

Bu gün "Made in Azerbaijan" nişanı altında istehsal olunan məhsullar dünyanın 70-dən çox ölkəsinə ixrac edilir. Qida və kimya sənayesi, kənd təsərrüfatı məhsulları, tikinti materialları, tekstil, maşınqayırma və digər sahələri əhatə edən məhsullar xarici bazarlarda Azərbaycan istehsalının keyfiyyətini və rəqabət üstünlüyünü nümayiş etdirir. Sənaye parklarında fəaliyyət göstərən müəssisələrin əhəmiyyətli hissəsinin ixracyönümlü istehsalla məşğul olması da bu brendin uğurunun mühüm göstəricilərindən biridir.

"Made in Azerbaijan" artıq təkcə məhsulun mənşəyini ifadə edən nişan deyil, həm də ölkənin iqtisadi potensialını, milli istehsal mədəniyyətini, istehsala innovativ yanaşmasını və etibarlı biznes tərəfdaşı imicini beynəlxalq auditoriyaya çatdıran strateji brenddir. Bu baxımdan Azərbaycanın beynəlxalq sərgilərdə, o cümlədən 9-cu Çin-Avrasiya Sərgisində vahid milli stendlə iştirak etməsi "Made in Azerbaijan" brendinin qlobal miqyasda tanıdılması və yeni ixrac bazarlarının qazanılması istiqamətində həyata keçirilən məqsədyönlü siyasətin mühüm tərkib hissəsidir.

Azərbaycanın beynəlxalq iqtisadi platformalarda fəal iştirakı, ixracyönümlü siyasəti və "Made in Azerbaijan" brendinin uğurlu təşviqi ölkənin qlobal iqtisadi sistemdə mövqeyini daha da gücləndirir. 9-cu Çin-Avrasiya Sərgisi kimi nüfuzlu tədbirlər isə yeni tərəfdaşlıqların qurulmasına və qarşılıqlı investisiya imkanlarının genişlənməsinə mühüm töhfə verir. Bütün bunlar Azərbaycanın dayanıqlı inkişaf yolunda inamla irəlilədiyini və regionun aparıcı iqtisadi mərkəzlərindən biri kimi mövqeyini möhkəmləndirdiyini bir daha təsdiqləyir.

***Züleyxa ƏLİYEVA ,***
***"Azərbaycan"***

# "Euronews": "Qazaxıstan Bakı-Tbilisi-Ceyhan boru kəməri ilə neft ixracını artırmağı planlaşdırır"

"Euronews" Qazaxıstanın Bakı-Tbilisi-Ceyhan (BTC) boru kəməri ilə neft ixracını artırmağı planlaşdırması barədə məqalə dərc edib.




AZƏRTAC xəbər verir ki, məqalədə Prezident Kasım-Jomart Tokayev və Baş nazir İrakli Kobaxidze arasında Astanada keçirilən danışıqlardan sonra Qazaxıstan Gürcüstanla strateji əlaqələrini dərinləşdirərək Bakı-Tbilisi-Ceyhan boru kəməri ilə neft ixracını artırmağı planlaşdırıldığı bildirilir.

Məlumata görə, Astanada keçirilən yüksəksəviyyəli danışıqlar zamanı iqtisadi əməkdaşlığın gücləndirilməsi barədə razılıq əldə olunub. Bu danışıqlara Bakı-Tbilisi-Ceyhan boru kəməri vasitəsilə neft daşınmalarının artırılması planları da daxildir.

"Euronews" yazır ki, Qazaxıstanın açıqlaması rəsmi Astananın Orta dəhliz kimi də tanınan Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu (TBNM) vasitəsilə ixrac marşrutlarını şaxələndirməyə davam etdiyi bir vaxta təsadüf edir. Nəşr bildirir ki, marşrut üzrə tranzit həcmləri son 5 ildə təxminən 4 dəfə artıb. Qazaxıstanın hesablamalarına görə, 2029-cu ilə qədər Çini Qazaxıstan, Xəzər dənizi, Azərbaycan və Gürcüstan vasitəsilə Avropaya birləşdirən dəhlizdə ildə 3000-ə qədər konteyner qatarı hərəkət edəcək.

# Leyla Əliyeva Yevlaxda məktəb binasının açılışında iştirak edib






İyulun 1-də Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva Yevlax şəhərinə səfəri çərçivəsində Səməd Vurğun adına 5 nömrəli tam orta ümumtəhsil məktəbinin yeni binasının açılışında iştirak edib.

AZƏRTAC xəbər verir ki, elm və təhsil naziri Emin Əmrullayev Leyla Əliyevaya məktəbin tarixi, burada yaradılmış şərait və tədris imkanları barədə məlumat verib. Bildirilib ki, 2024-cü ilin yanvarında köhnə inzibati bina sökülüb və yerində yeni məktəb binasının tikintisinə başlanılıb. Yeni məktəb binası 528 şagird yerlikdir. Burada müasir standartlara uyğun zəruri tədris şəraiti yaradılıb. Leyla Əliyeva məktəbin kitabxanası, informatika, biologiya və kimya kabinetləri, texnologiya, məktəbə hazırlıq qrupu otaqları, yeməkxana və idman zalında yaradılmış şəraitlə yaxından tanış olub. Yeni məktəb binasında yaradılmış müasir tədris infrastrukturu şagirdlərin keyfiyyətli təhsil almasına, onların bilik və bacarıqlarının inkişafına, həmçinin müəllimlərin fəaliyyətinin daha səmərəli təşkilinə imkan verəcək.

Məktəbin kollektivi ilə görüşən Leyla Əliyeva onlara uğurlar arzulayıb və xatirə şəkilləri çəkdirib.

# Leyla Əliyeva Yevlaxda Cümə məscidini ziyarət edib




İyulun 1-də Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva Yevlax şəhərinə səfəri çərçivəsində Cümə məscidini ziyarət edib.

AZƏRTAC xəbər verir ki, Leyla Əliyeva məsciddə dini ayinlərin icrası və ibadət üçün yaradılmış şəraitlə yaxından tanış olub.

Məscidin imamı bildirib ki, Cümə məscidi 1998-ci ildə istifadəyə verilib. Məsciddə eyni anda 600-ə yaxın şəxs ibadət edə bilər. Azad edilmiş ərazilərdə məscidlərin bərpasının din xadimlərini, ibadət əhlini xüsusilə sevindirdiyini bildirən imam Cümə məscidinin də dövlət qayğısı ilə əhatə olunduğunu diqqətə çatdırıb, ölkə rəhbərliyinə minnətdarlığını ifadə edib.

Ziyarətin sonunda Leyla Əliyevaya "Qurani-Kərim" hədiyyə edilib.



# Leyla Əliyeva Yevlaxda "Gənc arıçı" layihəsinin iştirakçısı ilə görüşüb






İyulun 1-də Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva Yevlaxa səfəri çərçivəsində "Gənc arıçı" layihəsinin iştirakçısı Süleyman Süleymanovun ailəsini ziyarət edib.

AZƏRTAC xəbər verir ki, Leyla Əliyeva gənc arıçının ailə üzvləri ilə səmimi söhbət edib, onların yaşayış şəraiti, arıçılıq sahəsindəki fəaliyyəti, əldə etdikləri ilk nəticələr və gələcək planları ilə yaxından maraqlanıb, həmçinin təsərrüfatda pendirin hazırlanması prosesində iştirak edib, ailəyə hədiyyələr təqdim edib. Görüş zamanı "Gənc arıçı" layihəsi çərçivəsində yaradılmış arıçılıq təsərrüfatı, arı ailələrinin saxlanılması, bal istehsalı və təsərrüfatın gələcək inkişaf imkanları barədə məlumat verilib. Ailə göstərilən diqqət və dəstəyə görə Leyla Əliyevaya minnətdarlığını bildirib, ona arıçılıq məhsulları hədiyyə edib.

Xatırladaq ki, layihə iştirakçısı Süleyman Süleymanov 44 günlük Vətən müharibəsi və antiterror tədbirlərində iştirak edib. O, "Suqovuşanın azad olunmasına görə", "Cəsur döyüşçü" və "Vətən müharibəsi iştirakçısı" medalları ilə təltif olunub.

Qeyd edək ki, 2021-ci ildən IDEA İctimai Birliyinin təşəbbüsü, Azərbaycan Respublikasının Gənclər Fondu, Dövlət Məşğulluq Agentliyi və "ABAD" publik hüquqi şəxsin tərəfdaşlığı ilə həyata keçirilən "Gənc arıçı" layihəsinin məqsədi biomüxtəlifliyin qorunmasına töhfə vermək, arıçılığın ekosahibkarlıq istiqaməti kimi inkişafını təşviq etmək, təbii bal istehsalını dəstəkləmək və gənc ailələrin maddi rifahının yaxşılaşdırılmasına kömək göstərməkdir.

# Yevlaxda abadlaşdırılmış məhəllə Leyla Əliyevanın iştirakı ilə sakinlərin istifadəsinə verilib






Yevlax şəhərində abadlaşdırılmış yaşayış məhəlləsi iyulun 1-də Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın iştirakı ilə sakinlərin istifadəsinə verilib.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamına əsasən həyata keçirilən "Sağlam məhəllə" layihəsi çərçivəsində Gənclər və İdman Nazirliyi tərəfindən məhəllədə idman zonaları yaradılıb. Ərazidə süni örtüklü minifutbol və basketbol meydançaları salınıb. Müxtəlif idman qurğuları, stolüstü tennis və şahmat masaları quraşdırılıb.

Həmçinin Yevlax Şəhər İcra Hakimiyyəti tərəfindən həyətyanı sahədə söhbətgahlar, çoxsaylı oturacaqlar və yeni işıqlandırma dirəkləri quraşdırılıb, binaların fasad və blokları təmir olunub, asfalt örtüyü, elektrik xətləri yenilənib. Həyətin ərazisində ağac, mövsümi gül, eləcə də kol bitkilərindən yaşıllıq zolağı salınıb.

Leyla Əliyeva məhəllədə aparılmış abadlıq işləri ilə tanış olub, IDEA könüllüləri ilə birlikdə mövsümi güllər əkib. Məhəllənin balaca sakinlərinə hədiyyələr təqdim olunub, onlarla şəkillər çəkdirilib.

# Leyla Əliyeva Yevlaxda Sahibsiz Heyvanlara Qayğı Mərkəzinin regional bölməsinin açılışında iştirak edib

Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva Yevlax şəhərində yeni yaradılmış Sahibsiz Heyvanlara Qayğı Mərkəzinin regional bölməsinin açılışında iştirak edib.

AZƏRTAC xəbər verir ki, Leyla Əliyeva mərkəzin ərazisində yaradılmış şəraitlə tanış olub, sahibsiz heyvanların qəbulu, müayinəsi, müalicəsi, peyvəndlənməsi, sterilizasiyası və reabilitasiyası üçün nəzərdə tutulan müvafiq sahələrə baxış keçirib.





Qeyd edək ki, Leyla Əliyevanın təşəbbüsü ilə yaradılmış regional bölmənin əsas məqsədi sahibsiz heyvanlara qayğının göstərilməsi, sanitar-epidemioloji sabitliyin təmin olunması, heyvanların uçotunun aparılması, müayinə və müalicəsinin təşkili, eləcə də profilaktik və digər baytarlıq-sanitariya tədbirlərinin həyata keçirilməsidir. Ümumi ərazisi 2,5 hektar olan kompleksdə müasir avadanlıqla təchiz olunmuş klinika binası, heyvanların müşahidə və müalicəsi üçün xüsusi bölmələr, inzibati və yardımçı binalar, o cümlədən karantin binası inşa edilib.

Qeyd edək ki, Yevlaxda yaradılmış yeni mərkəz Bakı Şəhər İcra Hakimiyyəti başçısının tabeliyində "Sahibsiz Heyvanlara Qayğı Mərkəzi"nin regional bölməsi kimi fəaliyyət göstərəcək. Sahibsiz heyvanlarla bağlı regionlardakı mövcud vəziyyətin təhlili bu istiqamətdə görülən tədbirlərin ölkənin digər şəhər və rayonlarını da əhatə etməsinin zəruriliyini göstərib. Yeni bölmənin Yevlaxda yaradılması şəhərin əlverişli coğrafi mövqeyi və müxtəlif regionları birləşdirən əsas nəqliyyat yollarının qovşağında yerləşməsi nəzərə alınmaqla müəyyənləşdirilib. Regional bölmə ətraf şəhər və rayonlarda sahibsiz heyvanlarla bağlı müraciətlərə daha operativ reaksiya verilməsinə imkan yaradacaq.

# Azərbaycan Milli Xalça Muzeyində "Zamanın naxışları" moda nümayişi təşkil olunub










İyulun 1-də Azərbaycan Milli Xalça Muzeyində "Xalça Muzeyi Fashion Show: Zamanın naxışları" adlı moda nümayişi keçirilib. AZƏRTAC xəbər verir ki, Alyona Əliyeva tədbirdə iştirak edib.

Tədbirdə çıxış edən Azərbaycan Milli Xalça Muzeyinin direktoru Əminə Məlikova bildirib ki, muzeyin tarixində ilk dəfə olaraq ekspozisiya və fondlarda qorunan Azərbaycan xalçalarının naxışlarından ilhamlanaraq yerli dizaynerlər tərəfindən yeni moda kolleksiyaları hazırlanıb.

Direktor layihəyə qoşulan dizaynerlərə təşəkkürünü bildirərək deyib: "İlk dəvətimizdən etibarən böyük həvəslə bu təşəbbüsə qoşuldular və altı ay ərzində Azərbaycan Milli Xalça Muzeyinin kollektivi ilə çiyin-çiyinə çalışdılar. Fondlarımızda araşdırmalar apardılar, qədim xalça nümunələrini öyrəndilər və bu gün təqdim olunan kolleksiyalar məhz həmin zəhmətin uğurlu nəticəsidir".

Ə.Məlikova qeyd edib ki, Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamına əsasən keçirilən tədbir görkəmli alim, xalçaşünas və rəssam Lətif Kərimovun anadan olmasının 120 illiyinə həsr edilib.

Mədəniyyət nazirinin müavini Səadət Yusifova çıxışında vurğulayıb ki, Azərbaycan xalçası əsrlər boyu xalqımızın estetik zövqünü, dünyagörüşünü, həyat tərzini və mənəvi dəyərlərini yaşadan nadir sənət nümunəsidir. Onun sözlərinə görə, hər bir naxış, rəng çaları və kompozisiya yalnız bədii element deyil, həm də tariximizin, milli kimliyimizin və mədəni yaddaşımızın daşıyıcısıdır.

Nazir müavini bildirib ki, milli irsin yaşadılması təkcə onun qorunması ilə deyil, həm də müasir dövrün dili ilə yenidən təqdim olunması ilə mümkündür. Bu baxımdan yaradıcı sənaye sahələrinin, xüsusilə dizayn və modanın milli irsin təbliğində rolu getdikcə artır. O qeyd edib ki, təqdim olunan kolleksiyalar ənənə ilə innovasiyanın vəhdət təşkil etdiyi zaman milli irsin yeni nəfəs qazandığını, daha geniş auditoriyaya çatdığını və aktuallığını qoruduğunu bir daha nümayiş etdirir.

Daha sonra layihə üçün xüsusi hazırlanmış videoçarx nümayiş olunub.

Layihə Azərbaycan xalqının zəngin milli-mədəni irsinin müasir moda dili ilə təqdimatına həsr olunub və ölkənin tanınmış modelyer-dizaynerlərini vahid yaradıcı platformada bir araya gətirib.

Moda nümayişində Azərbaycan xalçaçılıq sənətinin zəngin ənənələri, milli ornamentlər və qədim simvollar müasir estetik baxış prizmasından təqdim edilib. Layihənin əsas ilham mənbələrindən biri bu il 120 illik yubileyi qeyd olunan görkəmli alim, xalçaşünas və rəssam Lətif Kərimovun zəngin yaradıcılığı olub. Dizaynerlər onun yaratdığı xalça kompozisiyalarını, naxışlarını, rəng harmoniyasını və bədii-estetik prinsiplərini müasir geyim kolleksiyalarında yaradıcı şəkildə əks etdiriblər.

"Fashion Show" çərçivəsində 14 peşəkar modelyer-dizayner - Fəxriyyə Xələfova, Gülnarə Xəlilova, Leyla Əhmədova, Yeganə Sadıqova, Mətanət Bayramova, Xəyalə Məsimova, Səbinə Zülalova, Leyla Babazadə, Günay Əliyeva, Şəbnəm Bayramova, Əcəmi Azər, Kübra Nuriyeva, Afaq İsmayılzadə və Xəyalə Bayramovanın hazırladığı ümumilikdə 116 geyim nümayiş etdirilib.

Layihənin əsas məqsədi Azərbaycan xalçaçılıq sənətinin təbliği, milli-mədəni irsin qorunaraq gələcək nəsillərə ötürülməsi, həmçinin bu irsin müasir təqdimat formaları vasitəsilə daha geniş auditoriyaya çatdırılmasıdır.

# YAP nümayəndə heyətinin Çinə səfəri başa çatıb



Çin Kommunist Partiyasının (ÇKP) dəvəti ilə Çin Xalq Respublikasına səfər edən Yeni Azərbaycan Partiyasının (YAP) nümayəndə heyəti Şanxay şəhərində "Çinin sosial-iqtisadi inkişafına dair 15-ci beşillik proqram və Çin xüsusiyyətli modernləşmə" və "Kadrların hazırlanması və partiyanın gənclər siyasəti" mövzusunda seminarlarda iştirak edib.

Sonra nümayəndə heyəti Pekində ÇKP Beynəlxalq əlaqələr şöbəsinin Avrasiya departamenti direktorunun müavini Syu Çinsian ilə görüşüb. Görüşdə dövlət başçılarının siyasi iradəsi sayəsində iki ölkə arasında münasibətlərin yüksələn xətt üzrə inkişaf etdiyi vurğulanıb, hakim siyasi partiyalar arasında əməkdaşlığın mövcud vəziyyəti və inkişaf perspektivləri müzakirə olunub.

Nümayəndə heyəti partiya üzvlüyünün 50 illiyi tamam olan ÇKP üzvlərinin təltif edilməsi mərasimində də iştirak edib. Tədbirdə ÇKP Mərkəzi Komitəsinin üzvü, Mərkəzi Komitənin Beynəlxalq əlaqələr şöbəsinin müdiri Lyu Haysin və digər ÇKP nümayəndələri, eləcə də Azərbaycan, Liviya, Kot d'İvuar, Zambiya və Anqoladan olan nümayəndə heyətlərinin rəhbərləri çıxış ediblər.

YAP nümayəndə heyətinin rəhbəri, partiyanın Təftiş Komissiyasının üzvü, Milli Məclisin Gənclər və idman komitəsinin üzvü Vüqar İskəndərov ÇKP-nin yaradılmasının 105 illiyinin qeyd olunduğu dövrdə belə bir tədbirin keçirilməsinin xüsusi rəmzi məna kəsb etdiyini bildirib: "Bu illər ərzində partiya şərəfli və zəngin inkişaf yolu keçmiş, müasir Çinin formalaşmasında və inkişafında həlledici rol oynamışdır. Bu gün Çinin iqtisadiyyat, elm, texnologiya və dövlət idarəçiliyi sahələrində əldə etdiyi nailiyyətlər dünyada böyük rəğbət və hörmətlə qarşılanır".

V.İskəndərov siyasi partiyalar arasında təcrübə mübadiləsinin qarşılıqlı anlaşmanın dərinləşməsinə, etimadın möhkəmlənməsinə və müasir dövrün çağırışlarına effektiv cavab verilməsinə mühüm töhfə olduğunu qeyd edib: "Yeni Azərbaycan Partiyası ilə Çin Kommunist Partiyası arasında münasibətlər bu gün ən yüksək səviyyədədir. Buna Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin və Çin Xalq Respublikasının Sədri, Çin Kommunist Partiyasının Baş katibi Si Cinpinin rəhbərliyi ilə ölkələrimiz arasındakı hərtərəfli strateji tərəfdaşlıq mühiti önəmli zəmin yaradır. Qeyd etmək istərdim ki, 2024-cü il noyabrın 13-də Yeni Azərbaycan Partiyası Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun rəhbərlik etdiyi nümayəndə heyətinin Çinə səfəri çərçivəsində partiyalar arasında Əməkdaşlıq Memorandumunun imzalanması tərəfdaşlığımızı keyfiyyətcə yeni inkişaf mərhələsinə yüksəltmişdir. Biz partiyalararası əməkdaşlığa böyük dəyər veririk və əminik ki, bu işbirliyi yeni birgə layihələr və təşəbbüslərlə daha da zənginləşərək uğurla inkişaf edəcəkdir".

Səfər çərçivəsində nümayəndə heyəti ÇKP Mərkəzi Komitəsi Beynəlxalq əlaqələr şöbəsi müdirinin müavini Sun Haiyan ilə də görüşüb. Görüşdə qarşılıqlı səfərlərin partiyalararası əlaqələrin inkişafında mühüm rolu vurğulanıb. YAP nümayəndə heyətinin keçirdiyi görüşlərdə və iştirak etdiyi seminarlarda faydalı fikir mübadiləsinin aparıldığı diqqətə çatdırılıb.

Nümayəndə heyətinin Hebey vilayətinin Syunyan, Çensyan və Şasi şəhər tipli qəsəbələrinə, Böyük Çin səddinə və İmperator saray kompleksinə ziyarəti də təşkil olunub.

YAP nümayəndə heyətinin səfəri iyulun 2-də başa çatıb.

*"Azərbaycan"*

# " Sülhməramlı missiyalarda iştirak beynəlxalq əməkdaşlığın genişlənməsinə kömək edir"

"Azərbaycan Ordusunun sülhməramlı əməliyyatlarına dair hesabat"ın təqdimatı Azərbaycanın bu sahədə qazandığı təcrübəyə həsr olunub. Belə ki, son onilliklər ərzində sülhməramlı fəaliyyəti beynəlxalq münasibətlərin ən mühüm istiqamətlərindən birinə çevrilib, münaqişələrin idarə olunması və postmünaqişə dövründə sabitliyin təmin edilməsində xüsusi əhəmiyyət daşıyıb".

AZƏRTAC xəbər verir ki, bu sözləri Milli Məclisin deputatı, Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin (BMTM) İdarə Heyətinin üzvü Gülşən Paşayeva "Azərbaycan Ordusunun sülhməramlı əməliyyatlarına dair hesabat"ın təqdimatı zamanı deyib.

O qeyd edib ki, müasir beynəlxalq mühit mürəkkəb təhlükəsizlik çağırışları ilə xarakterizə olunur. Ənənəvi dövlətlərarası müharibələrlə yanaşı, daxili silahlı qarşıdurmalar, etnik və dini zəmində yaranan münaqişələr, terrorizm, humanitar böhranlar və qeyri-dövlət silahlı qruplarının fəaliyyəti beynəlxalq təhlükəsizlik gündəliyinin əsas mövzularına çevrilib. Belə şəraitdə sülhməramlı əməliyyatlar sabitliyin təmin edilməsinin vacib alətlərindən biridir. "Bu gün Azərbaycan beynəlxalq təhlükəsizliyin təmin olunmasına töhfə verən dövlətlərdəndir. Ölkəmizin sülhməramlı missiyalarda iştirakı beynəlxalq öhdəliklərin yerinə yetirilməsi ilə yanaşı, Azərbaycan Ordusunun peşəkar səviyyəsinin artırılması, kadr inkişafına və beynəlxalq əməkdaşlığın genişlənməsinə kömək edir", - deyə deputat vurğulayıb.

# Rəqəmsal əsrdə sağlam nəsli necə yetişdirməli

## İndi bütün dünyanı düşündürən əsas problemlərdən biri də budur

**XXI** əsr rəqəmsal texnologiyaların insan həyatının bütün sahələrini köklü şəkildə dəyişdirdiyi bir dövr kimi xarakterizə olunur. İnternet və sosial şəbəkələr informasiyaya çıxışın genişlənməsində, təhsilin əlçatanlığının artmasında, insanların ünsiyyət imkanlarının zənginləşməsində, yaradıcılıq potensialının üzə çıxarılmasında və dünyanın müxtəlif guşələrində yaşayan insanları bir-birinə yaxınlaşdırmaqda əvəzsiz vasitəyə çevrilib.

Bunlarla yanaşı, rəqəmsal mühitdə meydana çıxan böyük imkan özü ilə birlikdə həm də yeni məsuliyyət və risklər yaradır. Xüsusən uşaqların nəzarətsiz internet məkanında qarşılaşdıqları təhlükələr təkcə ailələri deyil, dövlətləri, beynəlxalq təşkilatları və mütəxəssisləri də ciddi narahat edən qlobal probleme çevrilib.

Müasir dövrdə uşaqların inkişafı yalnız ailə və məktəblə məhdudlaşmır. Onların dünyagörüşlərinin formalaşmasına sosial media platformaları da güclü təsir göstərir. Bu platformalarda faydalı məlumatlarla birlikdə zorakılığı təbliğ edən görüntülər, aqressiv davranış nümunələri, kibertəzyiq, dezinformasiya, psixoloji manipulyasiya, yaş xüsusiyyətlərinə uyğun olmayan müxtəlif zərərli çağırışlar da geniş yayılıb. Süni intellekt alqoritmləri istifadəçinin maraqlarını təhlil edərək bu xarakterli çağırışların yayılmasına şərait yaradır. Nəticədə hələ şəxsiyyət kimi tam formalaşmamış uşaqlar bu təsirlərə qarşı daha həssas olurlar ki, bu da çox vaxt ağır psixoloji və sosial nəticələrə səbəb verir.

Bu gün dünyanın bir çox ölkəsində əsas müzakirə mövzusu uşaqların rəqəmsal təhlükəsizliyinin təmin olunması yollarıdır. Azərbaycan da bu istiqamətdə mühüm hüquqi addım atıb. Milli Məclisin İnzibati Xətalar Məcəlləsində, "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" və "Uşaqların zərərli informasiyadan qorunması haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsini parlament üçüncü oxunuşda qəbul edib.

Dəyişikliklərin mahiyyəti aydındır: məqsəd sosial şəbəkələrə qadağa qoymaq yox, uşaqları yaşlarına uyğun olmayan rəqəmsal təsirlərdən qorumaq, onların fiziki, psixoloji və mənəvi inkişafı üçün daha təhlükəsiz informasiya mühiti formalaşdırmaqdır. Bu baxımdan qəbul edilən dəyişikliklər dövlətin uşaqların müdafiəsinə yönəltdiyi sosial siyasətinin mühüm tərkib hissəsi kimi qiymətləndirilməlidir.

Qanuna əsasən, 16 yaşına çatmamış şəxslərin müəyyən ediləcək sosial şəbəkə platformalarında hesab yaratmasına icazə verilməyəcək. 16-18 yaşlı yeniyetmələr isə yalnız valideynlərinin və ya qanuni nümayəndələrinin razılığı ilə həmin platformalarda qeydiyyatdan keçə biləcəklər. Bu yanaşma uşaqların hüquqlarının məhdudlaşdırılması deyil, onların təhlükəsiz inkişafını təmin edən hüquqi mexanizmdir.



Əslində, cəmiyyət yaş məhdudiyyəti anlayışına çoxdan alışıb. Uşaqlara siqaret və alkoqollu içkilərin satılması, onların soyuq silah əldə etmələri, qumar oyunlarında iştirakları və pornoqrafik materiallara çıxışları qanunla çoxdan məhdudlaşdırılıb. İndi heç kim bunu uşaqların hüquqlarının pozulması kimi də qiymətləndirmir. Əksinə, bu məhdudiyyətlərin uşaqların sağlamlıqlarını, təhlükəsizliklərini və gələcəklərini qorumağa xidmət etdiyini qəbul edir. Odur ki, rəqəmsal mühit artıq həyatımızın ayrılmaz hissəsinə çevrildiyindən eyni müdafiə prinsiplərinin sosial media platformalarında da tətbiqi tamamilə məntiqli və zəruridir.

Bu gün informasiya təhlükəsizliyi həm də insanın daxili aləminin qorunması deməkdir. Xüsusilə uşaqların şüuruna, psixologiyasına və həyat tərzinə təsir göstərən rəqəmsal risklər fonunda qəbul edilən bu dəyişikliklər gələcəyin sağlam, savadlı və məsuliyyətli vətəndaşlarının formalaşmasına yönəldilmiş mühüm strateji addım kimi qəbul edilməlidir. Bu məqamda qeyd edək ki, Azərbaycanın qəbul etdiyi yeni hüquqi tənzimləmə qlobal rəqəmsal təhlükəsizlik siyasətindən kənarda atılmış addım deyil. Əksinə, bu gün dünyanın inkişaf etmiş dövlətləri uşaqların sosial şəbəkələrdə təhlükəsizliklərini təmin etmək üçün oxşar hüquqi mexanizmlər formalaşdırırlar. Elmi araşdırmalar, psixoloqların rəyləri və beynəlxalq təşkilatların hesabatları göstərir ki, nəzarətsiz sosial media istifadəsi uşaqların psixoloji sağlamlığı, emosional inkişafı, təhsili və sosial münasibətlərinə ciddi təsir göstərə bilir. Buna görə də bir çox ölkə rəqəmsal platformalarda yaşın yoxlanılması və valideyn nəzarətinin gücləndirilməsi istiqamətində yeni hüquqi çərçivələr yaradır.

Bu sahədə ilk ciddi addımlardan biri Avstraliyada atılıb. Qəbul edilən qanunla uşaqların sosial şəbəkələrdən istifadəsinə dair yeni tələblər müəyyənləşdirilib və rəqəmsal platformaların məsuliyyəti artırılıb. Fransa da Avropada yaş məhdudiyyətinin tətbiqinə başlayan ilk ölkələrdən biridir. Hazırda Danimarka, İspaniya, ABŞ və bir sıra digər dövlətlər də analoji hüquqi mexanizmlər üzərində işləyirlər. Almaniya, Norveç, Portuqaliya, Kanada, Türkiyə, Yeni Zelandiya, Malayziya, İndoneziya və Hindistan da uşaqların rəqəmsal mühitdə müdafiələrini gücləndirən qanunvericilik təşəbbüslərini genişləndirirlər. Regionumuzda isə Qazaxıstan və Özbəkistanda oxşar qanun layihələrinin müzakirəsi göstərir ki, rəqəmsal təhlükəsizlik artıq bütün beynəlxalq ictimaiyyətin ortaq çağırışına çevrilib. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan bu təhlükəni belə ifadə edib: "Bəzi rəqəmsal paylaşma tətbiqlərinin uşaqlarımızın zehnini pozduğu və sosial media platformalarının, açıq desək, zibilxanalara çevrildiyi bir dövrdə yaşayırıq. İnternetin nəzarətsiz və sərhədsiz dünyasına alqoritmlərin manipulyativ gücünü əlavə etdikdə mürəkkəb bir problem ortaya çıxır". Avropa Komissiyasının prezidenti Ursula fon der Lyayen isə problemin mahiyyətini bir cümlə ilə ifadə edib: "Məsələ gənclərin sosial mediaya çıxışının olub-olmamasında deyil. Məsələ sosial medianın gənclərə çıxışının olub-olmamasındadır". Bu fikir rəqəmsal dövrün əsas çağırışını aydın şəkildə ortaya qoyur. Artıq söhbət uşaqların internetdən istifadə edib-etməmələrindən getmir. Əsas məsələ sosial media platformalarının alqoritmlər vasitəsilə onların düşüncələrinə, seçimlərinə və psixologiyalarına göstərdiyi təsirin qarşısının necə alınmasıdır. Buna görə də bir çox dövlət uşaqların müdafiəsini yalnız ailələrin üzərinə qoymur, onu hüquqi mexanizmlərlə də dəstəkləyir.

Bu gün dünyanın əksər ölkəsini düşündürən əsas sual eynidir: sürətlə inkişaf edən texnologiyalar insanın, xüsusən uşağın maraqlarına necə xidmət etməlidir? Cavab isə aydındır: texnologiyanın inkişafı nə qədər vacibdirsə, insanın mənəvi, psixoloji və fiziki təhlükəsizliyi də bir o qədər önəmlidir. Rəqəmsal tərəqqi yalnız insanın inkişafına xidmət etdiyi halda öz həqiqi dəyərini qazanır. Azərbaycanın qəbul etdiyi yeni qanunvericilik dəyişiklikləri də məhz bu baxışın ifadəsidir.

Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən dövlət siyasətinin əsas prioritetlərindən biri insan kapitalının inkişafı, gənc nəslin milli-mənəvi dəyərlər əsasında yetişdirilməsi və onların müasir bilik və bacarıqlara yiyələnmələri üçün əlverişli şəraitin yaradılmasıdır. Uşaqların informasiya təhlükəsizliklərinin gücləndirilməsi həmin siyasətin mühüm istiqamətlərindən biridir.

Rəqəmsal əsrdə uşaqları qorumaq texnologiyaya qarşı çıxmaq demək deyil, əksinə, bu, texnologiyanın insanın xidmətində olmasını təmin etmək deməkdir. Çünki gələcəyin cəmiyyətini güclü edən sürətli internet, müasir platformalar və yeni alqoritmlərlə bərabər, həm də sağlam düşüncəli, savadlı, milli-mənəvi dəyərlərə bağlı və məsuliyyətli gənc nəsildir. Məhz buna görə uşaqların rəqəmsal təhlükəsizliklərinin təmin olunmasına yönəldilmiş hər bir addım Azərbaycanın gələcəyinə qoyulan ən etibarlı sərmayələrdən biri kimi qiymətləndirilməlidir.

*Elşən QƏNİYEV,*
*"Azərbaycan"*



# Bakı-Brüssel tərəfdaşlığında yeni dövr

## Avropa İttifaqının ali şəxslərinin Bakıya ardıcıl səfərləri Azərbaycanın regional liderliyinin və müstəqil siyasətinin rəsmi təsdiqidir

**Azərbaycanın müstəqil, praqmatik və milli maraqlara əsaslanan xarici siyasət kursu qlobal güc mərkəzləri ilə münasibətlərdə keyfiyyətcə yeni və strateji xarakterli mərhələnin əsasını qoyub. Bu kontekstdə rəsmi Bakı ilə Avropa İttifaqı arasında formalaşan və yüksək dinamika ilə xarakterizə olunan çoxşaxəli tərəfdaşlıq platforması regional sabitliyin, geoiqtisadi bağlantının və təhlükəsizliyin təmin olunmasında fundamental amilə çevrilib.**

Bu ilin martında Avropa İttifaqı Şurasının rəhbəri Antonio Koştanın və may ayında Aİ-nin Xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Kaya Kallasdan sonra Avropa Komissiyasının prezidenti Ursula fon der Lyayenin iyulun 1-də ölkəmizə rəsmi səfəri 27 Avropa dövlətini bir araya gətirən Aİ ilə münasibətlərin inkişafında tamamilə yeni dövrün başlanğıcı kimi qəbul edilir. Yüksəksəviyyəli ardıcıl səfərlər Brüsselin Azərbaycanı Cənubi Qafqaz regionunda güvənilən və uzunmüddətli strateji tərəfdaş qismində gördüyünün növbəti təsdiqidir.

İkitərəfli təmaslarda tərəfdaşlığın gələcək prioritetləri Bakıda ali səviyyədə keçirilən görüşlərdən sonra verilən rəsmi bəyanatlarda özünün aydın ifadəsini tapıb. Dövlətimizin başçısı Avropa Komissiyasının prezidenti Ursula fon der Lyayenlə mətbuata birgə bəyanatında münasibətlərdəki mövcud dinamikanı yüksək qiymətləndirib və Avropa Komissiyası ilə Azərbaycan arasında münasibətlərin çox mühüm mərhələdə olduğunu deyib: "Bu ilin martında biz Avropa İttifaqı Şurasının prezidenti cənab Koştanı, sonra may ayında isə Avropa diplomatiyasının rəhbəri xanım Kallası qəbul etdik. Bu gün isə Avropa Komissiyasının prezidenti bizimlədir. Beləliklə, deyərdim ki, əməkdaşlığımızı genişləndirmək və tərəfdaşlığımızı gücləndirmək məqsədilə hər iki tərəfin qarşılıqlı iradəsini əks etdirən münasibətlərimizdə görünməmiş dinamika müşahidə olunur. Biz Avropa Komissiyası ilə münasibətləri yüksək dəyərləndiririk". Azərbaycan Prezidentinin vurğuladığı kimi, ardıcıl səfərlər rəsmi Bakı ilə Brüssel arasında qurulan dialoqun funksionallığını, ikitərəfli əlaqələrin sistemli xarakter daşıdığını nümayiş etdirir.

Aİ və Azərbaycan əlaqələrində enerji sahəsində əməkdaşlıq tərəfdaşlığın ən mühüm məqamlarından biridir. Xüsusilə 2022-ci ildə Avropanın qaz tədarükündə ciddi böhranla üzləşdiyi bir vaxtda Azərbaycan etibarlı tərəfdaşlığını əməli şəkildə nümayiş etdirib. Həmin dövrdən bəri ölkəmizin Aİ-yə qaz ixracını 65 faiz artırması Avropanın enerji təhlükəsizliyinin təminatında oynadığımız mühüm roldan xəbər verir. Təsadüfi deyil ki, Avropa İttifaqının Cənubi Qafqaz dövlətləri ilə ümumi ticarət dövriyyəsinin təqribən 70 faizi məhz Azərbaycanın payına düşür. Brüsselin ticarət əlaqələrini daha da genişləndirmək niyyəti bu qarşılıqlı etimadın davamlı olduğunu göstərir.

Prezident İlham Əliyev iqtisadi münasibətlərin və enerji sahəsindəki tərəfdaşlığın real statistik mənzərəsini bu sözlərlə diqqətə çatdırıb: "Avropa İttifaqı Azərbaycanın əsas ticarət tərəfdaşıdır. Ticarətimizin 40 faizdən çoxu üzv dövlətlərlə aparılır və Azərbaycan Avropa İttifaqı üçün Cənubi Qafqazda əsas ticarət tərəfdaşıdır. Cənubi Qafqazda ticarətin təxminən 70 faizi Azərbaycanla aparılır". Azərbaycanın Avropa üçün iqtisadi əhəmiyyətini Ursula fon der Lyayen də bəyanatında dilə gətirib: "Avropa İttifaqı artıq Azərbaycanın ən böyük ticarət tərəfdaşı və ən iri sərmayədarıdır".

Bakı ilə Brüssel arasındakı təmasların təməlini təkcə enerji məsələsi təşkil etmir. Hazırda bu əlaqələr regional təhlükəsizlik, nəqliyyat-logistika kimi daha geniş istiqamətləri də əhatə edir. Avropa İttifaqı ölkəmizi Avropa ilə Asiyanı qovuşduran mühüm geostrateji və logistik mərkəz olaraq görür. Bağlantı və regional nəqliyyat layihələrinin müzakirələrin təməl hədəflərindən olduğunu vurğulayan Prezident İlham Əliyev qeyd edib ki, Azərbaycan regional daşımalar layihələrinin bir çox halda fəal iştirakçısı və təşəbbüskarıdır: "Şərq-Qərb" və "Şimal-Cənub" daşımalar dəhlizləri Azərbaycandan keçir və qonşularımızla, həmçinin qonşularımızın qonşuları ilə yaxşı münasibətləri bizə bütün iştirakçılara fayda gətirən çox geniş əməkdaşlıq formatını qurmağa imkan yaratdı. Bu gün Azərbaycandan keçən yüklərin həcmi bütün istiqamətlərdə artır".

Azərbaycan qlobal logistik proseslərə istiqamət verən fəal təşəbbüskar dövlətdir. Dünyanın ən mühüm transmilli marşrutları sayılan "Şərq-Qərb" və "Şimal-Cənub" nəqliyyat dəhlizlərinin məhz ölkəmizin ərazisində kəsişməsi Bakını Avrasiya materikinin strateji logistik mərkəzinə çevirir. Dəniz limanlarının və dəmir yolu şəbəkəsinin imkanlarının daha da genişləndirilməsi dövlətimizin qlobal çağırışları qabaqlayan çevik idarəetmə strategiyasından xəbər verir. Avropa İttifaqı ilə aparılan müzakirələrdə bağlantı mövzusunun təməl hədəf kimi qoyulması Brüsselin də bu məsələyə böyük marağını göstərir.

Ölkəmizin logistik əhəmiyyətini Avropa Komissiyasının prezidenti xanım Ursula fon der Lyayen də vurğulayıb. Aİ rəsmisi bildirib ki, Cənubi Qafqaz Avropanı, Xəzər regionunu və Mərkəzi Asiyanı birləşdirən dünyanın ən möhtəşəm kəsişmələrindən biridir və Azərbaycan burada əsas rol oynayır: "Azərbaycan öz strateji coğrafiyasını artan iqtisadi, siyasi və regional nüfuzu ilə düşünülmüş şəkildə birləşdirir".

Avropa İttifaqı bölgədə davamlı sülhün qurulması prosesini də yaxından dəstəkləyir. Bu, faktiki olaraq Azərbaycanın təşəbbüsü ilə regionda qurulan yeni əməkdaşlıq modelinə verilən beynəlxalq dəstəkdir. Regionda yaranmış sülh şəraitini və onun qorunmasının vacibliyini önə çəkən Prezident İlham Əliyev de-fakto sülh qurulduğunu vurğulayıb: "Sülhün təkcə kağız üzərində deyil, gündəlik həyatda hiss etdiyimizi nümayiş etdirmək üçün bir çox birtərəfli addımlar atdıq. Bir sözlə, sülh artıq reallıqdır. Lakin biz onu gücləndirmək, uzunmüddətli və əbədi etmək üçün ürəkdən çalışmalıyq. Əlbəttə, biz Avropa Komissiyasının dəstəyini çox yüksək dəyərləndiririk".

Dövlətimizin başçısının "sülh de-fakto qurulub" tezisi Cənubi Qafqazda təhlükəsizlik arxitekturasının tamamilə dəyişdiyinin və geri dönməz xarakter aldığının rəsmi bəyanıdır. Münaqişədən sonrakı dövrdə rəsmi Bakının sülhə xidmət edən praktiki addımları ölkəmizin regionda sabitliyin təmin olunmasında maraqlı olduğunu, sülh prosesində səmimiyyətini və konstruktiv mövqeyini nümayiş etdirir. Avropa İttifaqının sülhün iqtisadi əsaslarını möhkəmləndirməyə yönələn addımları Brüsselin bu prosesdə rəsmi Bakının formalaşdırdığı reallıqları əsas götürdüyünü göstərir.

Ursula fon der Lyayenin strateji tərəfdaşlıq kontekstində Azərbaycanın rolunu xüsusi vurğulaması böyük önəm kəsb edir. Aİ rəsmisi ölkəmizin bölgənin aparıcı qüvvəsi olduğunu, Cənubi Qafqazda sülh prosesinin formalaşmasına fundamental töhfələr verdiyini bildirərək Prezident İlham Əliyevin siyasi liderliyini ön plana çəkir: "Siz regionda sülhün və əməkdaşlığın təşviq olunmasında şəxsi liderlik keyfiyyətlərini nümayiş etdirdiniz. Bu, sabitlik, etimad və ortaq rifah üçün yeni imkanlar yaradır. Avropa İttifaqı bu prosesi qəti şəkildə dəstəkləyir".

Avropa Komissiyasının prezidentinin dövlətimizin başçısı İlham Əliyevin şəxsi liderlik keyfiyyətlərini və sülhün formalaşmasındakı rolunu xüsusi qeyd etməsi Bakının apardığı müstəqil siyasətin və regional reallıqların Qərb tərəfindən rəsmən qəbul edilməsidir. Bu, ölkəmizin regionda şərtləri diktə edən əsas güc mərkəzi olduğunun, beynəlxalq arenada qazandığı böyük etimadın bariz göstəricisidir.

Son dövrlər Bakıya səfər edən, həmçinin beynəlxalq tribunalardan çıxış edən aparıcı Avropa liderləri və dövlət başçıları Prezident İlham Əliyevin qətiyyətli siyasi iradəsini, uzaqgörən strateji gedişlərini və qlobal çağırışlar qarşısındakı prinsipial tərəfdaşlığını səmimi şəkildə etiraf edirlər. Dünyanın geosiyasi nizamının yenidən qurulduğu mürəkkəb bir dövrdə Avropa paytaxtlarının Azərbaycan Liderinə tam etimadı rəsmi Bakını qlobal təhlükəsizlik arxitekturasında əvəzolunmaz tərəfdaşa çevirir.

Azərbaycanın Cənubi Qafqazda formalaşdırdığı yeni əməkdaşlıq modeli Aİ tərəfindən tam dəstəklənir. Brüssel qəbul edir ki, regionun gələcək inkişafı və təhlükəsizliyi birbaşa olaraq Bakının sülh gündəliyindən və bu gündəliyi reallaşdıran Prezident İlham Əliyevin strateji baxışından asılıdır.

Hazırda Azərbaycanın dünyanın əsas güc mərkəzləri ilə formalaşdırdığı çoxşaxəli və balanslaşdırılmış xarici siyasət xətti özünün real bəhrəsini verir. ABŞ ilə strateji tərəfdaşlıq, Çin ilə hərtərəfli əməkdaşlıq və Avropa İttifaqı ilə qurulan əlaqələr Prezident İlham Əliyevin yürütdüyü diplomatik siyasi kursun mühüm uğurlarıdır. Dövlətimizin başçısının praqmatik siyasəti Azərbaycanın beynəlxalq nüfuzunu artırmaqla yanaşı, ölkəmizin qlobal regional proseslərdə aparıcı dövlət statusunu daha da möhkəmləndirir.

***İsmayıl QOCAYEV,***
***"Azərbaycan"***

# Azərbaycan-Aİ iqtisadi münasibətləri qarşılıqlı strateji maraqların təminatına hesablanıb

İndi dünyada iqtisadi əməkdaşlıq dövlətlər arasında münasibətlərin ən mühüm sütunlarındandır. İqtisadi əməkdaşlıq yalnız ticarət dövriyyəsinin artması ilə məhdudlaşmır, həm də siyasi sabitliyin, regional təhlükəsizliyin və davamlı inkişafın möhkəmlənməsinə xidmət edir. Bu kontekstdə Azərbaycan ilə Avropa İttifaqı (Aİ) arasında qurulmuş iqtisadi tərəfdaşlıq qarşılıqlı maraqlara söykənən və strateji əhəmiyyət daşıyan əməkdaşlıq nümunələrindən biridir.

Son zamanlar münasibətlərin yeni mərhələyə qədəm qoyması həm Azərbaycan, həm də Aİ üçün mühüm iqtisadi imkanlar yaradıb. Xüsusən enerji təhlükəsizliyi, "yaşıl enerji", nəqliyyat və logistika sahələrində əməkdaşlığın genişlənməsi tərəflər arasında qarşılıqlı etimadı xeyli möhkəmləndirib. Azərbaycanın zəngin enerji ehtiyatları və əlverişli coğrafi mövqeyi, Aİ-nin isə etibarlı tərəfdaşlarla uzunmüddətli əməkdaşlıq marağı əlaqələrin strateji əhəmiyyətini artıran əsas amillərdəndir. Bununla yanaşı, qarşılıqlı investisiyaların təşviqi, ticarət əlaqələrinin inkişafı və iqtisadi islahatlara verilən dəstək münasibətlərin yalnız enerji sektoru ilə məhdudlaşmadığını nümayiş etdirir. Məsələyə bu prizmadan baxanda Azərbaycan ilə Aİ arasında iqtisadi əməkdaşlığın davamlı inkişaf etdiyini və gələcəkdə daha geniş perspektivlərin dövriyyəyə daxil olacağını görmək elə də çətin deyil.

Xəbər verildiyi kimi, iyulun 1-də Avropa Komissiyasının prezidenti Ursula fon der Lyayen Azərbaycana səfər edib. Səfərin məqsədi Azərbaycan ilə Aİ arasında iqtisadi və strateji tərəfdaşlığın mövcud vəziyyətini müzakirə etmək, əməkdaşlığın yeni istiqamətlərini müəyyənləşdirmək və qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparmaq idi. Prezidentlərin mətbuata bəyanatlarında da məhz bu istiqamətlər vurğulanıb. Prezident İlham Əliyev qeyd edib: "Deyərdim ki, əməkdaşlığımızı genişləndirmək və tərəfdaşlığımızı gücləndirmək məqsədilə hər iki tərəfin qarşılıqlı iradəsini əks etdirən münasibətlərimizdə görünməmiş dinamika müşahidə olunur. Biz Avropa Komissiyası ilə münasibətləri yüksək dəyərləndiririk".

Azərbaycan ilə Aİ arasında əməkdaşlıq, sadəcə, mövcud layihələrin davam etdirilməsi ilə məhdudlaşmır. Tərəflər münasibətləri daha geniş iqtisadi gündəm əsasında inkişaf etdirmək, enerji ilə yanaşı, rəqəmsal transformasiya, investisiya və ticarət sahələrində də yeni imkanları dəyərləndirmək niyyətindədirlər. Prezident İlham Əliyevin səsləndirdiyi fikirlər qarşılıqlı siyasi iradənin mövcudluğunu və tərəfdaşlığın uzunmüddətli strateji xarakter daşıdığını nümayiş etdirir. Bu dinamika isə qarşıdakı dövrdə Azərbaycan-Aİ iqtisadi münasibətlərinin dərinləşəcəyinə, yeni birgə layihələrin reallaşacağına və əməkdaşlığın hər iki tərəf üçün əlavə iqtisadi dəyər yaradacağına işarə edir.

Azərbaycan ilə Aİ arasında iqtisadi münasibətlərin əsasını ticarət və enerji əməkdaşlığı təşkil edir. Aİ hazırda Azərbaycanın ən böyük ticarət tərəfdaşıdır. Ölkənin xarici ticarət dövriyyəsinin 40 faizdən çoxu Aİ-yə üzv dövlətlərin payına düşür. Azərbaycan da Aİ-nin Cənubi Qafqaz regionunda aparıcı ticarət tərəfdaşı hesab olunur və regionun ittifaqla ticarət dövriyyəsinin təxminən 70 faizini məhz ölkəmiz təmin edir.

Tərəflər arasında əməkdaşlığın strateji istiqamətlərindən biri enerji sektorudur. Bu sahədə əlaqələrin inkişafında enerji üzrə Strateji Tərəfdaşlığa dair Anlaşma Memorandumu mühüm mərhələ hesab olunur. Xatırladaq ki, 2022-ci il iyulun 18-də Azərbaycan ilə Aİ arasında "Avropa Komissiyası tərəfindən təmsil olunan Avropa İttifaqı ilə Azərbaycan Respublikası arasında enerji sahəsində Strateji Tərəfdaşlığa dair Anlaşma Memorandumu" imzalandıqdan sonra mətbuata bəyanatında Ursula fon der Lyayen demişdi: "Həqiqətən, siz bizim üçün mühüm enerji tərəfdaşısınız. Siz təkcə təchizat təhlükəsizliyi sahəsində deyil, həmçinin iqlim neytrallığı sahəsində də hər zaman etibarlı olmusunuz".

Sənədin imzalanmasından sonra Azərbaycanın Aİ-yə üzv ölkələrə təbii qaz ixracı təxminən 65 faiz artıb. Hazırda ölkəmizin ixrac etdiyi təbii qazın yarısı Avropa bazarına yönəldilir və artıq Aİ-nin 10 üzv dövləti Azərbaycan qazı ilə təmin olunur. Mövcud infrastruktur və tərəflərin siyasi iradəsi gələcəkdə həmin coğrafiyanın genişlənməsi üçün əlverişli zəmin yaradır. Bu göstəricilər Avropanın enerji təhlükəsizliyində Azərbaycanın etibarlı tərəfdaş kimi rolunun getdikcə gücləndiyini, eyni zamanda iqtisadi əlaqələrin qarşılıqlı maraqlar əsasında davamlı inkişaf etdiyini göstərir.

Məlumdur ki, müasir dövrdə enerji təhlükəsizliyi hər bir dövlətin milli təhlükəsizliyinin ayrılmaz tərkib hissəsinə çevrilib. Bu reallığı nəzərə alan Azərbaycan hər zaman enerji resurslarının etibarlı və dayanıqlı şəkildə dünya bazarlarına çıxarılması istiqamətində ardıcıl siyasət yürüdüb. Ölkəmiz yalnız zəngin enerji ehtiyatlarına güvənməyib, həm də geniş diplomatik fəaliyyət göstərib və böyük maliyyə vəsaitləri yatırıb. Bunun nəticəsində neft və təbii qazın beynəlxalq bazarlara çıxarılmasını təmin edən müasir infrastruktur formalaşdırıb.

Bu siyasətin ən uğurlu nəticələrindən biri "Cənub qaz dəhlizi"dir. Təxminən 3500 kilometr uzunluğa malik vahid boru kəməri bu gün Azərbaycan qazını Avropa bazarlarına çatdıran əsas enerji marşrutlarından biri kimi çıxış edir. Layihə yalnız enerji daşıyıcılarının nəqlini təmin etmir, eyni zamanda Azərbaycanın Avropanın enerji təhlükəsizliyində etibarlı və strateji tərəfdaş statusunu möhkəmləndirir. Bu isə ölkənin geoiqtisadi əhəmiyyətini artırmaqla yanaşı, Azərbaycan-Aİ əməkdaşlığının uzunmüddətli və qarşılıqlı maraqlara əsaslanan xarakterini nümayiş etdirir.

Ursula fon der Lyayen mətbuata bəyanatında bu məsələ ilə bağlı fikirlərini belə səsləndirib: "Biz Rusiyanın enerjini silah kimi istifadə etdiyi və qazı kəsdiyi zaman Azərbaycanın irəliyə çıxdığını unutmamışıq. "Cənub qaz dəhlizi" həqiqətən Avropanın enerji təhlükəsizliyini gücləndirib və bu, heyrətamiz uğur hekayəsidir. Mən buna görə sizə təşəkkürümü ifadə etmək istəyirəm. İndi biz növbəti səhifəni hazırlayırıq. Azərbaycan gələcəyin enerjisinə sərmayə yatırır. Xəzər dənizində külək enerjisini istehsal etmək kimi planlarınız var. Sizin təmiz elektrik enerjisi qovşağına çevrilmək üçün həm planınız, həm potensialınız var. Bu da Avropa İttifaqının özünün təmiz enerjiyə keçid prosesi ilə tamamilə uzlaşır".

Bütün bunlar onu deməyə əsas verir ki, Azərbaycan ilə Aİ arasında iqtisadi münasibətlər təkcə bu günün deyil, həm də gələcəyin strateji tərəfdaşlıq modelidir. Enerji, ticarət, investisiya, nəqliyyat və "yaşıl enerji" sahələrində həyata keçirilən birgə layihələr qarşılıqlı etimadı möhkəmləndirir və əməkdaşlığın yeni istiqamətlərini formalaşdırır. Qlobal iqtisadi və geosiyasi çağırışlar fonunda Azərbaycanın etibarlı tərəfdaş kimi mövqeyinin güclənməsi, Aİ-nin isə ölkəmizlə əlaqələrinin dərinləşməsinə verdiyi önəm və göstərdiyi maraq münasibətlərin uzunmüddətli perspektivə hesablandığını nümayiş etdirir.

***Züleyxa ƏLİYEVA,***
***"Azərbaycan"***

# Avropa İttifaqı Azərbaycanla münasibətlərə böyük əhəmiyyət verir



Azərbaycanla Avropa İttifaqı arasında münasibətlər yeni inkişaf mərhələsinə qədəm qoyur. Avropa qurumlarının rəhbərliyinin Bakıya etdiyi səfərlər iki tərəf arasında əməkdaşlığın ənənəvi enerji gündəliyindən kənara çıxdığını, nəqliyyat bağlantısı, "yaşıl enerji" və regional sabitlik məsələlərini əhatə etdiyini göstərir. Bu, Azərbaycanın Avropa ilə Cənubi Qafqaz arasındakı münasibətlərin dəyişən arxitekturasında artan rolunu əks etdirir.

Tanınmış amerikalı politoloq və Mərkəzi Florida Universitetinin beynəlxalq siyasət professoru Human Sadri AZƏRTAC-ın suallarını cavablandırıb.

*- Avropa İttifaqı Şurasının prezidenti Antonio Koştanın və Avropa Komissiyasının prezidenti Ursula fon der Lyayenin Bakıya səfərləri Azərbaycanla Aİ arasında münasibətlərdə yeni bir mərhələni qeyd edir. Brüssel bu səfərlərlə hansı siyasi siqnalları göndərir? Strateji tərəfdaşlığın formalaşmasından danışmaq olarmı?*

- Bu səfərlər Avropa İttifaqının Azərbaycanla münasibətlərə böyük əhəmiyyət verdiyini göstərir. Bakı Brüssel üçün enerji təhlükəsizliyi, nəqliyyat əlaqələrinin inkişafı və Cənubi Qafqazda sabitliyin təmin edilməsi məsələlərində mühüm tərəfdaşdır. Münasibətlərin daha da inkişafı yeni müqavilələrdən, əməkdaşlığın institusionallaşdırılmasından və tərəflərin uzunmüddətli maraqlarının uyğunlaşdırılmasından asılı olacaq.

*- Bu gün Azərbaycan təkcə etibarlı enerji təchizatçısı deyil, həm də Avropa ilə Mərkəzi Asiya arasında mühüm nəqliyyat-logistika mərkəzi kimi qəbul edilir. Aİ üçün ölkənin əhəmiyyəti necə dəyişir?*

- Azərbaycanın Avropa İttifaqı üçün əhəmiyyəti yüksək dərəcədə artır. Təbii qaz təchizatçısı qismində rolu ilə yanaşı, ölkə Avropanı Cənubi Qafqaz və Mərkəzi Asiya ilə birləşdirən Orta dəhlizin inkişafında əsas aktorlardan birinə çevrilir.

Nəticədə Azərbaycan təkcə enerji tərəfdaşı kimi deyil, həm də ticarətin, nəqliyyat inteqrasiyasının və regional əlaqənin inkişafında getdikcə daha mühüm bir əlaqə kimi qəbul edilir.

*- Ursula fon der Lyayen Bakıdakı çıxışı zamanı "Yaşıl Enerji" Dəhlizi layihəsinə xüsusi diqqət yetirdi. "Yaşıl enerji" sahəsində əməkdaşlıq Azərbaycanla Aİ arasında münasibətlərdə yeni bir mərhələnin əsasını qoya bilərmi?*

- Bəli. Bərpaolunan enerji sahəsində qarşılıqlı fəaliyyət ən perspektivli əməkdaşlıq sahələrindən biri kimi ortaya çıxır. "Yaşıl Enerji" Dəhlizi layihəsi enerji əlaqəsini gücləndirmək və ənənəvi qaz tərəfdaşlığından kənarda əməkdaşlığı genişləndirmək potensialına malikdir.

Bununla yanaşı, reallaşdırma tempi investisiyaların həcmi, infrastrukturun inkişafı və tənzimləyici çərçivənin əlaqələndirilməsi ilə müəyyən ediləcək. Yaxın gələcəkdə "yaşıl enerji" mövcud qaz əməkdaşlığını əvəz etmək əvəzinə, onu tamamlayacaq.

*- Azərbaycan eyni zamanda Aİ, ABŞ, Çin, Türkiyə və Mərkəzi Asiya dövlətləri ilə münasibətləri inkişaf etdirir. Bu çoxvektorlu siyasət nə dərəcədə uğurlu olub?*

- Çoxvektorlu xarici siyasət Azərbaycana geniştərkibli beynəlxalq tərəfdaşlarla əlaqələrini gücləndirməyə və yüksək diplomatik çevikliyi qorumağa imkan verib. Ölkənin strateji mövqeyi, enerji təhlükəsizliyinin təmin edilməsində rolu və beynəlxalq nəqliyyat marşrutlarının inkişafı onun beynəlxalq arenada mövqeyini əhəmiyyətli dərəcədə gücləndirib.

Bu gün Azərbaycan enerji, logistika və regional əməkdaşlıqda əhəmiyyətli rol oynaya bilən əsas regional tərəfdaş kimi özünü təsdiqləyir.

# *Ursula fon der Lyayenin Azərbaycana səfəri:* Bakı ilə Aİ arasında münasibətlərin yeni arxitekturası

Beynəlxalq siyasətdə elə hadisələr var ki, onların əhəmiyyəti danışıqların özü ilə deyil, baş verdiyi kontekstlə müəyyən edilir. Avropa Komissiyasının prezidenti Ursula fon der Lyayenin Bakıya səfəri də məhz belə hadisələrdən biridir. Ayrıca baxıldıqda, bu, Azərbaycanla Avropa İttifaqı arasında müntəzəm siyasi dialoqun, sadəcə, növbəti mərhələsi kimi görünə bilər. Lakin aparılan danışıqlar Avropa İttifaqı Şurasının prezidenti Antonio Koştanın bu yaxınlarda baş tutan səfəri ilə birləşdirildikdə, münasibətlərdə daha dərin transformasiyanın baş verdiyi aydın olur.



Əslində, biz Azərbaycanla Avropa İttifaqı arasında qarşılıqlı əlaqənin yeni keyfiyyətinin yaranmasının şahidi oluruq. Əvvəllər münasibətlər daha çox Avropanın enerji təhlükəsizliyi ətrafında qurulurdusa, bu gün onlar nəqliyyat, logistika, rəqəmsal infrastruktur, "yaşıl enerji", regional təhlükəsizlik və iqtisadi əlaqə məsələlərini əhatə edən hərtərəfli strateji meyar qazanır.

Azərbaycanla Avropa İttifaqı arasında siyasi dialoqun intensivliyi xüsusilə diqqətəlayiqdir. Cəmi bir neçə ay ərzində Aİ-nin üç əsas qurumunun nümayəndələri ardıcıl olaraq Bakıya səfər ediblər. Diplomatik praktikada belə ardıcıl səfərlərə nadir hallarda təsadüf olunur. Bu, Azərbaycanla Avropa İttifaqı arasında münasibətlərin fəal şəkildə inkişaf etdiyini və Brüsselin Bakını Cənubi Qafqazdakı uzunmüddətli strategiyasında əsas tərəfdaş kimi gördüyünü göstərir.

### Enerji tərəfdaşlığından strateji qarşılıqlı fəaliyyətə

2022-ci ildən sonra Avropa İttifaqı öz enerji təhlükəsizliyini təmin etmək üzrə mövqeyini yenidən və kökündən nəzərdən keçirmək zərurəti ilə qarşılaşdı. Rusiya qazının tədarükünün azalması alternativ enerji mənbələri axtarışını sürətləndirdi. Məhz həmin dövrdə Azərbaycanın Avropa üçün əhəmiyyəti kəskin şəkildə artdı.

Bakı təkcə etibarlı təbii qaz təchizatçısı statusunu təsdiqləmədi, həm də Avropaya ixrac həcmini əhəmiyyətli dərəcədə artırdı. Lakin bu gün aydın olur ki, enerji təhlükəsizliyi artıq ikitərəfli münasibətlərin yeganə təməli deyil.

Ursula fon der Lyayenin hazırkı səfəri zamanı daha geniş məsələlər müzakirə olunub. Bu, Avropa İttifaqının Azərbaycana, sadəcə, enerji ixracatçısı kimi deyil, həm də Avropa ilə Mərkəzi Asiya arasında uzunmüddətli strategiyasının həyata keçirilməsində əsas tərəfdaş kimi baxmağa başladığını göstərir.

Bu transformasiya tamamilə məntiqlidir. Bugünkü mühitdə enerji təhlükəsizliyi artıq qaz və ya neft təchizatı ilə məhdudlaşmır. Buraya nəqliyyat marşrutlarının dayanıqlılığı, infrastrukturun inkişafı, rəqəmsal şəbəkələr, elektrik ötürmə sistemləri və yeni logistika zəncirləri daxildir. Məhz buna görə də Azərbaycan eyni vaxtda bir neçə istiqamətdə Aİ üçün vacib ölkəyə çevrilir.

### Coğrafiya strateji resurs qismində çıxış edir

Azərbaycanın artan rolunun əsas amillərindən biri onun coğrafi mövqeyidir. Son bir neçə ildə Bakı müasir nəqliyyat infrastrukturunun yaradılmasına, beynəlxalq dəniz nəqliyyatının, dəmir yolu əlaqələrinin və logistika mərkəzlərinin inkişafına ardıcıl olaraq sərmayə qoyub. Bu layihələr indi yeni əhəmiyyət kəsb edir.

Avropanın Orta dəhlizə marağı artdıqca, Azərbaycan Avropa, Cənubi Qafqaz, Xəzər regionu və Mərkəzi Asiyanı birləşdirən marşrutda mərkəzi qovşağa çevrilir.

Hazırkı vəziyyətin xüsusiliyi ondan ibarətdir ki, Avropa İttifaqı üçün nəqliyyat bağlantısı tədricən təkcə iqtisadi deyil, həm də strateji dayanıqlıq məsələsinə çevrilir. Avropa ilə Asiya arasında nə qədər çox alternativ marşrut varsa, bu qitə üçün təchizat zəncirlərinin dayanıqlığı da bir o qədər yüksəkdir. Buna görə də bu gün Brüsselin Azərbaycanda nəqliyyat layihələrinin inkişafına marağı bir neçə il əvvəlkindən xeyli böyükdür.

### Yeni energetika gündəliyi

Bərpaolunan enerji sahəsində əməkdaşlıq da az əhəmiyyət kəsb etmir. Bu yaxınlara qədər Azərbaycanla Avropa İttifaqı arasında enerji dialoqu demək olar ki, tamamilə təbii qaz ətrafında qurulmuşdu.

Bu gün isə vəziyyət dəyişir. Avropa Komissiyası bərpaolunan mənbələrdən istehsal olunan elektrik enerjisinin ixracını nəzərdə tutan "Yaşıl Enerji" Dəhlizinin inkişafını vurğulayır.

Burada Azərbaycanın və Mərkəzi Asiya dövlətlərinin potensialının birləşməsi xüsusilə mühüm rol oynayır. Əslində, tamamilə yeni bir energetika modeli yaranır ki, bu da Azərbaycanı təkcə qaz təchizatçısı deyil, həm də Avropaya "yaşıl elektrik" enerjisinin ötürülməsi üçün əsas tranzit mərkəzinə çevirə bilər.

Məhz buna görə Ursula fon der Lyayenin energetika bağlantısı platformasının inkişaf etdirilməsi təklifi adi enerji sektoru təşəbbüsündən daha geniş şəkildə nəzərdən keçirilməlidir. Söhbət Avropa, Cənubi Qafqaz və Mərkəzi Asiya arasında əməkdaşlıq üçün yeni infrastrukturun yaradılmasından gedir.

### İqtisadiyyat əsas siyasət alətinə çevrilir

Hazırkı mərhələnin digər xüsusiyyəti Avropa İttifaqının Cənubi Qafqazdakı mövcudluğunu gücləndirmək üçün getdikcə daha çox iqtisadi mexanizmlərdən istifadə etməsidir.

Nəqliyyat infrastrukturunun, enerji şəbəkələrinin, rəqəmsal rabitənin və ticarət əlaqələrinin inkişaf etdirilməsi təklifləri uzunmüddətli əməkdaşlıq modelinə doğru keçidi göstərir. Bu, əsasən siyasi dialoqa yönəlmiş əvvəlki yanaşmalardan köklü surətdə fərqlənir.

Bu gün Aİ faktiki olaraq, investisiya qarşılıqlı fəaliyyəti modelini təklif edir. Bu yanaşma hər iki tərəf üçün faydalıdır. Belə bir model Avropa üçün öz iqtisadi təhlükəsizliyini gücləndirmək və strateji əhəmiyyətli regionda iştirakını genişləndirmək deməkdir. Azərbaycan üçün isə iqtisadiyyatını şaxələndirmək, yeni investisiyalar cəlb etmək və dünyanın ən böyük iqtisadi bloku ilə əməkdaşlığı genişləndirmək imkanı təqdim edir.

### Sülh gündəliyi iqtisadi strategiya elementi kimi

Ermənistan ilə Azərbaycan arasında münasibətlərin normallaşması xüsusilə diqqətəlayiqdir.

Qeyd etmək vacibdir ki, Avropa İttifaqı sülh prosesinə tədricən təkcə siyasi və ya humanitar nöqteyi-nəzərdən baxmır. Bu gün sülh böyük iqtisadi layihələrin həyata keçirilməsi üçün ilkin şərtə çevrilir. Nəqliyyat marşrutları, enerji şəbəkələri, rəqəmsal rabitə və beynəlxalq ticarət sabit regional mühitin olmasını tələb edir.

Məhz buna görə də Brüssel sərhəd bölgələrini dəstəkləmək üçün maliyyə mexanizmləri və iki cəmiyyət arasında iqtisadi əməkdaşlığın inkişafına yönəlmiş təşəbbüslər təklif edir.

Bu, uzunmüddətli sülhün möhkəmləndirilməsi üçün iqtisadiyyatın təsirli vasitələrdən birinə çevrildiyi modelə tədrici keçidi göstərir.

### Azərbaycanın çoxvektorlu siyasəti

Bu kontekstdə əsas amil Azərbaycanın müxtəlif qlobal güc mərkəzləri ilə eyni vaxtda münasibətlər qurmaq qabiliyyəti olaraq qalır.

Avropa İttifaqı ilə strateji tərəfdaşlıq ABŞ, Mərkəzi Asiya dövlətləri, Çin və digər beynəlxalq tərəfdaşlarla aktiv əməkdaşlıqla paralel inkişaf edir. Belə bir model ölkənin xarici siyasət imkanlarını əhəmiyyətli dərəcədə genişləndirir.

Bu, həmçinin Avropa İttifaqı üçün Azərbaycanla qarşılıqlı fayda əsasında münasibətlər qurmaq, konkret layihələr və investisiyalar təklif etmək zərurəti deməkdir. Avropa siyasətinin iqtisadiyyata və infrastruktura yönəlməsi də məhz bu amillə izah edilir.

### Perspektivlər

Mövcud tendensiyaları təhlil etdikdə belə bir qənaət hasil etmək olar ki, Azərbaycanla Avropa İttifaqı arasında münasibətlərin yaxın illərdə bir-biri ilə əlaqəli bir neçə sahədə inkişaf edəcəyini gözləmək olar.

Birincisi, energetika əməkdaşlığı genişlənməyə davam edəcək. Lakin bu, artıq yalnız təbii qaza deyil, həm də bərpaolunan mənbələr və elektrik enerjisinin nəqli layihələrinə əsaslanacaq.

İkincisi, nəqliyyat əlaqələrinin əhəmiyyəti getdikcə daha da yüksələcək. Orta dəhliz tədricən Avropa ilə Asiya arasında ən vacib marşrutlardan birinə çevrilir və Azərbaycanın əsas tranzit ölkəsi kimi rolu durmadan artacaq.

Üçüncüsü, infrastruktur layihələrinə, logistikaya, rəqəmsal texnologiyalara və regional ticarətin inkişafına Avropa investisiyalarının daha da artacağını gözləyə bilərik.

Nəhayət, tərəflər arasında siyasi dialoq daha praqmatik hala gələcək. Əvvəllər siyasi fikir ayrılıqları Aİ-Azərbaycan münasibətlərinə tez-tez hakim olsa da, bu gün hər iki tərəfdə strateji maraqların üst-üstə düşdüyü sahələrə diqqət yetirmək səyləri artmaqdadır.

### Əsas nəticələr

Ursula fon der Lyayenin səfərinin əsas nəticəsi təkcə imzalanmış müqavilələrdə və ya verilən bəyanatlarda deyil. Onun əhəmiyyəti başqadır: Avropa İttifaqı Azərbaycanla uzunmüddətli strateji mülahizələrə əsaslanan yeni münasibətlər modelinə doğru irəliləyiş nümayiş etdirir. Azərbaycan artıq yalnız enerji təchizatçısı kimi qəbul edilmir. O, Avropa ilə Asiya arasında iqtisadi, enerji və nəqliyyat qarşılıqlı əlaqəsinin yeni arxitekturasında mühüm elementə çevrilir.

Bakı ilə Brüssel arasındakı münasibətlərin hazırkı inkişaf mərhələsinin əsas nəticəsi ayrı-ayrı siyasi bəyanatlar deyil, məhz bu transformasiyadır. Mövcud tendensiyalar davam edərsə, Azərbaycanla Avropa İttifaqı arasındakı tərəfdaşlıq yaxın illərdə təkcə enerji ilə deyil, həm də Avrasiya üçün yeni geoiqtisadi arxitekturanın birgə formalaşması ilə müəyyən ediləcək.

# Rəqəmsallaşma gələcəyin layihəsi yox, günün reallığıdır

## Azərbaycan da bu qlobal transformasiyanı milli inkişaf strategiyasının əsas istiqamətlərindən birinə çevirən ölkələr sırasındadır

XXI əsr bəşər tarixində yeni inkişaf mərhələsinin əsasını qoyub. Əgər ötən yüzilliklər sənaye inqilabı, enerji resursları və iri istehsal müəssisələri ilə xarakterizə olunurdusa, bu gün dünyanın inkişaf xəritəsini tamamilə fərqli meyarlar müəyyənləşdirir.

Artıq dövlətlərin qüdrəti təkcə təbii sərvətləri, hərbi potensialı və ya iqtisadi göstəriciləri ilə ölçülmür. Müasir dövrün ən böyük sərvəti informasiyadır. Bu informasiyanı toplayan, emal edən, qoruyan və səmərəli idarə edən dövlətlər gələcəyin liderlərinə çevrilirlər. Buna görə də rəqəmsallaşmanı texnoloji yenilik yox, müasir dünyanın inkişaf fəlsəfəsi kimi qəbul etmək lazımdır.

Süni intellekt, böyük verilənlər, bulud texnologiyaları, rəqəmsal hökumət, kibertəhlükəsizlik və innovasiya artıq iqtisadiyyatın ayrıca sahələri deyil, dövlət idarəçiliyinin, milli təhlükəsizliyin, təhsilin, səhiyyənin, sənayenin və bütövlükdə ictimai həyatın ayrılmaz hissəsidir. Yeni dövrdə üstünlük daha çox təbii resursa malik olanda yox, biliyi, texnologiyanı və innovasiyanı daha səmərəli idarə edən dövlətdə olacaq.

Azərbaycan da bu qlobal transformasiyanı milli inkişaf strategiyasının əsas istiqamətlərindən birinə çevirən ölkələr sırasındadır. Son illərdə həyata keçirilən islahatlar, qəbul olunan strateji sənədlər və müasir idarəetmə mexanizmləri göstərir ki, rəqəmsal inkişaf artıq dövlət siyasətinin prioritetlərindən biridir. Bu istiqamətdə atılan addımlar Azərbaycanın gələcək inkişaf modelinin əsas konturlarını formalaşdırır.

Bu baxımdan iyunun 29-da Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın sədrliyi ilə keçirilən Rəqəmsal İnkişaf Şurasının ilk iclası xüsusi əhəmiyyət daşıyır. İlk baxışdan bu, növbəti işgüzar toplantı təsiri bağışlaya bilərdi. Əslində isə həmin iclas ölkəmizdə rəqəmsal inkişafın yeni mərhələsinin başladığını ifadə edən strateji hadisə idi. İclasda müzakirə olunan məsələlər informasiya texnologiyalarının tətbiqi ilə məhdudlaşmırdı, söhbət dövlət idarəçiliyinin müasirləşdirilməsindən, iqtisadiyyatın rəqabət qabiliyyətinin artırılmasından, insan kapitalının inkişafından, milli təhlükəsizliyin möhkəmləndirilməsindən və Azərbaycanın rəqəmsal gələcəyinin formalaşdırılmasından gedirdi.

İclasda "Azərbaycan Respublikasında rəqəmsal inkişafın sürətləndirilməsinə dair 2026-2028-ci illər üçün Fəaliyyət Planı"nın icra vəziyyəti, rəqəmsal inkişaf sahəsində qanunvericilik islahatları, təhsilin rəqəmsallaşdırılması, süni intellekt texnologiyalarının tətbiqi, kibertəhlükəsizlik, innovasiya ekosisteminin inkişafı, startapların dəstəklənməsi və investisiyaların təşviqi kimi məsələlərin müzakirəyə çıxarılması təsadüfi deyildi. Onlar qarşıdakı onilliklərdə Azərbaycanın inkişaf trayektoriyasını müəyyən edəcək strateji istiqamətlərdir. Mehriban xanım Əliyeva çıxışında vurğuladı ki, "Azərbaycan Respublikasında rəqəmsal inkişafın sürətləndirilməsinə dair 2026-2028-ci illər üçün Fəaliyyət Planı" şuranın fəaliyyətinin əsas istiqamətidir. Dövlət idarəçiliyində rəqəmsallaşmanın, süni intellektin, kibertəhlükəsizliyin və innovasiya ekosisteminin inkişafının prioritet kimi müəyyənləşdirilməsi, bütün qərarların Azərbaycanın milli maraqlarına uyğun qəbul edilməsinin vacibliyinin önə çəkilməsi ölkəmizin rəqəmsal inkişaf modelinin əsas ideoloji xəttini müəyyənləşdirir. Çünki texnologiya məqsəd deyil. Əsas məqsəd onu dövlətin güclənməsinə, vətəndaşın rifahına və milli maraqların qorunmasına xidmət etdirə bilməkdir.

Məhz buna görə rəqəmsallaşmanı yalnız kompüterlərin sayının artması və ya dövlət xidmətlərinin elektron formaya keçirilməsi kimi dəyərləndirmək doğru olmaz. Elektron xidmət rəqəmsallaşmanın nəticəsidir, mahiyyəti isə tamamilə fərqlidir. Rəqəmsallaşma idarəetmənin yeni fəlsəfəsidir. Bu fəlsəfə qərarların dəqiq məlumatlar əsasında qəbul edilməsini, dövlət xidmətlərinin daha çevik və şəffaf təşkilini, vətəndaş məmnunluğunun artırılmasını, resurslardan səmərəli istifadəni və idarəetmədə yeni keyfiyyət mərhələsinin formalaşdırılmasını nəzərdə tutur. Rəqəmsallaşma artıq gələcəyin layihəsi deyil, bu günün reallığıdır. Bu reallığı vaxtında qiymətləndirən dövlətlər sabahın iqtisadi, elmi və siyasi liderləri olacaqlar. Azərbaycanın seçdiyi yol da məhz bu strateji baxışa əsaslanır.

Rəqəmsal dövlət modelinin ən mühüm üstünlüklərindən biri vətəndaşa göstərilən xidmətlərin keyfiyyətinin yüksəldilməsidir. Vaxtilə saatlarla növbələrdə gözlənilən xidmətlər bu gün bir neçə dəqiqə ərzində elektron qaydada həyata keçirilir. Müxtəlif dövlət qurumları arasında sənəd dövriyyəsinin rəqəmsallaşdırılması həm vaxt itkisini azaldır, həm də idarəetmənin səmərəliliyini artırır. Dövlət vətəndaşın vaxtına qənaət etdikcə, əslində, onun həyat keyfiyyətini yüksəldir.

Eyni zamanda rəqəmsallaşma şəffaflığın və hesabatlığın möhkəmləndirilməsinin ən təsirli vasitələrindən biridir. Avtomatlaşdırılmış idarəetmə sistemləri, elektron nəzarət mexanizmləri və rəqəmsal xidmətlər insan müdaxiləsini minimuma endirir, sui-istifadə imkanlarını məhdudlaşdırır və cəmiyyətin dövlət institutlarına inamını gücləndirir. Elə buna görə də inkişaf etmiş ölkələr rəqəmsal transformasiyanı yalnız iqtisadi deyil, həm də institusional inkişafın əsas şərtlərindən biri hesab edirlər.

Rəqəmsal transformasiya yalnız dövlət xidmətlərinin elektronlaşdırılması ilə məhdudlaşmır, onun yeni mərhələsi artıq süni intellekt texnologiyalarının geniş tətbiqi ilə xarakterizə olunur. Dünyada baş verən proseslər göstərir ki, süni intellekt yaxın gələcəkdə iqtisadi inkişafın, dövlət idarəçiliyinin və elmi tərəqqinin əsas hərəkətverici qüvvələrindən birinə çevriləcək. Artıq bu texnologiyalar səhiyyədə xəstəliklərin erkən diaqnostikasından tutmuş kənd təsərrüfatında məhsuldarlığın proqnozlaşdırılmasına, sənayedə istehsal proseslərinin optimallaşdırılmasından nəqliyyatda ağıllı idarəetmə sistemlərinin qurulmasına qədər həyatın bütün sahələrində yeni imkanlar yaradır.

Bu baxımdan Rəqəmsal İnkişaf Şurasının ilk iclasında süni intellektin strateji əhəmiyyətinin xüsusi vurğulanması təbii idi. Burada əsas məqsəd yeni texnologiyaların tətbiqi ilə yanaşı, həm də onların Azərbaycanın milli maraqlarına uyğun inkişaf etdirilməsi, dövlət idarəçiliyinin səmərəliliyinin artırılması və milli rəqabət qabiliyyətinin möhkəmləndirilməsidir. Çünki gələcəyin üstünlüyü texnologiyanı yaradan, inkişaf etdirən və milli maraqlara xidmət etdirən dövlətlərin olacaq.

Sözsüz ki, rəqəmsal inkişaf yalnız yeni imkanlar yaratmır, eyni zamanda yeni məsuliyyətlər də doğurur. İnformasiya cəmiyyətində məlumat ən qiymətli resursa çevrildikcə, onun qorunması da strateji əhəmiyyət qazanır. Kiberhücumlar, şəxsi məlumatların qanunsuz əldə olunması, maliyyə sistemlərinə müdaxilə, dezinformasiyanın yayılması və süni intellekt vasitəsilə hazırlanan saxta rəqəmsal məzmun artıq qlobal təhlükəsizlik gündəliyinin əsas məsələlərindəndir.

Məhz buna görə ölkəmizdə milli kibertəhlükəsizlik ekosisteminin formalaşdırılması, dövlət qurumları arasında koordinasiyanın gücləndirilməsi, kritik informasiya infrastrukturunun etibarlı müdafiəsi və qabaqlayıcı monitorinq mexanizmlərinin tətbiqi strateji prioritet kimi müəyyənləşdirilib. Bu istiqamətdə həyata keçirilən tədbirlər rəqəmsal dövlət quruculuğunun ayrılmaz hissəsidir. Çünki texnologiyanın gücü onun təhlükəsizliyi ilə ölçülür.

Rəqəmsal transformasiyanın digər mühüm istiqaməti isə məlumat resurslarının milli sərvət kimi idarə olunmasıdır. Müasir dünyada məlumat düzgün emal olunduqda iqtisadi qərarların qəbuluna, sosial proseslərin idarə olunmasına, elmi araşdırmaların inkişafına və dövlət siyasətinin formalaşdırılmasına xidmət edən strateji resursa çevrilir.

Milli data ekosisteminin yaradılması xüsusi əhəmiyyət daşıyır. Müxtəlif dövlət qurumlarında formalaşan məlumat bazalarının vahid prinsiplərlə idarə olunması, təhlükəsiz saxlanılması, qarşılıqlı inteqrasiyası və intellektual təhlili idarəetmənin keyfiyyətini yeni mərhələyə yüksəldir. Bu, təkcə texniki layihə deyil, milli təhlükəsizliyin, iqtisadi dayanıqlılığın və dövlət idarəçiliyinin səmərəliliyinin əsas şərtlərindən biridir.

Bu gün bəşəriyyət V Sənaye İnqilabının astanasındadır. Əvvəlki sənaye inqilablarında əsas məqsəd fiziki əməyin məhsuldarlığını artırmaq idisə, yeni mərhələdə insan zəkası ilə süni intellekt arasında səmərəli əməkdaşlığın qurulması ön plana çıxır. Gələcəyin üstünlüyü kompüterlərin sürətində deyil, insan düşüncəsinin yaradıcılıq gücündə olacaq.

Azərbaycan da bu yeni mərhələyə öz zəngin elmi potensialı, milli intellektual resursları və güclü dövlət iradəsi ilə daxil olur. Prezident İlham Əliyevin müəyyən etdiyi inkişaf strategiyası, Birinci vitse-prezident Mehriban Əliyevanın sədrliyi ilə Rəqəmsal İnkişaf Şurasında müəyyənləşdirilən prioritetlər, elm və təhsil sahəsində həyata keçirilən islahatlar göstərir ki, ölkəmiz texnologiyanı məqsəd kimi deyil, insanın rifahına və dövlətin dayanıqlı inkişafına xidmət edən vasitə kimi qiymətləndirir. Azərbaycanın rəqəmsal inkişaf modelinin əsas üstünlüyü də məhz bu yanaşmadır.

***Elşən QƏNİYEV,***
***"Azərbaycan"***

# N.Paşinyan Türkiyə və Azərbaycanla enerji əməkdaşlığının vacibliyindən danışıb

Ermənistanın Baş naziri Nikol Paşinyan Türkiyə və Azərbaycanla enerji əlaqələrinin genişləndirilməsinin vacibliyinə toxunub.



AZƏRTAC xəbər verir ki, Ermənistan hökumətinin başçısı bunu Avropa Komissiyasının rəhbəri Ursula fon der Lyayen ilə birgə mətbuat konfransında deyib.

"Enerji əlaqələrinin genişləndirilməsini, o cümlədən elektrik xətlərinin inşasını, həmçinin qonşu Türkiyə və Azərbaycanla əlaqənin qurulmasını vacib hesab edirəm. Bu, həm enerji təhlükəsizliyinə, həm də "yaşıl keçid"ə töhfə verə bilər", - deyə Nikol Paşinyan bildirib.

Ermənistanın Qara dənizin dibi ilə elektrik kabeli çəkmək proqramlarında iştirakının vacibliyini vurğulayan Baş nazir İrəvanın rəqəmsallaşdırma sahəsində əməkdaşlığın gücləndirilməsində maraqlı olduğunu qeyd edib.

Xatırladaq ki, Avropa Komissiyasının rəhbəri Ursula fon der Lyayen regional tur çərçivəsində Bakıya səfərinin ardından iyulun 2-si səhər saatlarında Ermənistana yollanıb.

# Onun həyat missiyası - cəmiyyətə xidmət



**Müasir dövrdə ictimai fəaliyyətin əhatə dairəsi daha da genişlənmişdir. Sosial bərabərliyin təmin olunması, humanitar yardım, ətraf mühitin mühafizəsi, mədəniyyətlərarası dialoqun inkişafı, gənclərin fəallığının artırılması və könüllülük hərəkatının genişləndirilməsi artıq dövlətlərin dayanıqlı inkişaf strategiyasının mühüm istiqamətlərindən birinə çevrilmişdir. Bu baxımdan ictimai xadimlərin fəaliyyəti yalnız sosial problemlərin həllinə deyil, həm də cəmiyyətin mənəvi inkişafına, vətəndaş məsuliyyətinin güclənməsinə və milli həmrəyliyin möhkəmlənməsinə xidmət edir.**

Bu gün Azərbaycanın ictimai-siyasi və mədəni həyatına nəzər saldıqda, fəaliyyətində humanizmi, ekoloji məsuliyyəti və milli dəyərləri birləşdirən fərqli bir imza diqqəti cəlb edir. Bu imza Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla xanım Əliyevaya məxsusdur. O, həm milli mədəniyyətin beynəlxalq arenada fəal təbliğatçısı, həm də humanist layihələrin rəhbəri kimi tanınmış simalardandır. Leyla Əliyeva genişmiqyaslı fəaliyyəti ilə təkcə ölkə daxilində deyil, qlobal miqyasda Azərbaycanın mədəniyyət, ekologiya, humanitar diplomatiya sahələrində missiyasını uğurla yerinə yetirir. Çox gənc yaşlarından Leyla xanım müxtəlif ictimai vəzifələr yerinə yetirməkdədir. O, Heydər Əliyev Fondunun vitse-prezidenti, Ətraf mühitin mühafizəsi naminə beynəlxalq dialoq ictimai birliyinin (IDEA) təsisçisi və sədri, "Baku" jurnalının təsisçisi və baş redaktoru, İslam Əməkdaşlıq Təşkilatı Gənclər forumunun mədəniyyətlərarası dialoqunun baş koordinatorudur.

Bu vəzifələrdən də göründüyü kimi, Leyla xanım Əliyeva humanitar layihələrin, sosial təşəbbüslərin, ekoloji proqramların və beynəlxalq mədəni dialoq platformalarının həyata keçirilməsində fəal iştirak edərək Azərbaycan Prezidenti İlham Əliyevin həyata keçirdiyi inkişaf siyasətinə mühüm töhfələr verir. Onun fəaliyyəti təkcə bir istiqamətlə məhdudlaşmayaraq müxtəlif sahələri birləşdirən, insan amilini ön plana çıxaran, sosial məsuliyyət anlayışını praktik fəaliyyətə çevirən geniş bir missiyanı əhatə edir. Belə bir fəaliyyətin əsas xüsusiyyətlərindən mühümü isə onun məhz davamlı xarakter daşımasındadır. Tək-tək aksiyalar və ya kampaniyalar deyil, uzunmüddətli sosial layihələr, cəmiyyətə sistemli təsir göstərən təşəbbüslər Leyla Əliyevanın fəaliyyət xəttinin əsası kimi diqqəti çəkir.

## Humanitar dəyərlərin təbliği

Azərbaycan tarixən mərhəmət, xeyirxahlıq, köməyə ehtiyac duyanlara təmənnasız dəstək kimi dəyərləri yüksək tutan cəmiyyət olub. Son illər bu ənənələrin müasir çağırışlara uyğun şəkildə davam etdirilərək daha da möhkəmləndirilməsində Heydər Əliyev Fondunun rolu misilsizdir. Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın rəhbərliyi ilə fondun həyata keçirdiyi çoxsaylı layihələr sırasında təhsil, səhiyyə, sosial müdafiə və mədəniyyət sahələrini əhatə edən proqramlar mühüm yer tutur. Leyla Əliyeva isə Heydər Əliyev Fondunun vitse-prezidenti kimi bu fəaliyyətin ön sıralarında irəliləyərək sosial həssas qruplara, uşaqlara, ahıllara, xüsusi qayğıya ehtiyacı olan insanlara kömək göstərir. Fondun fəaliyyəti çərçivəsində uşaq evləri, əlilliyi olan şəxslər, şəhid ailələri, aztəminatlı ailələrlə bağlı layihələrdə iştirak edir. Leyla xanımın vaxtaşırı olaraq sosial xidmət müəssisələrinə səfərləri, müxtəlif reabilitasiya və sosial inteqrasiyaya yönəlmiş təşəbbüsləri bu fəaliyyətin tərkib hissəsidir.

İnklüziv cəmiyyətin təşviqinə yönələrək Leyla xanım əlilliyi olan şəxslərin cəmiyyətə inteqrasiyasını dəstəkləyən layihələrdə fəal iştirak edir, onların yaradıcılıq və peşə bacarıqlarının inkişafına yönəlmiş proqramlara diqqət yetirir. Uşaqların sosial-emosional inkişafı da onun diqqət mərkəzindədir. Heydər Əliyev Fondunun vitse-prezidentinin təşəbbüsü ilə uşaq evlərində həyata keçirilən proqramlar uşaqların ünsiyyət, əməkdaşlıq, özünüifadə və emosional bacarıqlarının inkişafını hədəfləyir. Bu cür proqramlar sosial inteqrasiyanın gücləndirilməsi baxımından qiymətləndirilir.

Müxtəlif sosial layihələrdə könüllülərin iştirakının təşviqi də Leyla xanımın ən böyük xidmətlərindəndir. Onun iştirak etdiyi hər bir layihənin əsas məqsədi yalnız maddi yardım göstərmək deyil, insanlara diqqət və qayğı duyğusunu çatdırmaq, onlara tək olmadıqlarını, ətrafdakıların şəfqəti, xeyirxahlıqları ilə əhatə olunduqlarını hiss etdirməkdir. Məhz buna görə də Leyla xanımın fəaliyyəti çox vaxt xeyriyyəçilik anlayışının klassik çərçivələrini aşaraq sosial həmrəyliyin təşviqinə xidmət göstərən missiya kimi qiymətləndirilir.

## Ekoloji düşüncənin formalaşdırılması

Leyla Əliyevanın ictimai fəaliyyətində xüsusi yer tutan istiqamətlərdən biri də ekoloji düşüncənin formalaşdırılması və ətraf mühitin mühafizəsinə yönəlmiş təşəbbüslərdir. XXI əsrdə dünyamız bir sıra qlobal çağırışlarla üz-üzədir və onların sırasında iqlim dəyişiklikləri, biomüxtəlifliyin azalması, su ehtiyatlarının tükənməsi, torpaqların deqradasiyası, meşələrin azalması, plastik tullantıların artması və şəhərləşmənin sürətlənməsi xüsusi yer tutur. Bu problemlər artıq yalnız ekoloqların və alimlərin müzakirə etdiyi məsələlər olmaqdan çıxaraq, dövlətlərin iqtisadi inkişafına, insanların sağlamlığına, ərzaq təhlükəsizliyinə, enerji siyasətinə və sosial rifahına birbaşa təsir göstərən strateji amillərə çevrilib.

Məhz belə bir dövrdə ekoloji məsuliyyət anlayışının cəmiyyətin bütün təbəqələrində formalaşdırılması xüsusi əhəmiyyət kəsb edir. Ətraf mühitin qorunması yalnız dövlət proqramları və qanunvericilik mexanizmləri ilə deyil, hər bir vətəndaşın gündəlik davranışında, həyat tərzində və dəyərlər sistemində əks olunmalıdır. Bu baxımdan Leyla Əliyevanın həyata keçirdiyi təşəbbüslər ekoloji problemlərin praktiki həlli ilə yanaşı, yeni ictimai şüurun formalaşdırılmasına da xidmət edir.

Onun təşəbbüsü ilə yaradılmış IDEA (International Dialogue for Environmental Action) İctimai Birliyi qısa müddət ərzində Azərbaycanda ətraf mühitin mühafizəsi sahəsində ən fəal və ən genişmiqyaslı ictimai platformalardan birinə çevrilmişdir. Təşkilat fəaliyyətini yalnız ayrı-ayrı ekoloji aksiyalarla məhdudlaşdırmayaraq, uzunmüddətli ekoloji strategiyanın mühüm tərkib hissəsi olan maarifləndirmə, ictimai iştirakçılıq və beynəlxalq əməkdaşlıq prinsipləri üzərində qurmuşdur.

Leyla Əliyevanın təşəbbüsü və rəhbərliyi ilə IDEA-nın mütəmadi olaraq həyata keçirdiyi ağacəkmə kampaniyaları, yaşıllıq sahələrinin genişləndirilməsi, biomüxtəlifliyin qorunmasına yönəlmiş layihələr, nadir və nəsli kəsilmək təhlükəsi altında olan canlı yaşıllıq növlərinin mühafizəsi, dəniz və çimərliklərin tullantılardan təmizlənməsi aksiyaları, su hövzələrinin qorunması, tullantıların çeşidlənməsi və təkrar emal mədəniyyətinin təşviqi istiqamətində görülən işlər, yaradılan ictimai çimərliklər, yaşayış binalarının həyətlərinin abadlaşdırılması cəmiyyətin ekoloji məsuliyyət hissinin güclənməsinə mühüm töhfə verir. Bu layihələr yalnız konkret ekoloji problemlərin aradan qaldırılmasına deyil, həm də insanların təbiətə münasibətinin dəyişməsinə xidmət edir.

Xüsusilə gənclərin ekoloji təşəbbüslərə cəlb olunması belə bir fəaliyyətin ən mühüm istiqamətlərindəndir. Məktəblərdə, universitetlərdə və müxtəlif ictimai platformalarda keçirilən maarifləndirici tədbirlər, ekoloji forumlar, könüllülük proqramları və kampaniyalar nəticəsində minlərlə gənc ətraf mühitin mühafizəsini şəxsi məsuliyyət məsələsi kimi qəbul etməyə başlayıb. Beləliklə, ekologiya yalnız nəzəri bilik olmayıb, gündəlik davranış modelinə çevrilən sosial dəyər kimi formalaşır.

Bu fəaliyyətin əsas üstünlüklərindən biri ekoloji problemlərə texniki deyil, mədəni yanaşmanın tətbiq edilməsidir. Çünki ətraf mühitin qorunması ilk növbədə insanın düşüncə tərzindən başlayır. Ağac əkmək, suya qənaət etmək, tullantıları düzgün idarə etmək, təbiətə qayğı ilə yanaşmaq və "yaşıl həyat" tərzini seçmək həm də yüksək vətəndaş məsuliyyətinin göstəricisidir. Leyla Əliyevanın təşəbbüsləri məhz bu yanaşmanı təşviq etməklə ekologiyanı cəmiyyətin gündəlik həyatının ayrılmaz hissəsinə çevirməyə çalışır.

Son illər Azərbaycanın beynəlxalq ekoloji gündəmdə fəallığının yüksəlməsi bu istiqamətdə aparılan fəaliyyətin aktuallığını daha da artırmışdır. Dünyada "yaşıl inkişaf", bərpaolunan enerji, karbon emissiyalarının azaldılması və dayanıqlı inkişaf prinsipləri ön plana çıxdıqca, ölkə daxilində ekoloji maarifləndirmənin genişlənməsi strateji əhəmiyyət daşıyır. Leyla Əliyevanın təşəbbüsləri bu baxımdan Azərbaycanın "yaşıl inkişaf" prioritetləri ilə vəhdət təşkil edərək cəmiyyətin yeni qlobal çağırışlara hazırlanmasına xidmət edir.

Nəticə etibarilə Heydər Əliyev Fondunun vitse-prezidentinin fəaliyyətini yalnız ətraf mühitin mühafizəsinə yönəlmiş ayrı-ayrı layihələr kimi qiymətləndirmək doğru olmazdı. Bu fəaliyyət, əslində, yeni ekoloji mədəniyyətin, məsuliyyətli vətəndaşlıq şüurunun və gələcək nəsillər qarşısında cavabdehlik hissinin formalaşdırılmasına yönəlmiş uzunmüddətli ictimai missiyadır. Təbiətin qorunmasını ümummilli dəyər kimi təqdim edən bu təşəbbüslər Azərbaycanda "yaşıl düşüncə" tərzinin genişlənməsinə, könüllülük hərəkatının güclənməsinə və cəmiyyətin dayanıqlı inkişaf ideyalarına daha fəal qoşulmasına mühüm töhfə verir.

## Ədalət naminə

Qloballaşan dünyamızda müxtəlif mədəniyyətlər arasında dialoqun qurulması, qarşılıqlı anlaşmanın gücləndirilməsi xüsusi əhəmiyyət kəsb edir. Azərbaycan isə coğrafi mövqeyi və tarixi-mənəvi irsi etibarilə müxtəlif sivilizasiyaların qovşağında yerləşən ölkədir.

Leyla xanım Əliyevanın iştirak etdiyi beynəlxalq humanitar layihələr və mədəni təşəbbüslər də məhz bu ənənənin davamıdır. Müxtəlif ölkələrdə keçirilən mədəni tədbirlər, sərgilər, sosial layihələr Azərbaycan haqqında müsbət təsəvvürün formalaşmasına, ölkənin yumşaq güc imkanlarının genişlənməsinə töhfə verir. Bu fəaliyyət eyni zamanda ölkəmizin tolerantlıq, multikulturalizm və mədəni müxtəlifliyə hörmət kimi dəyərlərinin beynəlxalq miqyasda tanıdılmasına xidmət edir. Leyla xanımın təkcə 2026-cı ildəki çoxşaxəli fəaliyyətini, zəngin iş qrafikini izləsək, bunu əyani şəkildə görə bilərik. Onun İsveçrə, Efiopiya və Omana, Birləşmiş Ərəb Əmirliklərinə, bir sözlə Banqladeşdən Türkmənistana, ICESCO-dan BMT platformalarına qədər çox geniş bir sferanı əhatə edən səfərləri və fəaliyyəti Azərbaycanın beynəlxalq humanitar mövqeyinin konseptual mənzərəsini canlandırır. Heydər Əliyev Fondunun vitse-prezidentinin fəal iştirak etdiyi təşəbbüslərin təkcə bir istiqamətlər zolağı olmadığını, bir-birini tamamlayan əsas sütunlar üzərində qurulduğunu göstərir. Bunlar qlobal çevrədə humanitar əməkdaşlıq, sosial və təhsil layihələri, mədəni, ekoloji və elmi diplomatiyadır.

Müasir informasiya mühitində həqiqətlərin beynəlxalq ictimaiyyətə düzgün təqdimatı dövlətlərin qarşısında duran mühüm vəzifələrdən biridir. Xüsusilə Ermənistan-Azərbaycan münaqişəsinin nəticələri, Xocalı soyqırımı və işğal dövründə Azərbaycanın üzləşdiyi problemlər barədə obyektiv məlumatların yayılması böyük əhəmiyyət daşıyır.

Leyla Əliyevanın təşəbbüsü ilə uzun illərdir həyata keçirilən "Xocalıya ədalət!" kampaniyası bu istiqamətdə ən genişmiqyaslı beynəlxalq təşəbbüslərdən biri hesab olunur. Müxtəlif ölkələrdə təşkil edilmiş tədbirlər, konfranslar, sərgilər və maarifləndirici aksiyalar vasitəsilə dünyanın hər yerində milyonlarla insan Xocalı faciəsi haqqında məlumatlar əldə edib, ayrı-ayrı ölkələrin parlamentləri bu faciəni soyqırımı kimi tanıyıb. Bir məqamı xüsusi qeyd etmək lazımdır ki, bu kampaniyada Leyla xanımın əsas məqsədi tarixi həqiqətlərin tanıdılması, Xocalı canilərinin gec-tez beynəlxalq ədalət mühakiməsi qarşısında duraraq öz layiqli cəzalarına çatması ilə yanaşı, həm də beynəlxalq səviyyədə humanitar ədalət ideyasının təşviqi, dünyamızda bir daha belə dəhşətli cinayətlərin təkrarlanmaması üçün güclü mexanizmlərin formalaşmasıdır. Haqqın, ədalətin tarixin bütün dövrlərində onu qoruyan şəxsiyyətlərə ehtiyacı olub. Leyla xanım Əliyeva da müasir dünyamızda ədaləti qoruyan və xüsusilə yeni nəslə də bunu aşılayan şəxsiyyətlərdəndir.

Leyla Əliyevanın fəaliyyətində gənclərlə iş xüsusi yer tutur. Müxtəlif sosial, mədəni və ekoloji layihələr vasitəsilə minlərlə gəncin ictimai proseslərə cəlb olunması, onların könüllülük fəaliyyətində fəal iştirakı, liderlik bacarıqlarının inkişaf etdirilməsi istiqamətində mühüm addımlar atılır.

Bu layihələrin əsas məqsədi sosial məsuliyyət hissinə malik, fəal və təşəbbüskar vətəndaşların yetişməsinə töhfə verməkdir. Müasir dövrdə ölkələrin rəqabət qabiliyyəti insan resurslarının keyfiyyəti ilə müəyyən olunduğundan Leyla xanımın bu istiqamətdə gördüyü işlər strateji əhəmiyyət daşıyır.

## Fəaliyyətinin əsas fəlsəfəsi

İctimai xadim, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın çoxşaxəli fəaliyyətinə nəzər saldıqda onu birləşdirən əsas ideyanı görmək mümkündür. Bu ideya insan amilinin ön plana çıxarılmasıdır. İstər humanitar layihələrdə, istər ekoloji təşəbbüslərdə, istərsə də beynəlxalq kampaniyalarda əsas məqsəd insan həyatının keyfiyyətinin yüksəldilməsi, cəmiyyətin inkişafına töhfə verilməsi və sosial məsuliyyət hissinin gücləndirilməsidir. Məhz buna görə də onun fəaliyyəti ayrı-ayrı layihələrin toplusundan çox, müəyyən dəyərlər sistemi üzərində qurulmuş ictimai missiya kimi görünür. Bu missiyanın mərkəzində isə xeyirxahlıq, mərhəmət, sosial həmrəylik, təbiətə qayğı və insanlara xidmət prinsipləri dayanır.

Onun şəxsiyyətinin mühüm özünəməxsusluqlarından biri də incəsənətə, ədəbiyyata olan dərin bağlılığıdır. Leyla xanım yaradıcı insan kimi rəssamlıq və poeziya sahələrində də özünü ifadə edir. Çəkdiyi bir-birindən maraqlı rəsm əsərlərində insanın daxili aləmi, həyata həssas münasibət, sevgi, mərhəmət və harmoniya kimi mövzular ön plana çıxır. Bu əsərlər müəllifin dünyaya baxışını əks etdirən estetik düşüncənin təzahürü kimi maraq doğurur. Onun yaradıcılığında rənglər və obrazlar, sadəcə, bədii ifadə vasitəsi olmaqdan daha çox duyğuların, düşüncələrin dilinə çevrilir.

Leyla Əliyevanın poeziyası da özünəməxsusdur. Qələmə aldığı şeirlərdə mənəvi dünyamız, sevgi, həyatın fəlsəfi məqamları öz əksini tapır. Bu yaradıcılıq nümunələri göstərir ki, yaradıcı ziyalının ictimai fəaliyyəti ilə bədii təfəkkürü arasında təbii bir bağlılıq mövcuddur. Yerinə yetirdiyi sosial-humanitar layihələrdə insanlara diqqət və qayğı dolu münasibəti necə əsas xətt təşkil edirsə, şeirlərində və rəsm əsərlərində də insan duyğularına həssaslıq eyni şəkildə hiss olunur. Məhz bu xüsusiyyət Leyla Əliyevanın ictimai xadim və yaradıcı şəxsiyyət obrazını bir-birini tamamlayan bütöv bir portret kimi təqdim edir.

Hər bir insanın ömür yolu onun gördüyü işlərdə, cəmiyyətə verdiyi töhfələrdə və insanların qəlbində buraxdığı izlərdə əks olunur. Leyla xanım Əliyevanın fəaliyyəti illər ərzində müxtəlif istiqamətlərdə həyata keçirilən təşəbbüslərlə zənginləşərək bir missiyaya çevrilib. Bu missiyanın mərkəzində gələcəyə inam dayanır. Məhz buna görə onun fəaliyyəti ayrı-ayrı layihələrin hüdudlarını aşaraq cəmiyyətə xidmət fəlsəfəsinin ifadəsi kimi qəbul edilir.

*İradə ƏLİYEVA,*
*"Azərbaycan"*

# "Rəqəmsal inkişaf Azərbaycan üçün kompleks strateji prioritetdir"

Xəbər verildiyi kimi, Birinci vitse-prezident Mehriban Əliyevanın sədrliyi ilə Rəqəmsal İnkişaf Şurasının ilk iclası keçirilib. Şura Azərbaycanın regionda rəqəmsal transformasiya və innovasiya sahəsində lider mövqeyini daha da möhkəmləndirməyi hədəfləyir. Dövlət xidmətlərinin tam rəqəmsallaşdırılması, xidmət təminatında innovasiyanın, süni intellektin tətbiq edilməsi ilə vətəndaşlara göstərilən xidmətlər asanlaşacaq, vətəndaş məmnunluğu artacaq və vətəndaş-məmur təması minimuma enəcək.



**Milli Məclisin deputatı Pərvanə VƏLİYEVA** qəzetimizə müsahibəsində bildirib ki, Prezident İlham Əliyevin təsdiq etdiyi "Azərbaycan Respublikasında rəqəmsal inkişafın sürətləndirilməsinə dair 2026-2028-ci illər üçün Fəaliyyət Planı" bu istiqamətdə ölkənin strateji yol xəritəsini müəyyən edir: "Eyni zamanda Azərbaycanda 2025-2028-ci illər üçün "Süni İntellekt Strategiyası" da təsdiq edilib. Həmçinin qanunvericilikdə dəyişikliklər üçün yeni paket hazırlanıb və müəyyən qanunlara dəyişikliklər edilib. Buna nümunə olaraq son dövrlər "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" qanuna edilən mütərəqqi dəyişiklikləri göstərə bilərik".

Deputat qeyd edib ki, dövlət xidmətlərinin rəqəmsallaşma sahəsində əsas yeniliklərindən biri vahid "mygov" ekosisteminin tətbiqidir və bu yanaşma xidmətlərin daha operativ və rahat şəkildə təqdim olunmasını təmin edəcək, həmçinin proaktiv dövlət xidmətlərinin genişləndirilməsi nəticəsində bir sıra xidmətlər vətəndaşın əlavə müraciətinə ehtiyac olmadan avtomatik təqdim olunacaq. "O cümlədən, sürücülük vəsiqəsinin dəyişdirilməsi üçün müraciətin "mygov" üzərindən həyata keçirilməsi, ali təhsil müəssisələrinə qəbul olan şəxslərin qeydiyyatını onlayn tamamlaya bilməsi, azyaşlının ölkəni tərk etməsi üçün razılıq ərizəsinin əldə edilməsi, eləcə də tərcümə sənədlərinin təsdiqi kimi daha bir çox xidmətin artıq "mygov" üzərindən aparıla bilməsi vətəndaşlara operativ və keyfiyyətli xidmətin göstərilməsini və məmnunluğun daha da artırılmasını təmin edir. Qeyd edim ki, bu, həm də ekologiyamıza müsbət təsir edir, kağızdan, nəqliyyatdan istifadə, yol xərcləri xeyli azalır, vaxta qənaət olunur. Artıq evdən, iş yerindən ayrılmadan vətəndaş bir çox problemini rəqəmsal mühitdə həll edə biləcək", - deyə o əlavə edib.

P.Vəliyeva bildirib ki, sahibkarların da rəqəmsal mühitə əlçatanlığı təmin ediləcək, "mygov biznes" platforması onların işlərini asanlaşdıracaq, vahid platforma təklif edəcək ki, bu da səmərəliliyi artıracaq.

Deputat deyib ki, dövlət xidmətlərində süni intellekt əsaslı həllərin tətbiqi, virtual köməkçilərin istifadəsi, milli hesablama infrastrukturunun yaradılması və tənzimləyici test mühitinin formalaşdırılması bu sahədə Azərbaycanın yeni inkişaf mərhələsinə qədəm qoyduğunu göstərir: "Bütün bu proseslər milli maraqların qorunması və məlumat suverenliyinin təmin edilməsi prinsipləri əsasında həyata keçirilir. Milli Kibertəhlükəsizlik Agentliyinin yaradılması, informasiya infrastrukturunun qorunması, süni intellekt əsaslı kibermüdafiə mexanizmlərinin tətbiqi və kibergigiyena üzrə maarifləndirmə tədbirləri Azərbaycanın rəqəmsal təhlükəsizlik sistemini yeni səviyyəyə yüksəldəcək".

Rəqəmsal transformasiyanın mühüm istiqamətlərindən birinin təhsil olduğunu diqqətə çatdıran müsahibimiz qeyd edib ki, yeni nəsil arasında rəqəmsal kompetensiyaların formalaşdırılması, tədris prosesində süni intellekt texnologiyalarının tətbiqi və insan kapitalının gücləndirilməsi gələcəyin rəqabətqabiliyyətli cəmiyyətinin qurulmasına xidmət edir: "Həyata keçirilən islahatlar göstərir ki, Azərbaycan üçün rəqəmsal inkişaf texniki bir məsələ deyil, dövlət idarəçiliyinin modernləşdirilməsi, iqtisadi şaxələndirmə, milli təhlükəsizlik və insan kapitalının inkişafını əhatə edən kompleks strateji prioritetdir".

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# QDİƏT Parlament Assambleyasının 67-ci Baş Assambleyasında süni intellektlə bağlı tövsiyələr qəbul edilib

Qara Dəniz İqtisadi Əməkdaşlıq Parlament Assambleyasının (QDİƏT PA) Gürcüstanda keçirilən 67-ci Baş Assambleyasında "Regional əməkdaşlığın təşviqində süni intellektin rolu: Qara dəniz regionunda innovasiya, əlaqəlilik və davamlı inkişaf" mövzusunda müzakirələr aparılıb.

AZƏRTAC xəbər verir ki, parlament forumunda təşkilata üzv dövlətlərdən 100-dən çox nümayəndə iştirak edib. İştirakçılar regional əməkdaşlıq və iqtisadi inkişafda süni intellektin rolu və əhəmiyyəti barədə fikir mübadiləsi aparıb, müvafiq hesabatları dinləyib və üzv dövlətlərin parlamentləri üçün tövsiyələr qəbul ediblər.

Baş Assambleya çərçivəsində payız sessiyasının təşkilati məsələləri də müzakirə olunub, nümayəndə heyətlərinin tərkibi təsdiqlənib.

QDİƏT Parlament Assambleyasının vitse-prezidenti, Gürcüstan Parlamentinin qurumdakı daimi nümayəndə heyətinin rəhbəri İrakli Mezurnişvili bildirib ki, süni intellekt artıq həyatın ayrılmaz hissəsinə çevrilir. Onun sözlərinə görə, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatına üzv ölkələr logistika və ticarət sahələrində süni intellektdən daha səmərəli istifadə imkanlarını nəzərdən keçirirlər.

"Məqsədimiz süni intellektin imkanlarından elə istifadə etməkdir ki, dövlətlər arasında mövcud əlaqələr daha da möhkəmlənsin və bu, ölkələrin iqtisadi artımına birbaşa töhfə versin", - deyə İrakli Mezurnişvili vurğulayıb.

Qeyd edək ki, parlament forumu Gürcüstanın Şida Kartli bölgəsinin Kaspi bələdiyyəsinin Mepiskalaki kəndində keçirilib.

Tədbirdə Azərbaycanı Milli Məclisin QDİƏT PA-dakı nümayəndə heyətinin rəhbəri, parlamentin Hesablayıcı komissiyasının sədri Eldar Quliyev, nümayəndə heyətinin üzvləri - Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev, deputatlar Kamran Bayramov və Səbinə Salmanova təmsil ediblər.

Azərbaycan nümayəndə heyətinin üzvləri müzakirəyə çıxarılan məsələlərlə bağlı çıxış edərək öz mövqelərini ifadə ediblər.

# Birinci Türkoloji Qurultayın 100 illiyinə həsr olunmuş nəşrlərin təqdimatı olub

**Milli Kitabxanada Birinci Türkoloji Qurultayın 100 illiyinə həsr olunmuş "Türk Dünyası Həftəsi" çərçivəsində "Türk Dünyası Milli Kitabxanaları" İctimai Birliyinin, "Birinci Türkoloji Qurultay: Stenoqrafik hesabat" və "Birinci Türkoloji Qurultay. Biblioqrafiya" kitablarının təqdimat mərasimi keçirilib.**



AZƏRTAC xəbər verir ki, əvvəlcə Dövlət Himni səsləndirilib, Birinci Türkoloji Qurultay iştirakçılarının xatirəsi birdəqiqəlik sükutla yad edilib. Daha sonra qonaqlar "Ortaq irs, zəngin xəzinə: Milli Kitabxananın qızıl fondundan" sərlövhəli geniş kitab sərgisi ilə tanış olublar.

Mərasimdə çıxış edən Milli Kitabxananın direktoru, professor Kərim Tahirov tarixi-etnik köklərlə, eyni dil qrupu, ənənə və dəyərlərlə bir-birinə yaxın olan xalqların vahid ideya birliyi və həmrəyliyi ilə bağlı çoxsaylı nümunələrin olduğunu, türk dövlətləri arasında bütün sahələrdə əməkdaşlıq əlaqələrinin möhkəmlənməsinin böyük perspektivlərdən xəbər verdiyini qeyd edib.

O, 1926-cı ilin fevralında Bakı şəhərində keçirilmiş Birinci Türkoloji Qurultayın türk dilləri, mədəni irsi və elmi əməkdaşlıq perspektivləri üzərində düşünən alimləri geniş şəkildə bir araya topladığını söyləyib, qurultayın tarixi əhəmiyyətindən danışıb. "Birinci Türkoloji Qurultayın 100 illik yubileyi Prezident İlham Əliyevin sərəncamlarına əsasən həm ölkə daxilində, həm də beynəlxalq miqyasda yüksək səviyyədə qeyd edilir. Əhəmiyyətli elmi-təşkilati tədbirlər reallaşdırılır, mövzunun müxtəlif aspektlərini sistemli şəkildə işıqlandıran fundamental tədqiqatlar və elmi nəşrlər meydana çıxır. "Türk Dünyası Milli Kitabxanaları" İctimai Birliyinin yaradılması da Birinci Türkoloji Qurultayın ideyalarının həyata keçirilməsi istiqamətində atılmış mühüm addımlardan biridir", - deyə K.Tahirov əlavə edib.

Mədəniyyət nazirinin müavini Səadət Yusifova ortaq tarixə, mədəniyyətə malik olan türk dövlətlərinin milli kitabxanalarının birliyinin məhz Milli Kitabxanada 2024-cü ilin dekabr ayında təsis edildiyini, birgə ortaq layihələrin həyata keçirilməsi istiqamətində işlərin nəzərdə tutulduğunu diqqətə çatdırıb.

AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli Türk Dünyası Milli Kitabxanaları Birliyinin yaradılmasının Birinci Türkoloji Qurultayın ideyalarının həyata keçirilməsi istiqamətində atılan mühüm addımlardan biri olduğunu, bu təşəbbüsün, eyni zamanda qurultayın müəyyən etdiyi məqsəd və prinsiplərin gələcək mərhələdə təşkilatlanmış şəkildə davam etdirilməsinə xidmət edən mühüm platforma olacağını söyləyib.

Milli Məclisin Elm və təhsil komitəsinin sədri, BDU-nun kafedra müdiri, professor Anar İsgəndərov cəmi 8 gün davam edən möhtəşəm toplantının, əslində, bütöv bir əsrin düşüncə və ideya istiqamətlərinə təsir edən hadisəyə çevrildiyini, XX əsr türkoloji fikir tarixinin ən mühüm elmi hadisələrindən biri kimi qiymətləndirildiyini və ideyalarının türk dünyasında elmi-mədəni inteqrasiyanın inkişafı baxımından aktuallığını qoruyub saxlağını bildirib.

Milli Məclisin deputatı, Mədəniyyət komitəsi sədrinin müavini Günay Əfəndiyeva türk dünyasının son illərdə bir-biri ilə münasibətlərinin, qarşılıqlı səfərlərinin, həmrəyliyinin möhkəmləndiyini, böyük bir gücə çevrildiyini diqqətə çatdırıb.

Bakı Dövlət Universitetinin rektoru Elçin Babayev "Türk Dünyası Həftəsi" çərçivəsində dünyanın müxtəlif ölkələrindən nüfuzlu türkoloq-alimlərin, dövlət, elm və mədəniyyət xadimlərinin iştirakı ilə beynəlxalq konfranslar, konqreslər və zəngin mədəni proqramların təşkil olunduğunu deyib.

"Birinci Türkoloji Qurultay. Stenoqrafik hesabat"ın "Ön söz" müəllifi, Azərbaycanda Atatürk Mərkəzinin direktoru, akademik Nizami Cəfərov nəşrin hazırlanması barədə məlumat verib.

Azərbaycan Dillər Universitetinin rektoru, akademik Kamal Abdulla, AMEA Nəsimi adına Dilçilik İnstitutunun direktoru, professor Nadir Məmmədli, Azərbaycan Dövlət Pedaqoji Universitetinin prorektoru, professor Mahirə Hüseynova, Xalq şairi Sabir Rüstəmxanlı, Türkiyə Milli Kitabxanasının direktoru Taner Beyoğlu, İstanbul Universitetinin professoru Osman Fikri Sertkaya və digərləri son illər türk dövlətləri arasında siyasi dialoq, iqtisadi əlaqələr, elm, təhsil, mədəniyyət və humanitar əməkdaşlığın əhəmiyyətli dərəcədə genişlənməsindən danışıb, həmçinin Birinci Türkoloji Qurultayın 100 illiyinə həsr olunan tədbirlərin ortaq irsin daha dərindən öyrənilməsinə, gələcək nəsillərə çatdırılmasına və türk dünyasında inteqrasiya prosesinin daha da güclənməsinə töhfə verəcəyini söyləyiblər.

Tədbirin davamında "Birinci Türkoloji Qurultay" adlı elektron məlumat bazası təqdim edilib.

Tədbirin sonunda Azərbaycandan və digər ölkələrdən bir qrup alim və mütəxəssisə Mədəniyyət Nazirliyinin təsis etdiyi "Birinci Türkoloji Qurultayın 100 illiyi (1926-2026)" xatirə nişanı təqdim olunub.

# Qarabağ Universitetində "Birinci Türkoloji Qurultayın elmi və mədəni irsi" mövzusunda konfrans təşkil edilib

**Birinci Türkoloji Qurultayın 100 illiyinə həsr olunmuş "Türk Dünyası Həftəsi" çərçivəsində Xankəndidə Qarabağ Universitetində "Birinci Türkoloji Qurultayın elmi və mədəni irsi" mövzusunda konfrans keçirilib.**



AZƏRTAC xəbər verir ki, əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, şəhidlərin əziz xatirəsi birdəqiqəlik sükutla yad edilib.

Açılış mərasimində çıxış edən universitetin rektoru Şahin Bayramov bildirib ki, Qarabağ Universiteti ölkə rəhbərliyinin xüsusi diqqət və qayğısı ilə inkişaf edən ali təhsil müəssisəsidir. Onun sözlərinə görə, universitetin əsas hədəflərindən biri türk dünyasını təmsil edən elmi və təhsil ocaqları ilə əməkdaşlığın genişləndirilməsinə töhfə verməkdir. Rektor qeyd edib ki, bu gün universitetdə keçirilən beynəlxalq tədbirlər həm Qarabağ Universiteti, həm də iştirakçılar üçün yeni elmi və akademik imkanlar yaradır. O vurğulayıb ki, türk dünyası ilə bağlı birgə layihələrin həyata keçirilməsi, ortaq tarix, dil, mədəniyyət və mənəvi dəyərlərin araşdırılması Qarabağ Universitetinin əsas fəaliyyət istiqamətlərindən biri olacaq.

Mədəniyyət nazirinin müavini Fərid Cəfərov bildirib ki, Prezident İlham Əliyev tərəfindən Birinci Türkoloji Qurultayın 100 illiyinin qeyd olunması haqqında imzalanan sərəncam Azərbaycanın uzun illərdir türk birliyinin möhkəmləndirilməsinə verdiyi töhfələrin bariz göstəricisidir. O qeyd edib ki, mədəniyyət dövlətlərarası münasibətlərdə ən mühüm birləşdirici amillərdən biridir və bu sahədə əməkdaşlıq türk dünyasının inteqrasiyasına xidmət edir.

Nazir müavini əlavə edib ki, Qarabağda hazırda genişmiqyaslı və kompleks bərpa-quruculuq layihələri həyata keçirilir. Onun sözlərinə görə, bu proses təkcə yeni infrastrukturun yaradılması ilə məhdudlaşmır, eyni zamanda maddi və mənəvi mədəni irsin, tarixi abidələrin və qədim tariximizin bərpasını və yaşadılmasını hədəfləyir.

Daha sonra Qarabağ Universitetinin Elm şöbəsinin müdiri, dosent Elçin İbrahimovun moderatorluğu ilə panel sessiya keçirilib. Sessiyada Ankara Universitetinin Çağdaş Türk Ləhcələri və Ədəbiyyatları Bölməsinin dosenti Mehmet Rza Heyət, "Ədəbiyyat qəzeti"nin baş redaktoru, tədqiqatçı Azər Turan, AMEA-nın akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunun baş elmi işçisi, professor Solmaz Rüstəmova-Tohidi, eləcə də Rusiya Federasiyası Tatarıstan Elmlər Akademiyasının Tarix İnstitutunun professoru İsmət Zaatov çıxış ediblər.

Panel sessiyada çıxış edən natiqlər Birinci Türkoloji Qurultayın türk dünyasının elmi-mədəni inteqrasiyasında oynadığı tarixi rol, ortaq dil və ədəbiyyatın inkişafı, elmi əməkdaşlıq ənənələrinin formalaşması və bu irsin müasir dövrdə yeni elmi yanaşmalarla yenidən dəyərləndirilməsinin vacibliyi barədə ümumi fikir mübadiləsi aparıblar. Onlar həmçinin türk dövlətləri arasında akademik və mədəni əlaqələrin genişləndirilməsinin əhəmiyyətini vurğulayıblar.

Tədbirin sonunda Azərbaycandan və digər ölkələrdən bir qrup alim və mütəxəssisə Mədəniyyət Nazirliyinin təsis etdiyi "Birinci Türkoloji Qurultayın 100 illiyi (1926-2026)" xatirə nişanı təqdim olunub.

# Milli Tarix Muzeyində Birinci Türkoloji Qurultayın 100 illiyinə həsr olunmuş sərgi açılıb

**İyulun 2-də Milli Azərbaycan Tarixi Muzeyində Birinci Türkoloji Qurultayın 100 illiyinə həsr olunmuş "Bakı. 1926: Dil, Fikir, Birlik" sərgisinin açılış mərasimi keçirilib.**



AZƏRTAC xəbər verir ki, sərgi Milli Azərbaycan Tarixi Muzeyi və Türk Mədəniyyəti və İrsi Fondunun birgə təşkilatçılığı ilə ərsəyə gəlib. Layihənin məqsədi Birinci Türkoloji Qurultayın tarixi əhəmiyyətini, türk xalqlarının ortaq elmi-mədəni irsini və türkologiya elminin inkişaf mərhələlərini geniş ictimaiyyətə təqdim etməkdir.

Tədbiri giriş sözü ilə açan Milli Azərbaycan Tarixi Muzeyinin direktoru, akademik Nailə Vəlixanlı bildirib ki, Birinci Türkoloji Qurultay türk dünyasının elm və mədəniyyət tarixində dönüş nöqtəsi olmaqla yanaşı, türk xalqlarının tarixi, dili, ədəbiyyatı, əlifbası, terminologiyası, toponimikası, etnoqrafiyası və digər sahələr üzrə fundamental məsələlərin elmi əsaslarla araşdırılmasına, gələcək inkişaf istiqamətlərinin müəyyənləşdirilməsinə mühüm zəmin yaradıb.

Alim qeyd edib ki, yüz il əvvəl qurultay iştirakçılarının irəli sürdükləri ideyaların yalnız həmin dövr üçün deyil, bu gün də türk dünyasının mədəni inteqrasiyasının əsas istiqamətlərindən biri olduğu daha aydın görünür. Onun sözlərinə görə, əlifba və orfoqrafiya, terminologiya, tədris və metodika, ortaq ədəbiyyat kimi mühüm məsələlər üzrə qəbul edilən qərarlar və irəli sürülən təkliflər bu gün də öz aktuallığını qoruyur.

Nailə Vəlixanlı vurğulayıb ki, Birinci Türkoloji Qurultayın müəyyən etdiyi məqsədlərin həyata keçirilməsi üçün hazırda daha əlverişli şərait formalaşıb. Türk xalqları arasında möhkəmlənən mədəni və mənəvi birlik həmin ideyaların reallaşdırılması üçün geniş imkanlar açır. O əlavə edib ki, qurultayın tarixi əhəmiyyətini cəmiyyətə çatdıran belə sərgilər zəngin irsin qorunması və gələcək nəsillərə ötürülməsi baxımından mühüm rol oynayır.

Mədəniyyət nazirinin müavini Səadət Yusifova çıxışında qeyd edib ki, 1926-cı ildə Bakıda keçirilən Birinci Türkoloji Qurultay təkcə Azərbaycanın deyil, bütövlükdə türk dünyasının elm və mədəniyyət tarixində mühüm dönüş nöqtəsi olub. Onun sözlərinə görə, qurultay ortaq dil, mədəniyyət və elm sahəsində əməkdaşlığın möhkəmlənməsinə, türkologiya elminin inkişafına mühüm töhfələr verib.

Nazir müavini bildirib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə türk dövlətləri arasında dostluq, qardaşlıq və strateji tərəfdaşlıq münasibətləri ardıcıl şəkildə inkişaf etdirilir, ortaq tarix və mədəni irsin qorunması, təbliği və beynəlxalq səviyyədə tanıdılması dövlət siyasətinin prioritet istiqamətlərindəndir. O vurğulayıb ki, ortaq tarixi yaddaşı yaşadan və xalqlar arasında mədəni bağları möhkəmləndirən bu cür layihələrin həyata keçirilməsi xüsusi əhəmiyyət daşıyır.

Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Aktotı Raimkulova bildirib ki, Birinci Türkoloji Qurultay türk dünyasının intellektual tarixində mühüm mərhələ olmaqla ortaq dil, mədəniyyət və elmi əməkdaşlıq ideyalarının formalaşmasına güclü təkan verib. Onun sözlərinə görə, "Bakı. 1926: Dil, Fikir, Birlik" sərgisi ortaq tarixi yaddaşa və zəngin mədəni irsə ehtiramın ifadəsidir.

Aktotı Raimkulova qeyd edib ki, fond qurultayın 100 illiyi münasibətilə il ərzində bir sıra beynəlxalq layihələr həyata keçirib. Bunlara qurultaya həsr olunmuş fundamental elmi monoqrafiyanın nəşri, beynəlxalq sərgilərin və elmi simpoziumların təşkili, həmçinin maarifləndirici media layihələri daxildir. O vurğulayıb ki, bütün bu təşəbbüslər türk dünyasının ortaq tarixi yaddaşının qorunmasına, zəngin mədəni irsinin təbliğinə, gələcək nəsillərə çatdırılmasına, eləcə də türk dövlətləri arasında elmi və mədəni əməkdaşlığın daha da gücləndirilməsinə xidmət edir.

Sonra iştirakçılar sərgi ilə tanış olublar.

Sərginin ekspozisiyasında türk xalqlarının ortaq mədəni kökləri, XIX-XX əsrlərdə əlifba islahatları, Azərbaycan Xalq Cümhuriyyətinin dil siyasəti, Yeni Türk Əlifbası hərəkatı, 1926-cı il Birinci Türkoloji Qurultayı, 1937-1938-ci illərin repressiyaları, eləcə də müstəqillik dövründə türk dünyasının yenidən inteqrasiyası kimi mühüm tarixi mövzular əksini tapıb.

Ekspozisiyada Milli Azərbaycan Tarixi Muzeyinin və Azərbaycan Respublikası Milli Arxiv İdarəsinin fondlarında qorunan nadir sənədlər, qurultayın rəsmi protokolları və hesabatları, dövri mətbuat nümunələri, həmçinin professor Ədalət Tahirzadənin şəxsi kolleksiyasından fotoşəkillər və digər qiymətli tarixi materiallar nümayiş etdirilir.

Qeyd edək ki, "Bakı. 1926: Dil, Fikir, Birlik" sərgisinin əsas məqsədi türk xalqlarının ortaq elmi və mədəni irsini təbliğ etmək, türkoloji fikir tarixini geniş auditoriyaya çatdırmaqdır.

# "Türk Dünyası Həftəsi"nin iştirakçıları Şuşanın tarixi-mədəni irsi ilə tanış olublar




**Birinci Türkoloji Qurultayın 100 illiyinə həsr olunmuş "Türk Dünyası Həftəsi" çərçivəsində keçirilən "Birinci Türkoloji Qurultay: yüz ilin elmi və mədəni irsi" mövzusunda beynəlxalq konqresin iştirakçıları iyulun 2-də Şuşa şəhəri ilə tanış olublar.**

AZƏRTAC xəbər verir ki, qonaqlar əvvəlcə Şuşa qalasının divarlarını ziyarət ediblər. Burada onlara şəhərin tarixi və qala divarlarının inşası barədə ətraflı məlumat verilib. Bildirilib ki, Qarabağ xanı Pənahəli xan tərəfindən tikdirilən qala uzun illər boyu şəhəri xarici hücumlardan qoruyaraq onun alınmazlıq rəmzinə çevrilib. Şuşa işğaldan azad edildikdən sonra burada genişmiqyaslı bərpa və konservasiya işləri həyata keçirilib.

Daha sonra konqres iştirakçıları Azərbaycanın görkəmli şəxsiyyətləri Xurşidbanu Natəvanın, Bülbülün və Üzeyir Hacıbəylinin güllələnmiş heykəllərinin yerləşdiyi Şuşa şəhərinin mərkəzi meydanını ziyarət ediblər.

Səfər çərçivəsində qonaqlar Xurşidbanu Natəvanın ev-muzeyi, Xan qızı bulağı, Şuşa qalasının Gəncə qapısı ilə də tanış olublar.

Qonaqlara bildirilib ki, Şuşada aparılan genişmiqyaslı bərpa və yenidənqurma işləri şəhərin tarixi-mədəni irsinin qorunması ilə yanaşı, onun beynəlxalq mədəniyyət və elm mərkəzi kimi inkişafına da xidmət edir.

# Türk dünyası nəqliyyat dəhlizləri vasitəsilə Avrasiyada yeni bağlantı arxitekturası formalaşdırır

**"Birinci Türkoloji Qurultayın 100 illiyinin yenidən Azərbaycanda keçirilməsi və bu təşəbbüsün Prezident İlham Əliyev tərəfindən irəli sürülməsi olduqca mühüm əhəmiyyət daşıyır və regiona ciddi mesaj verir".**

Bu fikirləri AZƏRTAC-a açıqlamasında türk siyasi şərhçi Emre Diner səsləndirib.

Onun sözlərinə görə, bu təşəbbüs yalnız mədəni xarakterli yubiley tədbiri deyil, bundan daha geniş məna daşıyan strateji addımdır. Belə bir qurultayın keçirilməsi, əslində, türk dünyasının ortaq yaddaşının, ortaq dilinin və strateji inteqrasiya axtarışının simvolik mərkəzinin yenidən Bakıya daşınması deməkdir. Xatırladaq ki, 1926-cı ildə keçirilən Birinci Türkoloji Qurultay türk xalqlarının dili, tarixi, ədəbiyyatı və mədəniyyəti ilə bağlı ortaq qərarların qəbul olunduğu tarixi dönüş nöqtəsi idi. Bir əsr sonra Prezident İlham Əliyevin təşəbbüsü ilə bu yubileyin Azərbaycanda qeyd edilməsi həmin zəngin irsi müasir geosiyasi reallıqlarla əlaqələndirir.

"Azərbaycan Türkiyə ilə birlikdə türk dünyasının mədəni və diplomatik sütunlarından biri kimi öz təsisçi rolunu daha da möhkəmləndirir. Bu strateji yanaşma Şuşa Bəyannaməsinin ruhuna tam uyğundur və Türkiyə-Azərbaycan strateji tərəfdaşlığını təkcə müdafiə və enerji sahələrində deyil, dil, təhsil, mədəniyyət, media və akademik əməkdaşlıq istiqamətlərində daha da dərinləşdirir. Bu təşəbbüsün konkret nəticələri baxımından dörd əsas amil xüsusi ön plana çıxır.

Birincisi, ortaq əlifba prosesi daha da sürətlənəcək. Türk Dövlətləri Təşkilatı çərçivəsində 34 hərfdən ibarət Ortaq Türk Əlifbası üzrə əldə olunmuş razılıq Birinci Türkoloji Qurultayın irsi ilə birləşərək təhsil materiallarının hazırlanması, ortaq nəşrlərin, rəqəmsal arxivlərin yaradılması və türk dilləri arasında qarşılıqlı anlaşmanın gücləndirilməsi üçün möhkəm zəmin formalaşdıracaq. İkincisi, ortaq türk kimliyi artıq yalnız nəzəri anlayış olmaqdan çıxaraq institusional layihəyə çevriləcək. Ortaq tarix dərsliklərinin hazırlanması, Türkologiya institutlarının şəbəkəsinin yaradılması, tələbə mübadilə proqramlarının genişləndirilməsi, ortaq media platformalarının və mədəniyyət festivallarının təşkili bu baxışın praktik həyata keçirilməsi üçün mühüm vasitələr olacaq.

Üçüncüsü, Türk Dövlətləri Təşkilatının geosiyasi çəkisi daha da artacaq. Türk dünyası Anadolu, Qafqaz, Xəzər hövzəsi və Mərkəzi Asiyanı əhatə edən enerji və nəqliyyat dəhlizləri vasitəsilə Avrasiyada yeni bağlantı arxitekturası formalaşdırır. Bakıda atılan bu simvolik addım Orta dəhliz, enerji təhlükəsizliyi, nəqliyyat və müdafiə sənayesi sahəsində əməkdaşlıqla birlikdə qiymətləndirildikdə göstərir ki, mədəni inteqrasiya strateji inteqrasiyanı tamamlayan mühüm amildir.

Dördüncüsü isə, bu məsələ Türk Dövlətləri Təşkilatı üçün xüsusi əhəmiyyət kəsb edir. Dəyişən beynəlxalq münasibətlər sistemində türk dünyasının vahid mövqedən çıxış etməsi üçün ortaq anlayışlara, ortaq tarixi yaddaşa və ortaq diplomatik dilə ehtiyac var. ABŞ-Çin rəqabəti, Rusiya-Ukrayna müharibəsi, İran istiqamətində davam edən gərginlik və Avropanın yeni təhlükəsizlik axtarışları fonunda türk dövlətlərinin birlikdə hərəkət etməsi strateji zərurətə çevrilir. Prezident İlham Əliyevin evsahibliyi ilə keçirilən qurultay da ortaq iradənin daha da güclənməsinə xidmət edir", - deyə türk siyasi şərhçi vurğulayıb.

Türkiyənin bu prosesdəki roluna toxunan Emre Diner bildirib ki, Ankara akademik potensialı, media imkanları, diplomatik şəbəkəsi, müdafiə sənayesi, təhsil infrastrukturu və türk dilinin daşıyıcısı kimi bu prosesin əsas aparıcı ölkələrindən biri ola bilər. "Lakin Türkiyənin rolu mərkəzdən idarə edən deyil, bərabərhüquqlu tərəfdaşlıq əsasında koordinasiya yaradan model kimi formalaşmalıdır. Ankara-Bakı xətti bu strateji baxışın əsas hərəkətverici qüvvəsinə çevrilə bilər. Qazaxıstan, Özbəkistan, Qırğızıstan və Türkmənistanın da fəal iştirakı ilə bu proses real mənada vahid iürk dünyası memarlığının formalaşmasına gətirib çıxara bilər. I Türkoloji Qurultayın 100 illiyinin Azərbaycanda qeyd olunması keçmişin türkologiya irsini gələcəyin türk geosiyasəti ilə birləşdirən strateji təşəbbüsdür. Bakının yenidən bu prosesin mərkəzi kimi seçilməsi təsadüfi deyil. Bu, Azərbaycanın həm iürk dünyasının mədəni yaddaşındakı yerinin, həm də Avrasiya geosiyasətindəki artan rolunun ən aydın göstəricilərindən biridir", - deyə Emre Diner bildirib.



# Vətən deyəndə...



● Zəfər zirvəsini fəth edənlər

# Müharibənin 41-ci günü yaralandı



**27 sentyabr 2020-ci ildə erməni işğalçılarının təxribatı nəticəsində İkinci Qarabağ müharibəsi başlayanda ürəyi Vətən eşqi ilə döyünən cəsur oğullar könüllü olaraq torpaqlarımızın müdafiəsinə yollandılar. Belə oğullarımızdan biri də üzündən igidlik yağan Hüseynağa Osmanovdur.**

Söhbət zamanı öyrəndik ki, o, 3 aprel 1990-cı ildə Şamaxı rayonunun Qaravəlli kəndində dünyaya göz açıb. Bakı şəhərindəki 18 nömrəli orta məktəbdə oxuyub. Orta təhsilini başa vurandan sonra Türkiyədəki Mustafa Kamal Atatürk adına Dövlət Universitetinə qəbul olunub. Ali təhsilini bitirdikdən sonra ordu sıralarına çağırılıb. Vətən qarşısındakı övladlıq borcunu layiqincə yerinə yetirdikdən sonra Kiyev Dövlət Universitetində magistr təhsili alıb.

Qarabağın azadlığı uğrunda müharibənin başladığını eşidən Hüseynağa əlindəki vacib işlərini bir tərəfə qoyub, "Vətən bizi çağırır" - deyərək qeydiyyatda olduğu Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Şamaxı Rayon İdarəsinə müraciət edib. Sənədləşmə işləri yekunlaşandan sonra Hüseynağa artıq ertəsi gün Goranboy istiqamətindəki hərbi hissələrdən birində olub.

Həmin günləri xatırlayan H.Osmanov dedi ki, torpaqlarımızın uzun illərdən bəri erməni işğalçılarının tapdağında qalması onu çox narahat edirdi: "Hələ orta məktəbdə oxuduğum illərdən Qarabağ müharibəsinin, dünyanı sarsıdan Xocalı faciəsinin ağrı-acılarını eşidə-eşidə böyüyürdük. Ürəyimizə bu qanlı hadisələri törədən düşmənlərə qarşı qısas hiss dolurdu. Vətən eşqi ilə döyünən hər kəs yurdumuzun azadlığı uğrunda vuruşmalıydı. Bunu bizdən vətənə övladlıq borcu tələb edirdi. Həmin günlərdə vətənin əsgəri kimi özümü döyüşə hazır hiss edirdim. Sentyabrın 29-da hərbi hissəyə gəlib çatdıq. Artıq müharibənin iki addımlığındaydım. Hərbi hissədə könüllülər çox idi. Müharibəyə gələnlər elə bu atəş səsləri altında qəbul edilir və qısa zaman ərzində ardıcıllıqla döyüşən hərbi hissələrə göndərilirdi. Çox keçmədi ki, bizi Ağdam rayonuna istiqamətləndirdilər. Cəbhə xəttinə yaxınlaşdıqca, atəş səsləri daha da gur eşidilirdi. Hiss olunurdu ki, ön mövqelərdə gərgin döyüşlər gedir".

Söhbətinə davam edən Hüseynağa dedi ki, xeyli yol gəlib Ağdamın cəbhə xəttinə yaxın olan kəndlərindən birinə çatdılar: "Bizi burada yüksəkrütbəli bir zabit qarşıladı. Əsgərlərlə yaxından tanış olub, hansı ixtisas sahibi olduqlarımızı soruşdu. Mənim snayperçi olduğumu eşidəndə silahla bağlı bəzi suallar verdi. Sonra bizi təlim mərkəzinə göndərdilər. Bir neçə gün təlim keçib atış vərdişlərimizi təkmilləşdirdik. Artıq erməni işğalçıları ilə döyüşə hazır idik. Oktyabrın 1-də böyük qüvvə ilə Suqovuşanın azadlığı uğrunda əməliyyata başladıq. Yüksəklikdə dayanmış düşmən əsgərlərinin bir neçəsini məhv etdik. Hərəkətlərindən hiss olunurdu ki, qəsbkarlar qüvvələrimizin cəmləşdiyi ərazinin koordinatlarını qərargahlarına ötürməyə çalışırlar. Ona görə də bu yağıları görən kimi atəş açdım. Atdığımız güllələr, mərmilər hədəfinə düz çatırdı. Onu da deyim ki, ermənilər döyüşlərdə ən müasir silahlardan istifadə edirdilər. Bütün bunlar isə onlara bəzi üstünlüklər verirdi.

Suqovuşan uğrunda gedən döyüşlər zamanı düşmən mövqelərini dağıtmaq üçün xeyli mərmidən istifadə olundu. Havadan və yerdən açılan atəşdən sonra məqsədimizə çatdıq. İşğalçılara məğlubiyyət acısını dadızdırırdıq".

Bu anlarda Hüseynağa yaxın qohumunun döyüşdə şəhid olduğunu kədər hissi ilə xatırladı: "Bibim oğlu Firuz Hacılını da ilk günlərdən müharibəyə çağırmışdılar. O, diş həkimi idi. Ali təhsilini Ukraynada almışdı, magistraturanı da İngiltərədə bitirmişdi. Şəhərdə klinikası var idi. Ordu sıralarına çağırıldığına görə klinikanı bağlayıb döyüşə gəlmişdi. Zəng edib onunla əlaqə saxladım. Hansı tərəfdə döyüşdüyü ilə maraqlandım. Bibim oğlu dedi ki, onları Füzuliyə aparırlar. Ona uğurlar arzulayıb sağollaşdım. Həm əməliyyatlarda iştirak etdiyimə, həm də yaralandığıma görə sonrakı günlər onunla əlaqə saxlaya bilmədim. Müharibə qələbə ilə başa çatandan, evə qayıdandan sonra Firuzun şəhid olduğunu eşitdim. Onun ölümü məni çox sarsıtdı".

Hüseynağa yanağına süzülmüş göz yaşını silərək sözünə davam etdi: "Suqovuşan istiqamətindəki mövqelərini əvvəlcədən möhkəmləndirdiklərinə görə, qəsbkarlar zənn edirdilər ki, Azərbaycan əsgəri bu yerlərə gəlib çıxa bilməyəcək. Amma biz igidliyimizlə, cəsarətimizlə düşmənin ehtimallarının altını üstünə çevirdik. Güclü əkshücumlarımızla onları mövqelərindən də, əlverişli yüksəkliklərdən də qovub çıxardıq. Yüksək hazırlıqlarına baxmayaraq, düşmənə qalib gələrək Suqovuşanı azad etdik, bu gözəl məkanda Zəfər bayrağımızı dalğalandırdıq".

Altı gün Suqovuşan uğrunda vuruşandan sonra Hüseynağagili Ağdərə istiqamətində gedən döyüşlərə cəlb edirlər. O günləri xatırlayan cəsur əsgər bildirdi: "Yalnız Suqovuşanda deyil, bütün istiqamətlərdə gərgin döyüşlər gedirdi. Azadlığı uğrunda döyüşməyə gəldiyimiz Ağdərədə də silahlar gurlayırdı. İllərdən bəri susan silahların hamısı indi dilə gəlmişdi. Ağdərəyə çatan kimi də öhdəmizə düşən bir sıra zəruri tapşırıqları yerinə yetirdik. Düşmənin illərdən bəri yerləşdiyi və möhkəmləndiyi "Baboy" adlanan postu uğrunda döyüş olduqca gərgin keçdi. Bu mövqe çox əlverişli istiqamətdə yerləşdiyinə görə yağılar onu əldən vermək istəmirdilər. Amma biz qəsbkarların ciddi müqavimətinə baxmayaraq, nəyin bahasına olursa-olsun, qarşımıza qoyulan döyüş tapşırığını icra etmək əzmindəydik. Nəhayət, uğurla başa çatan əməliyyatdan sonra qəsbkarlar xeyli canlı qüvvə itirərək geri çəkilməyə məcbur oldular. "Baboy" postunu azad etdiyimizə görə komandanlıq tərəfindən bizə təşəkkür elan olundu, mükafat verildi".

Hüseynağa Osmanov sözünə davam edərək dedi ki, iyirmi gün Ağdərədə zəruri tapşırıqları yerinə yetirdikdən sonra bizi Xocavəndə, Qırmızı Bazar istiqamətinə gətirdilər: "Burada da yurdumuzun azadlığı uğrunda qızğın döyüşlər gedirdi. Ərazini yaxşı tanıyan zabit və əsgərlər deyirdilər ki, musiqi beşiyimiz olan Şuşaya az qalıb. Çoxdan idi ki, bu müqəddəs məkan uğrunda vuruşmaq arzusundaydım".

Hüseynağa noyabrın 7-də növbəti əməliyyatların birində üzərinə düşən döyüş tapşırığını yerinə yetirərkən yaralandı. Həmin əməliyyatdan söz açan cəsur döyüşçü dedi: "Qırmızı Bazar istiqamətində əməliyyatlarımız bir an da olsun səngimirdi. Əlverişli mövqedə dayanan işğalçılar geri çəkilmirdilər. Bizimsə bir yerdə dayanıb qalmaq fikrimiz yox idi. Çünki qarşıda bizi Şuşa uğrunda döyüşlər gözləyirdi. Noyabrın 7-də taborun dayaq məntəqəsindən xeyli irəlidə dağıdılmış üçmərəbəli bir tikilinin sonuncu mərtəbəsində dayanıb snayperi döyüş vəziyyətinə gətirərək düşmən mövqelərində müşahidə aparırdım. Hücum qrupumuz dayandığım yerdən bir az arxada döyüş əmri gözləyirdi. Hədəflər müəyyənləşən kimi hücuma keçəcəydik. Mövqe tutub dayandığım yer düşmən üçün açıq hədəf idi. Başımın üstündə istənilən an qəsbkarların gülləsinə tuş gəlmək təhlükəsi dolaşırdı. Buna görə də özümü qorumalı, yerimi görünməz etməliydim. Bu dar məqamda ətrafıma baxdım ki, görüm güllə keçirməyən nə tapa bilərəm. Əvvəlki əməliyyatlarda düşmənin bir piyada döyüş maşını vurulmuşdu. Güclü zərbə nəticəsində zirehli texnikanın arxasındakı desant qapısının qapağı çıxıb yerə düşmüşdü. Onun da çəkisi haradasa yetmiş kiloqram olardı. Ağır olsa da, həmin qapağı üçüncü mərtəbəyə qaldırıb arxasında özümə etibarlı yer düzəltdim və müşahidələrimi davam etdirdim, lazımi məlumatları komandirə çatdırdım.

Müharibənin ilk günlərində əməliyyatların gərginliyini görəndə düşünürdüm ki, yəqin, mən də döyüşlərdə şəhid olacam. Amma günlər keçdikcə hər şey gərginlikdən çıxıb adiləşirdi. Əminlik hissi ilə düşünürdüm ki, mən nə yaralanacağam, nə də şəhid olacağam. Ermənilər dayandığım yeri yox, arxa tərəfləri minaatandan vururdular. Deyəsən, işğalçılar qrupun yerini müəyyənləşdirmişdilər. Müşahidə apardığım vaxt başımın üstündə mərmi səsi eşitdim. Bir an içində qəlpələr məni haqladı. Geri çəkilməyə, harasa addım atmağa zaman yox idi. İsti-isti qəlpələrin bədənimə dəydiyini hiss eləmədim. Dayandığım yerdə yıxılıb qaldım. Qrupumuzun döyüşçüləri məni bir neçə saatdan sonra tapdılar. Qəlpələr daha çox başımdan dəymişdi. Qəribə bir vəziyyətə düşmüşdüm. Ətrafımdakı səsləri eşidirdim, döyüşçü yoldaşlarımı görürdüm, amma nə qədər çalışsam da danışa bilmirdim, səsim çıxmırdı. Gözümü güclə açırdım, ətrafı tor kimi görürdüm. Fikirləşirdim ki, bəlkə şəhid olmuşam..."

Hüseynağanı əvvəlcə Göyçay rayonuna, sonra isə Bakıya, Müdafiə Nazirliyinin Baş Klinik Hospitalına gətiriblər. Yaralarını əməliyyat ediblər. Amma həssas yerdə olduğuna görə həkimlər qəlpələri başından çıxara bilməyiblər. Cəsur döyüşçü bu qəlpələri Qarabağ müharibəsindən yadigar kimi başında gəzdirir. Əməliyyatdan sonra özünə gələndə Hüseynağa şanlı Azərbaycan Ordusunun Müzəffər Ali Baş Komandanı İlham Əliyevin sərkərdəliyi altında Qarabağı işğaldan azad etdiyini, Ermənistan silahlı qüvvələrinin darmadağın olunduğunu eşidib. Bu xəbərə çox sevinən Hüseynağa, Şuşa uğrunda döyüşə bilmədiyinə təəssüflənib.

İkinci Qarabağ müharibəsində göstərdiyi igidliyə görə Hüseynağa Əziz oğlu Osmanov Prezident İlham Əliyevin müvafiq sərəncamları ilə "Azərbaycan Bayrağı" ordeni, "Ağdamın azad olunmasına görə", "Suqovuşanın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Cəsur döyüşçü" medallarına layiq görülüb.

Hüseynağa Osmanov ikinci qrup Qarabağ əlili olsa da, bu gün əmək fəaliyyətini davam etdirir, hamı ilə çiyin-çiyinə çalışır. İş adamı kimi ölkəmizin quruculuğunda yaxından iştirak edir.

*Vahid MƏHƏRRƏMOV,*
*"Azərbaycan"*

● Tarix yazan oğullar

# Zabit kimi Qarabağa ezamiyyətə getdi, şəhid Milli Qəhrəman kimi geri döndü



**Ötən əsrin 80-ci illərinin sonlarında erməni separatçılarının işğalçılıq hücumları ilə başlayan Qarabağ müharibəsi zaman keçdikcə daha da böyüməyə və qanlı xarakter almağa başladı. Xaricdəki havadarlarının köməyi ilə təpədən-dırnağadək silahlanmış ermənilər tez-tez Qarabağın azərbaycanlılar yaşayan kəndlərinə hücum edir, evləri yandırır, bu yerlərin əbədi-əzəli sakinlərini böyük amansızlıqla qətlə yetirir, doğma ocaqlarından qovurdular.**

Erməni işğalçılarının hücumları nəticəsində alovlanan müharibənin davam etdiyi günlərdə keçmiş ittifaq ordusunda xidmət edən azərbaycanlı zabitlər Qarabağ uğrunda vuruşmaq üçün geriyə, doğma vətənlərinə qayıdırdılar. Onlardan biri də Cəlil Əziz oğlu Səfərov idi. Ürəyi Vətən eşqi ilə döyünən gənc zabit xalqının köməyinə, Qarabağın xilasına gəlmişdi.

Cəlil Səfərovun döyüş yolundan söhbət açmazdan əvvəl onun ömür yolunu vərəqlədik. Öyrəndik ki, o, 28 yanvar 1962-ci ildə Gürcüstanın Marneuli rayonunun Lejbəddin kəndində dünyaya göz açıb. Bir neçə ildən sonra ailə vəziyyətilə əlaqədar Sumqayıta köçməli olublar. Gələcək talelərini gənclər şəhərinə bağlayıblar.

Cəlil Səfərov hələ kiçik yaşlarından hərbçi olmaq istəyirdi. O arzusuna çatmaq üçün 1977-ci ildə C.Naxçıvanski adına Hərbi Liseyə üz tutdu. Hazırlığı yüksək olduğuna görə Cəlilin ilk addımı uğurlu oldu. Hərbi liseyə qəbul edildi.

C.Səfərov 1980-ci ildə C.Naxçıvanski adına Hərbi Liseyi yüksək göstəricilərlə başa vurdu. Ali hərbi təhsil almaq üçün Vladiqafqaz Hərbi Raket - Zenit Komandirləri Məktəbinə qəbul olundu. Dörd il burada döyüş texnikalarının və silahların taktiki-texniki xüsusiyyətlərini öyrəndi, zenit-raket qurğularının atış qaydalarını mükəmməl mənimsədi. 1984-cü ildə leytenant hərbi rütbəsi aldı. Cəlil illərdən bəri ürəyində gəzdirdiyi arzusuna çatıb, istəyinə yetişdi. Onu Qazaxıstanın Prioyorsk və Balxaş şəhərlərində yerləşən hərbi hissələrdə xidmətə göndərdilər. Leytenant qısa müddət ərzində nümunəvi xidməti ilə həm komandir heyətinin, həm də tabeliyində olan əsgərlərin hörmətini qazandı.

1992-ci il. Artıq 8 il idi ki, Cəlil Səfərov Qazaxıstanda xidmət edirdi. Qarabağda başlatdıqları müharibənin səs-sorağı onun xidmət etdiyi hərbi hissəyə də gəlib çatmışdı. Başqa yerlərdə olduğu kimi, Cəlilin də xidmət etdiyi hərbi hissədə vəziyyət dəyişmişdi. Əvvəlki illərdə hökm sürən ciddi nizam-intizam pozulmuşdu. Milli məsələlərin qabardılması ucbatından tez-tez hərbçilər arasında söz-söhbət, dava-dalaş düşürdü.

Erməni hücumları nəticəsində Qarabağda başlayan müharibə Vətən övladı kimi Cəlili çox narahat edirdi. Ürəyində, qəlbində dolaşan vərənpərvərlik hissi onu doğma ocaqlara çəkirdi. O, yaxşı bilirdi ki, Azərbaycanda yenicə yaranmağa başlayan ordunun peşəkar zabitlərə ehtiyacı var. Ona görə də tezliklə Vətənə dönməyə qərar verdi. Müdafiə Nazirliyində Cəlil Səfərovun təcrübəli və peşəkar zabit olduğunu nəzərə alaraq onu nazirlikdəki mühüm idarələrdən birinə baş zabit vəzifəsinə təyin etdilər. Milli ordumuzun sıralarında xidmətə başlayandan bir müddət sonra C.Səfərov Qarabağa ezamiyyətə göndərildi. Cəbhə bölgələrini addım-addım gəzərək vəziyyəti yerində öyrəndi. Döyüşçülərə müvafiq tapşırıq və məsləhətlər verdi.

Kapitan Cəlil Səfərovun Qarabağa növbəti ezamiyyəti Şuşanın işğalı ərəfəsində oldu. Həmin günlər vəziyyət çox gərgin idi, qanlı döyüşlər səngimək bilmirdi. Şuşanı ələ keçirən ermənilər hücumlarını üzü Laçına tərəf davam etdirirdilər. Artıq döyüşlər Şuşanın Turşsu və Zarıslı kəndləri istiqamətində gedirdi. Ezamiyyət müddəti başa çatsa da, o geri qayıtmadı. Döyüşçüləri çətin vəziyyətdə qoyub geri dönməyi zabit şərəfinə sıxışdırmadı. Qəsbkarlara qarşı cəsarətlə döyüşdü. Hücuma keçən düşmənin döyüş texnikalarının və canlı qüvvəsinin artilleriya atəşləri ilə vurulmasına başçılıq etdi. Erməni işğalçılarının hücumları nəticəsində doğma ocaqlarından didərgin düşmüş dinc sakinlərin təhlükəsiz yerlərə köçürülməsinə şərait yaratdı. Çox təəssüflər olsun ki, cəsur zabit növbəti döyüşlərdə düşmən atəşinin hədəfinə tuş gəldi. Müdafiəsinə atıldığı Qarabağ torpaqları uğrunda son nəfəsinədək vuruşaraq şəhid oldu. Doğmalarının, yaxınlarının iştirakı ilə Şəhidlər xiyabanında dəfn edildi.

Gənc zabitin Qarabağ müharibəsində erməni işğalçılarına qarşı göstərdiyi qəhrəmanlığı layiqincə qiymətləndirilib. Cəlil Əziz oğlu Səfərova ölümündən sonra Azərbaycanın Milli Qəhrəmanı fəxri adı verilib.

Bir zamanlar oxuduğu Sumqayıtdakı 10 nömrəli tam orta məktəb indi Azərbaycanın Milli Qəhrəmanı Cəlil Səfərovun adını daşıyır. Təhsil ocağının həyətində qəhrəmanın büstü qoyulub. Büstün qarşısından gül dəstələri heç vaxt əskik olmur. Həm pedaqoji kollektiv, həm də şagirdlər qəhrəmanın xatirəsini həmişə əziz tuturlar. Qəhrəmanın doğulduğu Lejbəddin kəndində də xatirəsini əbədiləşdirmək üçün abidəsi ucaldılıb.

*V.MƏMMƏDQULUOĞLU,*
*"Azərbaycan"*

# Oğullar Vətəni qorumaq üçün doğulur



18 yaşı tamam olmuş gənclər iyulun 1-dən ordu sıralarına yola düşürlər. Sabahın Vətən keşikçiləri hərbi xidmətə böyük həvəslə, yüksək ovqatla gedirlər.

Bu günlər ordu sıralarına yola düşəcək gənclərdən biri də Əbdülcamal Qarayevdir. Üz-gözündən sevinc yağan Əbdülcamal 2005-ci il avqust ayının 11-də İstanbulda dünyaya göz açıb. Bakıdakı 189-190 nömrəli orta məktəbdə oxuyub. Həmişə dərslərindən yüksək qiymətlər alan Əbdülcamal 2022-ci ildə orta təhsilini başa vurduqdan sonra Azərbaycan Dövlət Pedoqoji Universitetin Fiziki tərbiyə və çağırışaqədər hazırlıq fakültəsinə qəbul olunub.

Ali təhsilini başa vuran Əbdülcamal artıq Vətən qarşısındakı övladlıq borcunu yerinə yetirmək üçün ordu sıralarına yola düşməyə hazırlaşır. Həmin qürurverici və iftixar dolu günü intizarla gözləyən Əbdülcamal Qarayev dedi ki, Vətənə əsgər olmaq hamımızın müqəddəs borcudur, bu, olduqca şərəfli bir borcdur, çünki Vətənin çağırışıdır: "Vətən qarşısındakı övladlıq borcumu yerinə yetirmək üçün ordu sıralarına yola düşməyimə günlər qalıb. Hərbi forma geyinmək, Vətənə əsgər olmaq çoxdankı arzum idi. Buna görə də böyük sevinc içindəyəm. Əsgər kimi mərdlik məktəbinin sınaqlarından uğurla keçməyə çalışacaq, silahların sirlərinə dərindən yiyələnəcək, daim təcrübə və səriştəmi artıracaq və torpaqlarımızı göz bəbəyim kimi qoruyacağam. Komandirlərin verəcəyi bütün tapşırıqları qüsursuz və vaxtında yerinə yetirərək Vətənə layiqli əsgər olacağam". Sabahımızın əsgərindən eşitdiyimiz bu sözlərdən ürəyimiz qürurla doldu. Əmin olduq ki, bu ovqatla, bu cür əzmkarlıqla ordu sıralarına yola düşən Əbdülcamal Qarayev verdiyi sözə əməl edəcək.

Övladı əsgər getdiyinə görə anası Səadət xanım həm qürurlu, həm də bir az həyəcanlı görünürdü. Dedi ki, oğullar Vətəni qorumaq üçün doğulur: "Oğlumun gedəcəyi yol müqəddəsdir. Çünki bu, atalarımızın, babalarımızın getdiyi yoldur. Mən oğluma çox güvənir və inanıram. Ona görə də əminliklə deyə bilərəm ki, Əbdülcamal nümunəvi xidmətilə doğmalarının başını hərbi xidmətdə də uca edəcək".

*"Azərbaycan"*

# Türkiyədən olan nümayəndələrlə hərbi təhsil sahəsində əməkdaşlığın inkişafı barədə fikir mübadiləsi aparılıb

Milli Müdafiə Universitetinin rektoru general-mayor Gündüz Əbdülov Türkiyənin Milli Müdafiə Universitetinin (MMU) rektorunun müavini general-leytenant Burhan Aktaşın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.



Müdafiə Nazirliyindən AZƏRTAC-a verilən məlumata görə, türkiyəli qonaqları salamlayan general-mayor G.Əbdülov onları ölkəmizdə görməkdən məmnun olduğunu bildirib, Azərbaycan-Türkiyə münasibətlərinin qarşılıqlı inam, etimad və dostluq münasibətlərinə əsaslandığını qeyd edib. O, Azərbaycanda hərbi təhsil sistemində həyata keçirilən islahatlar və onun müsbət nəticələrindən danışıb, beynəlxalq təcrübə nəzərə alınmaqla tətbiq edilən yeniliklər barədə nümayəndə heyətinə ətraflı məlumat verib.

General-leytenant B. Aktaş səmimi münasibətə və qonaqpərvərliyə görə minnətdarlığını bildirib, uzun müddətdən sonra ölkəmizdə səfərdə olmaqdan məmnunluğunu ifadə edib, 26 İyun - Silahlı Qüvvələr Günü münasibətilə təbriklərini çatdırıb. Azərbaycan Ordusunun keçdiyi uğurlu inkişaf yolunun digər ölkələr üçün əsl nümunə olduğunu qeyd edən Türkiyə MMU-nun rektor müavini əməkdaşlığın bundan sonra da "Bir millət, iki dövlət" devizi altında davam etdiriləcəyinə əminliyini bildirib.

Görüşdə hərbi təhsil sahəsində görülən birgə işlərin cari vəziyyəti və inkişaf perspektivləri, hərbi qulluqçuların bilik və bacarıqlarının artırılması, peşəkar kadr heyətinin hazırlanması, eləcə də təcrübə mübadiləsi baxımından qarşılıqlı səfərlərin vacibliyi diqqətə çatdırılıb, maraq doğuran bir sıra mövzular ətrafında geniş fikir mübadiləsi aparılıb.

General-leytenant B.Aktaş xatirə kitabına ürək sözlərini yazdıqdan sonra qarşılıqlı hədiyyələr təqdim olunub.






# "Meksika ilə oyuna hazır olduğumuzdan əmin deyiləm"

İngiltərə millisinin baş məşqçisi Tomas Tuxel Konqo DR üzərində qazandıqları qələbəni (2:1) dəyərləndirib.

"BBC Sport" alman mütəxəssisin fikirlərini belə çatdırıb: "Bu, mümkün olan ən pis başlanğıc idi. Rəqibin ifasında ilk zərbə və qol... Bundan sonra işlər çətinləşdi. Amma fasilədən sonra oyuna nəzarəti ələ aldıq. Əvəzetmədən oyuna qoşulanların enerjisi sayəsində təzyiqi daha da artırdıq və qalib gəldik. Buna layiq idik, amma çox çalışmalıyıq. Bizdə belə bir düşüncə tərzi olmalıdır: çətinlik yaransa da, səbrimizi və inamımızı itirə bilmərik. Yeri gəlmişkən, o oğlan - Konqonun qapıçısı Lionel Mpasi inanılmaz idi. Meksika ilə oyuna hazır olduğumuzdan əmin deyiləm. Meksikanın bizə qarşı böyük üstünlüyü olacaq. Onlar turnirin əvvəlindən eyni məkanda oynayırlar və onlar artıq yüksəkliyə uyğunlaşıblar. Buna öyrəşmək üçün kifayət qədər vaxtımız yoxdur. Bu bizim üçün böyük bir çatışmazlıqdır və bunun ardınca başqa fəsadların yaranıb-yaranmayacağından əmin deyiləm. Uçuşun rahat keçəcəyini, rahat yata biləcəyimi və ya hotelin yaxınlığında hər hansı bir səs-küy olacağını bilmirəm. Eybi yox, qoy belə olsun. Qarşıda çox həyəcanlı matçımız var. Bu komanda, nəyin bahasına olursa-olsun, hazır olacaq. Fransa və Argentina qədər təsirli görünmürük? İnsanların nə deməsi vecimə deyil. Ola bilsin bu iki komanda favorit, biz isə autsayderik. Amma hazırkı vəziyyətimizdən məmnunuq".

İngiltərə 1/8 finalda Meksika ilə qarşılaşacaq. Görüş iyulun 5-dən 6-na keçən gecə Mexiko şəhərində keçiriləcək. Meksika millisi DÇ-2026-da keçirdiyi dörd oyunun hamısında qalib gəlib, qol buraxmayıb.

## Mundiallar tarixinin ən gec qolu

Belçika millisinin yarımmüdafiəçisi Yuri Tilemans dünya çempionatları tarixinə düşüb. Bu barədə "MisterChip" sosial şəbəkə hesabında məlumat yaılıb.



Tilemans DÇ-2026-nın 1/16 finalında Seneqala qarşı matçın (3:2) 120+5-ci dəqiqəsində penalti zərbəsini yerinə yetirib və fərqlənib. Qolun vurulduğu an 124-cü dəqiqə 43-cü saniyəyə təsadüf edb. Bu, dünya çempionatları tarixində vurulan ən gec qol kimi qeydə alınıb.

Əvvəlki rekordlar belə idi:

*120 dəqiqə 49 saniyə - Abdelmalek Cabu (Əlcəzair) - 2014-cü ildə*
*120 dəqiqə 13 saniyə - Alessandro Del Pyero (İtaliya) - 2006-cı ildə*
*119 dəqiqə 51 saniyə - Ceffri Hörst (İngiltərə) - Almaniya (DÇ-1966-nın finalı);*
*119 dəqiqə 23 saniyə - Devid Platt (İngiltərə) - Belçika (1990).*
*Qeyd edək ki, Belçika millisi 1/8 finalda ABŞ ilə qarşılaşacaq.*

## Zlatko Daliçdən Ronaldo etirafı

Xorvatiya millisinin baş məşqçisi Zlatko Daliç DÇ-2026-nın 1/8 final mərhələsində qarşılaşacaqları Portuqaliya yığması barədə danışıb. Mütəxəssis rəqibin dünyanın ən güclü komandalarından biri olduğunu bildirib.



Daliç Portuqaliya millisinin heyətində Kriştiano Ronaldonu xüsusi fərqləndirib: "Bu, dünyanın ən yaxşı yığmalarından biridir. Onların əla baş məşqçisi var və fantastik iş görür. Bunu əvvəl Belçikada, indi isə Portuqaliyada sübut edib. Onlarda Ronaldo var. O, hər an qol vura bilər. Portuqaliyanın əsas üstünlüyü texniki bacarıq və topa nəzarətdir. Bu komponentdə həqiqətən çox güclüdürlər, çoxlu qol epizodu yarada və daim üstünlüyə sahib olmağa çalışa bilirlər".

## İlk Afrika millisi oldular

Seneqal millisi DÇ-2026-da yeni rekorda imza atıb. Afrika təmsilçisi dünya çempionatları tarixində bir turnirdə 10 qol vuran ilk Afrika millisi olub.



Seneqal qrup mərhələsində İraqı 3:1 hesabı ilə məğlub edib, Norveçə 2:3, Fransaya isə 1:3 hesabı ilə uduzub. Komanda 1/16 finalda Belçikaya 2 qol vuraraq turnirdə vurduğu qolların sayını 10-a çatdırıb. Seneqalın bu 10 qolundan 4-ü İsmaila Sarrın hesabındadır. O, mundiallarda ümumilikdə vurduğu 5 qolla ölkəsinin dünya çempionatları tarixində ən məhsuldar futbolçusu adına sahib çıxıb.

## Yaponiya millisinə yeni baş məşqçi namizədi



Yaponiya millisinin və "Neftçi"nin sabiq yarımmüdafiəçisi Keysuke Honda yığmanın baş məşqçisi vəzifəsinə namizədliyini irəli sürüb. O, bu barədə sosial şəbəkə hesabında paylaşım edib.

Yaponiya yığması 1/16 finalda Braziliyaya 1:2 hesabı ilə uduzaraq DÇ-2026 ilə vidalaşıb. Lakin uğursuzluğa baxmayaraq, baş məşqçi Hadzime Moriyasuya müqavilənin daha bir il uzadılmasının təklif olunduğuna dair məlumatlar yayılıb. Honda isə bu xəbərlərə münasibət bildirib: "Fikirlər fərqli olacaq, amma yenə də bunu demək istəyirəm. Oxudum ki, Hadzime Moriyasuya müqavilənin bir il uzadılması təklif olunub. Əgər bu, uyğun namizəd tapılmadığı üçün müvəqqəti variantdırsa, onda məni bir il sınayın. Asiya Kubokunda uduzsaq, heç bir müzakirə aparmadan məni istefaya göndərin. Mən millini qəbul etməyə hazıram".

Qeyd edək ki, Honda 2021-ci ildə "Neftçi"nin formasını geyinmişdir.

## Ekvadorda bir eranın sonu

Ekvador millisinin hücumçusu Enner Valensiya yığmadakı karyerasını başa vurub. 35 yaşlı forvard bu qərarı 1/16 finalda Meksikaya 0:2 hesablı məğlubiyyətdən sonra açıqlayıb.



Final fitindən sonra emosiyalarını cilovlaya bilməyən Valensiya meydanda diz çökərək göz yaşlarına hakim ola bilməyib. Təcrübəli futbolçu yığma ilə vidalaşdığını bildirib: "Kədərliyəm, amma eyni zamanda rahatam. Çünki hər zaman Ekvador yığmasına sadiq olmuşam. Bu, millidəki son oyunum idi. Hamı ilə sağollaşdım. Çox qəmli gündür və vidalaşmağımın məhz bu cür olmasını istəməzdim".

Qeyd edək ki, Enner Valensiya 2012-ci ildən Ekvador millisində çıxış edirdi. O, yığmanın heyətində keçirdiyi 109 oyunda 49 qol vurub və 15 məhsuldar ötürmə edib. Hücumçunun aktivində 15 sarı və 2 qırmızı vərəqə də var.

***Hazırladı:***
***Dönməz ABBASOV***



## Konqolu baş məşqçi mətbuat konfransında acı xəbər aldı

Konqo Demokratik Respublikası millisinin baş məşqçisi Sebastyen Dezabr İngiltərəyə 1:2 hesabı ilə uduzduqları 1/16 final oyunundan sonra atasının vəfat etdiyini öyrənib.

Bu barədə qarşılaşmadan sonra keçirilən mətbuat konfransında ölkə futbol federasiyasının nümayəndəsi məlumat verib. Bu zaman Sebastyen Dezabr özü də konfransda olub. "Baş məşqçimiz atasını itirib. Ona və ailəsinə dərin hüznlə başsağlığı veririk", - deyə federasiya rəsmisi bildirib.

## Oyunun ən yaxşısı odur

1/16 finalda keçirilən ABŞ - Bosniya və Herseqovina matçının (2:0) ən yaxşı oyunçusu müəyyənləşib. FIFA-nın rəsmi saytı xəbər verir ki, bu, ABŞ yığmasının yarımmüdafiəçisi Malik Tillman olub.



O, görüşün 82-ci dəqiqəsində fərqlənərək komandasının qələbəsində böyük pay sahibi olub. "Bayer Leverkuzen"ə məxsus olan 24 yaşlı futbolçu 2022-ci ildən ABŞ millisinin üzvüdür.

## Platinidən Olise-Mbappe cütlüyünə tərif

Fransa millisinin sabiq kapitanı Mişel Platini yığmanın yarımmüdafiəçisi Maykl Olise barədə fikirlərini bölüşüb. Platini futbolçunun Didye Deşamın taktiki sistemindəki rolunu yüksək qiymətləndirib.



O, Olisenin klassik "10 nömrə" keyfiyyətlərinə sahib olduğunu bildirib: "Maykl Olise əvvəlki dövrlərdəki kimi "10 nömrə" olmaq üçün bütün keyfiyyətlərə sahibdir. Müasir futbolda yaradıcı futbolçular daha çox cinahlarda yerləşdirilir. Klubunda Olise sağ cinahda oynayır, Lamine Yamal da bu cür ötürmələr edə bilir. Amma Didye Deşam futbolçularının keyfiyyətlərinə uyğunlaşmağı bacardı və yenidən "10 nömrə" ilə oynayan məşqçi oldu".

Platini Olise ilə Kilian Mbappe arasındakı anlaşmanı da xüsusi qeyd edib: "Onlar Olisenin nə görəcəyini bilirlər. Mbappe Olisenin topu hara ötürəcəyini yaxşı anlayır, çünki eyni futbol dilində danışırlar. Bu, futbolçuların oyun zəkasıdır. Olise də bilir ki, tərəfdaşları onun fikrini oxuyur. Bu əlaqəni artıq çox görmürdük və Olise onu yenidən üzə çıxaran azsaylı futbolçulardan biridir".

Qeyd edək ki, Olise ötən mövsüm "Bavariya"nın heyətində 57 oyunda 25 qol vurub və 28 məhsuldar ötürmə edib. O, Münhen klubu ilə Bundesliqa və Almaniya Kubokunu qazanıb.

## "Vinçentso Montellanın yerində olsaydım, istefa verərdim"



"Vinçentso Montellanın dünya çempionatı zamanı etdiyi dəyişikliklər səhv idi". Bu fikri AZƏRTAC-a açıqlamasında Türkiyə millisinin və "Beşiktaş"ın sabiq futbolçusu Fatih Sonkaya ölkəsinin DÇ-2026-nın qrup mərhələsində mübarizəni dayandırması ilə bağlı danışarkən deyib.

O, Türkiyə millisinə yerli baş məşqçi təyin edilməsinin tərəfdarı olduğunu söyləyib: "Türkiyə millisi 2002-ci ildəki dünya çempionatında Şenol Günəşlə üçüncü oldu. Fatih Terim 2008-ci ildə Avropa çempionatında yarımfinaladək irəlilədi. Bu uğurların hamısı yerli məşqçilərin hesabına başa gəlib", - deyə F. Sonkaya qeyd edib.

Veteran müdafiəçi dünya çempionatındakı favoritini də açıqlayıb: "Hazırkı durumda Fransa millisi kuboku qazanmağa daha yaxın görünür. Onların çox yaxşı heyəti var. Azarkeşlik etdiyim yığma Portuqaliya olsa da, düşünmürəm ki, dünya çempionu olsunlar".

Xatırladaq ki, Portuqaliyada "Portu" komandasının da formasını geyinmiş Fatih Sonkaya yığmanın heyətində 6 matçda meydana çıxıb.



## Mundialda 3 qol vurdu, 50 milyon avroya transfer oldu

"Bayern" PSV və Mərakeş millisinin yarımmüdafiəçisi İsmael Saybarini heyətinə qatıb. Almaniya təmsilçisinin yaydığı məlumata görə, futbolçu ilə 2031-ci ilədək nəzərdə tutulan müqavilə imzalanıb.

Saybari yeni klubunda 34 nömrəli formada çıxış edəcək. Almaniya klubu bu keçid üçün 50 milyon avrosundan keçib. Yarımmüdafiəçi hazırda Mərakeş yığmasının heyətində DÇ-2026-da iştirak edir. O, turnirdə meydana çıxdığı 4 matçda 3 qol vurmağı bacarıb.

## Kabo-Verde Prezidenti iddialı danışdı



Kabo-Verde Prezidenti Joze Mariya Neveş 1/16 finalda Argentina ilə keçiriləcək oyun öncəsi iddialı açıqlama verib. "BBC News Africa" xəbər verir ki, dövlət başçısı komandasının dünya çempionunu məğlub edə biləcəyinə inandığını bildirib.

"Ümid edirəm ki, Kabo-Verde eyni səviyyədə çıxışını davam etdirəcək. Biz dünya çempionatına öz taleyimizi yazmaq və qüvvədə olan dünya çempionu ilə qarşılaşmaq üçün gəlmişik. Argentinaya və Messiyə qarşı da eyni əzmkarlıq və qələbə istəyi ilə meydana çıxacağıq. Futbolçuların 100 faiz inamı, 100 faiz ümidi var və formaları tər içində olacaq. Ona görə də Argentinaya qalib gəlmək üçün 100 faiz şansımız var. Güclü rəqiblərə həm qalib gəlmək, həm də uduzmaq mümkündür. Amma nəticədən asılı olmayaraq, biz qələbə üçün oynayacağıq. Dünya çempionatını başımız dik və missiyamızı yerinə yetirmiş kimi tərk edəcəyik. Hesab edirəm ki, Kabo-Verde Argentinanı 1:0 məğlub edə bilər", - deyə Neveş bildirib.

Qeyd edək ki, Argentina - Kabo-Verde görüşü iyulun 4-nə keçən gecə baş tutacaq. Qalib komanda 1/8 finalda Avstraliya - Misir cütünün qalibi ilə qarşılaşacaq.

## İngilislər 60 illik tilsimi qırdılar

1/16 final mərhələsinin oyunlarından sonra bir sıra maraqlı statistik göstəricilər qeydə alınıb.

FIFA-nın rəsmi saytı xəbər verir ki, İngiltərə millisi 60 ildən sonra dünya çempionatının pley-off mərhələsində hesabda geri düşdüyü oyunda qələbə qazanmağı bacarıb. Yığma ötən gecə Konqonu 2:1 hesabı ilə üstələyib.

Seneqal millisinin hücumçusu İsmaila Sarr isə turnirdə vurduğu 4-cü qolla bir dünya çempionatında afrikalı futbolçular arasında ən yaxşı göstəriciyə şərik çıxıb. O, bununla kamerunlu Rocer Millanın rekordunu təkrarlayıb. Sarr qitənin mundial tarixində ən məhsuldar futbolçusu olan qanalı Asamoa Gyanın rekordunu yeniləmək üçün cəmi bir qola ehtiyacı var.



## Messini təəccübləndirən yoxlama



Argentina millisinin kapitanı Lionel Messi komanda yoldaşları ilə birlikdə Mayamiyə gedərkən ciddi təhlükəsizlik yoxlamasından keçib.

Futbolçular təyyarədən düşən kimi sərhəd və təhlükəsizlik əməkdaşları tərəfindən ətraflı yoxlanılıblar. Messinin mobil telefonu müvəqqəti olaraq götürülüb, çamadandakı əşyalar bir-bir nəzərdən keçirilib, hətta ayaqqabıları da yoxlanılıb. Ulduz futbolçu bütün prosedurlardan keçdikdən sonra baş verənlərə təəccüblə gülərək reaksiya verib.

## Seneqal millisində qalmaqal

**Seneqal millisinin yarımmüdafiəçisi Pap Qeye DÇ-2026-dan sonra müvəqqəti olaraq yığmadan getdiyini açıqlayıb. 27 yaşlı futbolçu hazırkı məşqçilər korpusu dəyişməyənə qədər milli komandaya qayıtmayacağını bildirib.**

**"Hazırkı məşqçilər korpusu komandanın başında olduğu müddətdə milli komandadakı çıxışlarıma fasilə verəcəyəm", - deyə Qeye bildirib. Qeyd edək ki, Seneqal DÇ-2026-nın 1/16 finalında Belçikaya dramatik şəkildə uduzaraq (2:3) mübarizəni dayandırıb. Pap Qeye turnirdə keçirdiyi 4 oyunda 2 qol vurub, 1 məhsuldar ötürmə edib. O, ümumilikdə Seneqal millisinin heyətində 45 matçda 7 qol və 2 assistlə yadda qalıb.**

**Xatırladaq ki, Seneqal millisini 2025-ci ilin martından 45 yaşlı Pape Tiav çalışdırır. Onun rəhbərliyi altında komanda 2026-cı il Afrika Millətlər Kubokunun finalına yüksəlib.**



Maliyyə vəziyyəti haqqında hesabat
31 dekabr 2025_____-ci il tarixə

VÖEN 1 2 0 0 1 3 2 2 1 1

"Şüvəlan Şirniyyat ASC"

Ölçü vahidi: manat

| Bölmə/ Maddə №-si | Bölmə/Maddələrin adı | Hesabat dövrü üzrə | Əvvəlki dövr üzrə |
|---|---|---|---|
| 1 | 2 | 4 | 6 |
| | **AKTİVLƏR** | **1276071.45** | **941240.41** |
| 1 | **Uzunmüddətli aktivlər** | | |
| 10 | Qeyri-maddi aktivlər | | |
| 11 | Torpaq, tikili və avadanlıqlar | 210919.69 | 210919.69 |
| 12 | İnvestisiya mülkiyyəti | | |
| 13 | Bioloji aktivlər | | |
| 14 | Təbii sərvətlər | | |
| 15 | İştirak payı metodu ilə uçota alınmış investisiyalar | | |
| 16 | Təxirə salınmış vergi aktivləri | 102886.96 | 43475.97 |
| 17 | Uzunmüddətli debitor borcları | | |
| 18 | Sair uzunmüddətli maliyyə aktivləri | | |
| 19 | Sair uzunmüddətli aktivlər | | |
| | **CƏMİ UZUNMÜDDƏTLİ AKTİVLƏR** | **313806.65** | **254395.66** |
| 2 | **Qısamüddətli aktivlər** | | |
| 20 | Ehtiyatlar | 495095.80 | 169181.18 |
| 21 | Qısamüddətli debitor borcları | 130001.97 | 213743.44 |
| 22 | Pul vəsaitləri və onların ekvivalentləri | 34456.91 | 26822.72 |
| 23 | Sair qısamüddətli maliyyə aktivləri | 280812.13 | 240646.97 |
| 24 | Sair qısamüddətli aktivlər | 21897.99 | 36450.44 |
| | **CƏMİ QISAMÜDDƏTLİ AKTİVLƏR** | **962264.79** | **686844.75** |
| | **CƏMİ AKTİVLƏR** | **1276071.45** | **941240.41** |
| 1 | 2 | 4 | 6 |
| | **KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | **1276071.45** | **941240.41** |
| 3 | **Kapital** | | |
| 30 | Ödənilmiş nominal(nizamnamə) kapital | 190826 | 190826 |
| 31 | Emissiya gəliri | | |
| 32 | Geri alınmış kapital (səhmlər) | | |
| 33 | Kapital ehtiyatları | | |
| 34 | Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) | 86743.42 | 78103.14 |
| | **CƏMİ KAPİTAL** | **277569.42** | **268929.14** |
| 4 | **Uzunmüddətli öhdəliklər** | | |
| 40 | Uzunmüddətli faiz xərcləri yaradan öhdəliklər | | |
| 41 | Uzunmüddətli qiymətləndirilmiş öhdəliklər | | |
| 42 | Təxirə salınmış vergi öhdəlikləri | | |
| 43 | Uzunmüddətli kreditor borcları | 866507 | 417540.64 |
| 44 | Sair uzunmüddətli öhdəliklər | 69224.76 | 0 |
| | **CƏMİ UZUNMÜDDƏTLİ ÖHDƏLİKLƏR** | **935731.76** | **417540.64** |
| 5 | **Qısamüddətli öhdəliklər** | | |
| 50 | Qısamüddətli faiz xərcləri yaradan öhdəliklər | 62770.27 | 254770.63 |
| 51 | Qısamüddətli qiymətləndirilmiş öhdəliklər | | |
| 52 | Vergi və sair məcburi ödənişlər üzrə öhdəliklər | | |
| 53 | Qısamüddətli kreditor borcları | | |
| 54 | Sair qısamüddətli öhdəliklər | | |
| | **CƏMİ QISAMÜDDƏTLİ ÖHDƏLİKLƏR** | **62770.27** | **254770.63** |
| | **CƏMİ ÖHDƏLİKLƏR** | **998502.03** | **417540.64** |
| | **CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | 1276071.45 | 941240.41 |

Rəhbər
Baş mühasib

# Piyada keçidlərində istismar müddətini başa vurmuş eskalator və liftlər yenilənəcək

Payız aylarında Bakıdakı yerüstü və yeraltı piyada keçidlərində istismar müddətini başa vurmuş eskalator və bəzi liftlər yenilənəcək.

Bakı Şəhər İcra Hakimiyyətinin Mətbuat xidmətindən verilən məlumata görə, artıq Finlandiyanın məşhur "KONE" şirkətinin istehsalı olan yeni, müxtəlif hava şəraitlərinə davamlı olan eskalatorlar sifariş olunub. Hazırda istehsalçı zavod tərəfindən mexanizmlərin individual ölçü və texniki göstəricilərə uyğun istehsalı başlayıb. Bu ilin oktyabr-noyabr aylarından etibarən onların paytaxta gətirilərək mərhələli şəkildə quraşdırılması işlərinə başlanılacaq.

Sakinlərdən daxil olan şikayətlər əsasında paytaxtın müxtəlif ərazilərində yerləşən 46 ünvandakı yerüstü və yeraltı keçiddə ümumilikdə 177 eskalatorun və 2 travelatorun (pilləsiz, gəzinti sürətini artırmaq üçün özü hərəkət edən şaquli yol) yenilənməsi nəzərdə tutulur.





Hazırda Avtomobil Yolları Dövlət Agentliyinin (AAYDA) balansında olan sözügedən eskalator və mexanizmlər yeniləndən sonra Bakı Şəhər İcra Hakimiyyəti tərəfindən balansa qəbul ediləcək.

*"Azərbaycan"*

# Bakıda keçiriləcək cüdo üzrə dünya çempionatının biletləri satışa çıxarılıb

Bakıda təşkil olunacaq cüdo üzrə böyüklər arasında dünya çempionatının biletləri satışa çıxarılıb.




Azərbaycan Cüdo Federasiyasından AZƏRTAC-a bildirilib ki, bununla yanaşı, yarışın rəsmi kommunikasiya kampaniyasına da start verilib və çempionatın əsas vizual konsepsiyası ictimaiyyətə təqdim olunub.

Dünya çempionatının biletlərini iTicket.az platforması vasitəsilə onlayn, eləcə də şəhərin müxtəlif satış məntəqələrindən əldə etmək mümkündür. Turnirdə dünyanın müxtəlif ölkələrindən ən güclü cüdoçuların iştirakı gözlənilir. Qarşıdakı aylarda yarışın proqramı, iştirakçılar, azarkeş zonaları və digər yeniliklərlə bağlı məlumatlar mərhələli şəkildə açıqlanacaq.

Qeyd edək ki, mundial oktyabrın 4-11-də Milli Gimnastika Arenasında keçiriləcək.


# OXUCULARIN VƏ MƏTBUAT YAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

"AZƏRBAYCAN" qəzetinə abunə yazılışı davam edir!

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| "Azərpoçt" MMC | (012) 598-49-55, (051) 225-02-13 |
| "Azərmətbuatyayımı" ASC | (012) 441-19-91, (050) 322-33-17 |
| "Qaya" firması | (012) 566-77-80, (050) 214-40-53 |
| "Region Press" MMC | (055) 316-79-01, (050) 316-79-01 |
| "Səma-M" MMC | (012) 594-09-59 |
| "Ziya" LTD | (012) 497-76-96, (050) 306-77-22 |
| "Pressinform" MMC | (012) 598-49-52, (070) 340-01-00 |
| "City press" MMC | (055) 819-09-26 |

**1 illik -156** (yüz əlli altı) **manat**
**6 aylıq - 78** (yetmiş səkkiz) **manat**
**3 aylıq - 39** (otuz doqquz) **manat**
**1 aylıq - 13** (on üç) **manat**




**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya* ***(Tel.: (012) 539-59-33)*** *zəng vura bilərsiniz.*


# Gəncə XV Beynəlxalq İpək Yolu Festivalına evsahibliyi edir

Azərbaycan Bəstəkarlar İttifaqı və Fikrət Əmirov adına Gəncə Dövlət Filarmoniyasının birgə təşkilatçılığı ilə Gəncədə XV Beynəlxalq İpək Yolu Festivalının təntənəli açılış mərasimi keçirilib.

AZƏRTAC xəbər verir ki, çıxışlarda XV Beynəlxalq İpək Yolu Festivalının müxtəlif xalqların mədəniyyətini və incəsənətini bir araya gətirən, beynəlxalq mədəni əməkdaşlığın inkişafına xidmət edən mühüm layihə olduğu vurğulanıb.



Daha sonra Gəncə Dövlət Filarmoniyasının Xalq Çalğı Alətləri Orkestri, filarmoniyanın solistləri və rəqs kollektivi konsert proqramı ilə çıxış ediblər.

Festivalın beynəlxalq ruhunu əks etdirən konsert proqramında Qırğızıstanın Bişkek şəhərində fəaliyyət göstərən "Seytek" Milli Uşaq və Gənclər Mərkəzinin "Ak-Niyyət" Xalq Xoreoqrafiya Ansamblı maraqlı rəqs nömrəsi ilə tamaşaçıların rəğbətini qazanıblar.

Qeyd edək ki, XV Beynəlxalq İpək Yolu Festivalı növbəti günlərdə də müxtəlif ölkələrin incəsənət kollektivlərinin iştirakı ilə rəngarəng proqramlarla davam edəcək.

## BEYNƏLXALQ HƏYAT

# Rusiyalı ruferlər Nyu Yorkdakı Empire State binasına dırmaşıblar

Moskvalı ekstremal ruferlər Angela Nikolau və İvan Birkus Nyu Yorkdakı ən hündür Empire State binasına dırmaşıblar. Binanın hündürlüyü qülləsi ilə birlikdə 443 metrə çatır. Endikdən sonra onlar yerli polis tərəfindən saxlanılıblar.




Rusiyalı ekstremallar - 33 yaşlı Angela Nikolau və 32 yaşlı İvan Birkus (Kuznetsov) qülləyə "Sevgi hakimiyyət hərisliyindən güclü olduqda dünyaya sülh gəlir" yazılmış bir banner yapışdırıblar. Yerli vaxtla təxminən saat 12:00-da Nikolau göydələnin zirvəsindən canlı yayımı izləmək üçün link paylaşıb. Saat 12:35-də qara banner yapışdırdıqdan sonra onlar bir az aşağıda yerləşən platformaya eniblər. Orada Birkus bir diziüstə çökərək uzun müddətdir sevgilisi olan Nikolauya evlilik təklifi edib. O, nişan üzüyünün şəklini "İnstaqram"da paylaşıb. Evlilik təklifi və öpüşdən sonra cütlük enişlərinə davam edib və saat 13:00-da Nyu York polisi tərəfindən həbs ediliblər. Media mənbələrinə görə, onlar bir sıra ittihamlarla üzləşiblər: qanunsuz giriş, başqalarının həyatını təhlükəyə atmaq, əmlaka qəsdən ziyan vurmaq, yerli qanunları pozmaq, avadanlıqlara müdaxilə etmək, şəxsi mülkə qanunsuz daxil olmaq və asayişi pozmaq.

Moskvada anadan olan Nikolau və Birkus Nyu Yorkda yaşayırlar və 2016-cı ildən bəri görüşürlər. Onların birlikdə ilk "əməliyyat"ı, həmin il Çinin Tianjin şəhərindəki yarımçıq qalmış, təxminən 597 metr hündürlüyündə Goldin Finance 117 göydələninə dırmanmaq olub.

Qeyd edək ki, bu cütlük barədə sənədli film çəkilib. Filmin premyerası 2024-cü ildə Kaliforniyanın Park Siti şəhərində keçirilən Sundance Film Festivalında baş tutub.

# Suriya Prezidenti parlamentin son 70 üzvünü təyin edib

Suriya Ərəb Respublikasının keçid dövrü Prezidenti Əhməd Əl-Şaraa ölkənin yeni parlamentinin son 70 üzvünü təyin edib və bununla da gələn həftə ilk iclasının keçirilməsinə yol açıb.



Yeni üzvlər arasında 15 qadın var. 13 nəfər isə Bəşər Əsədin hakimiyyəti dövründə həbsdə olub. Əl-Şaraa tərəfindən təyin edilən yeni parlamentarilərin neçəsinin dini və etnik azlıqlara mənsub olduğu məlum deyil.

Xatırladaq ki, ötən ilin oktyabr ayında regional seçki kollegiyaları keçid dövründə qanunvericilik işlərinə cavabdeh olacaq Xalq Məclisinin 210 üzvünün üçdəikisini seçmişdir.

Bu təyinatlar nəticəsində qadınlar üçün yalnız 6, azlıqların nümayəndələri üçün isə 10 yer ayrıldığı üçün seçki komissiyasının rəsmiləri Əhməd Əl-Şaraa prezident "kvotası" çərçivəsində parlament üzvlərini təyin etməklə bu balanssızlığın aradan qalxacağını bildiriblər. Suriya Xalq Məclisinə Seçkilər üzrə Ali Komitənin sədri Məhəmməd Taha Əl-Əhməd açıqlayıb ki, prezidentin seçdiyi namizədlər parlamentdə "fədakarlıq səsi ilə təcrübə səsini" bir araya gətirir, Suriya cəmiyyətinin müxtəlif təbəqələrini təmsil edir və milli birliyi gücləndirir. Əlavə edib ki, onların arasında 13 illik vətəndaş müharibəsi zamanı şəhidlərin qohumları, həbsxanadan və kimyəvi hücumlardan sağ çıxanlar, eləcə də akademiklər, ekspertlər, mütəxəssislər, icma liderləri və təcrübələri, dürüstlüyü və ictimai xidmətləri ilə tanınan xadimlər var. "Bu gözəl və mübarək əyalətdə seçkilər üçün şərait yarandıqda, onda seçkilər keçirəcəyik", - deyə Taha Əl-Əhməd sonda bildirib.

Hökumət qüvvələrinin bu ilin əvvəlində kürdlərin rəhbərlik etdiyi Suriya Demokratik Qüvvələrindən (SDF) geri aldığı Rakka və Haseke şimal əyalətlərinin bəzi yerlərində seçkilər 7 ay təxirə salınıb. 20-dən çox kürd partiyası may ayında seçki kollegiyaları tərəfindən təyin edilmiş millət vəkillərini rədd edərək prosesin "təcrid və marginallaşdırmaya əsaslanan yanaşma" nümayiş etdirdiyini bildirib.

Keçən il 14 Suriya vətəndaş cəmiyyəti təşkilatı da Suriyanın seçki sistemini tənqid edərək onu "dərin struktur qüsurlarından əziyyət çəkən" kimi təsvir edib. Onlar bildiriblər ki, Prezidentin Ali Komitənin və seçki kollegiyalarının tərkibinə birbaşa və dolayı təsiri seçkiləri sırf simvolik tədbirə çevirib.

*Rizvan CƏFƏROV,*
*"Azərbaycan"*

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti
539-49-20

## ALLAH RƏHMƏT ELƏSİN!

Əhliman Əmiraslanov Asəf Hacıyevə bacısı
**RAYA XANIMIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

21 saylı Nəsimi-Binəqədi seçki dairəsi dairə seçki komissiyasının sədri Çingiz Dadaşov və kollektivi Mərkəzi Seçki Komissiyası Katibliyinin müdiri İlqar Əlizadəyə anası
**NURLANA ƏLİYEVANIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikası Milli Məclisinin QDİƏTPA-dakı nümayəndə heyəti üzvləri Eldar Quliyev, Eldar İbrahimov, Musa Quliyev, Kamran Bayramov, Mahir Süleymanlı, İlqar Nuri Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Assambleyasının Baş Katibi Asəf Hacıyevə bacısı
**RAYA XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 538-35-55 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Kompüter mərkəzi | - 538-20-87, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Mühasibatlıq | - 539-59-33 |
| İqtisadiyyat şöbəsi | - 538-42-32 | | |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti 23L "Azərbaycan Nəşriyyatı" MMC 4-cü mərtəbə*

az.reklam@mail.ru




www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 3007
Sifariş 836

Qiyməti 60 qəpik